RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 222 (9389) 12 OKTYABR 2023-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycanın suverenliyinin tam bərpası regionda təhlükəsizliyin möhkəmlənməsinə imkanlar yaradır



### Prezident İlham Əliyev MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 53-cü iclasının iştirakçılarını qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 53-cü iclasının iştirakçılarını - Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, MDB dövlətlərinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının sədri Aleksandr Bortnikovu, Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini, Belarusun Dövlət Təhlükəsizlik Komitəsinin sədri İvan Terteli, Qazaxıstanın Milli Təhlükəsizlik Komitəsinin sədri Yermek Sagimbayevi, Qırğızıstanın Baş nazirinin müavini, Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Kamçıbek Taşiyevi, Özbəkistanın Dövlət Təhlükəsizlik Xidmətinin sədri Abdusalom Azizovu, Tacikistanın Dövlət Milli Təhlükəsizlik Komitəsinin sədri Saymumin Yatimovu və MDB-yə üzv dövlətlərin Antiterror Mərkəzinin rəhbəri Yevgeniy Sısoyevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.

→ 2

## Füzuli şəhəri geri qayıdan sakinləri ilə birlikdə sevincli günlərini keçirir

Qarabağın, Şərqi Zəngəzurun yenidən qurulan yaşayış məskənlərinə keçmiş məcburi köçkünlərin qayıdışı bundan sonra da davam edəcək. Prezident İlham Əliyev oktyabrın 10-da Şuşada keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarına ünvanladığı müraciətdə bildirdi ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış proqramı milli prioritetlərimiz sırasındadır: "Uğurla icra edilən proqram çərçivəsində bu günə qədər Laçın, Füzuli şəhərlərinə, Ağalı, Zabux və Talış kəndlərinə köçkünlərin qayıtması təmin olunub. Növbəti 3 ildə 100 minə qədər köçkünün doğma yurd-yuvalarına dönməsi planlaşdırılır. Həyata keçirilən layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına xidmət etməklə, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün əlverişli şərait yaradır".

→ 10

## Fransada böhran

Hələ yayda Parisin "Şarl de Qoll" hava limanının gözləmə zonasında həşəratların tapıldığı barədə məlumatlar yayılmışdı. Sonra onlara təkcə sakinlərin evlərində deyil, xəstəxanalarda, kinoteatrlarda, kitabxanalarda, həmçinin metro vaqonlarında, avtobuslarda və qatarlarda da rast gəlinməyə başlandı.

→ 10

## Yurdu yaşadan cəngavərlər

Vətən millətin doğulduğu, doyduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik. Evini qorumayandan, ailəsinə biganə qalandan nə ölkə vətəndaşı, nə də "vətən daşı" olar.

→ 11

## Növbədə insan qatilləri Köçəryan və Sarkisyandır...

Əlbəttə ki, iki xalq arasında düşmənçilik toxumu səpən, qanlı müharibələrə səbəb olan separatçılar və onlara rəhbərlik edənlər cəzasız qalmayacaqlar. Müvəqqəti olaraq hələ ki ədalətdən yayına bilən Robert Köçəryanın, Serj Sarkisyanın da həbs olunaraq Azərbaycanda ədalət məhkəməsi qarşısına çıxarılacaqları gün gəlib çatacaq. Onlar da, bu münaqişəni yaradıb bundan şəxsi mənfəətləri üçün bəhrələnən digər cinayətkarlar da düşünməsinlər ki, cəzasızlıqları əbədi olacaq. Çox çəkməz ki, "Gəncənin bombalanmaq əmrini mən verməmişəm" deyən Araik Harutyunyan və digərləri kimi ədalət məhkəməsi qarşısında cavab verib etdiyi əməllərin cəzasını çəkəcəklər.

→ 10

## MÖHTƏŞƏM 20 İL

# Zəfər imzalı qüdrətli Lider




Müasir tariximizin ötən 20 ilini əhatə edən bu dövrdə böyük və sürətli inkişaf, xalqımızın həyatındakı yüksəliş, Azərbaycanın dünya dövlətləri sırasında ləyaqətlə tanınması və öz yerini möhkəmləndirməsi danılmaz həqiqətlərdir. Dövlətimizin başçısının uğurlu daxili və xarici siyasəti, müdrik uzaqgörənliklə qəbul etdiyi taleyüklü qərarlar, bilavasitə təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş irimiqyaslı və hərtərəfli islahatlar, yüksək səviyyədə icra olunmuş çoxsaylı layihələr nəticəsində Azərbaycan nəinki regionda, hətta qlobal müstəvidə sabitlik və təhlükəsizlik, inkişaf və rifah məkanı kimi diqqət mərkəzindədir. Ölkəmiz dayanıqlı iqtisadiyyata, böyük maliyyə resurslarına malik, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, dünyada müstəqil siyasət yürüdən, sürətlə inkişaf edən bir dövlət kimi bütün səviyyələrdə qəbul olunur.

Xüsusi vurğulamaq istərdim ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev böyük xilaskarlıq missiyasını qətiyyətlə yerinə yetirməklə Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpasına nail olub. Xalqımızın qəhrəmanlıq salnaməsini yenidən yazan dövlət başçısının rəhbərliyi ilə müasir texnologiyalara yiyələnən, son nəsil silahlara sahib olan rəşadətli ordumuz 44 günlük Vətən müharibəsi zamanı düşməni diz çökdürüb, torpaqlarımızı işğalçılardan təmizləyib, 200 ildən bəri davam edən erməni mifi və illüziyalarını tamamilə məhv edib. "Qarabağ Azərbaycandır!" həqiqətinin parlaq təzahürü olan və bu ilin sentyabr ayında 24 saatdan da az müddətdə davam edən lokal xarakterli antiterror tədbirlərində Qarabağda yerləşən separatçıların başı əzildi, Ermənistanın torpaqlarımızdakı qeyri-qanuni hərbi birləşmələri məhv edildi. Bu qələbə suverenliyimizin tam bərpa edilməsi ilə tarixə əbədi qızıl hərflərlə daxil oldu.

Bu gün möhtərəm Prezidentimizin qətiyyətlə həyata keçirdiyi Böyük qayıdış proqramı həm Qarabağımızın, Şərqi Zəngəzurun, həm də geniş mənada Azərbaycanın yeni işıqlı sabahlarından xəbər verir. Hazırda Qarabağ və Şərqi Zəngəzur ərazisi böyük bir tikinti meydançasına bənzəyir - nəhəng infrastruktur layihələri uğurla icra olunur, yaşayış məntəqələri tamamilə yenidən qurulur, sənaye, kənd təsərrüfatı və xidmət sektoruna aid müəssisələr inşa olunur. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəal təşəbbüsləri ilə Qarabağda və Şərqi Zəngəzurda reallaşdırılan layihələr, erməni vandalları tərəfindən dağıdılmış qədim mədəni və dini abidələrimizin sürətlə bərpası istiqamətində görülən misilsiz tədbirlər xalqımız tərəfindən böyük razılıq və minnətdarlıq hissi ilə qarşılanır.

→ 4

## Tarixin şərəf səhifəsi

Qədirbilən xalqımız Ulu Öndərin bu tarixi müraciətini böyük ruh yüksəkliyi ilə qəbul edərək 2003-cü ilin oktyabr ayında keçirilən prezident seçkilərində Yeni Azərbaycan Partiyasının (YAP) namizədi İlham Əliyevi dəstəklədi və o, Azərbaycan xalqının, Azərbaycan seçicisinin mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçildi.

Həmin tarixdən keçən 20 illik dövrdə cənab İlham Əliyev Ümummilli Liderin ideyalarına sadiqliyini nümayiş etdirərək xalqımızın ən layiqli oğullarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı istiqamətində çox uğurlu nəticələr əldə edilməsinə nail olmuşdur.

→ 6

## İnkişaf və Zəfər rəmzi

Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük dövlət xadimi və Azərbaycan xalqının lideri kimi əsas missiyası dövlətin və xalqın gücü ilə düşmənin viran qoyduğu işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılmasıdır.

Bu, Böyük qayıdış olmaqla təkcə azərbaycanlıların Qarabağa deyil, vaxtilə deportasiya edildikləri bütün tarixi torpaqlarına dönüşünü əhatə edəcək. İndi Prezident İlham Əliyevin böyük uzaqgörənliklə qurduğu strategiya Azərbaycan dövlətini daha qüdrətli, Azərbaycan xalqını daha güclü, Azərbaycan bayrağını daha uca etməyə hədəflənib.

→ 7

## Qalib dövlət, güclü sosial siyasət



Dinamik iqtisadi inkişafı və beynəlxalq münasibətlər sistemində nüfuzlu mövqeyi ilə seçilən, öz ərazi bütövlüyünü, bununla ədaləti və beynəlxalq hüququ təmin etmiş qalib dövlət olan Azərbaycan eyni zamanda vətəndaş rifahının təminatı istiqamətində mühüm irəliləyişlərə yol açan güclü sosial siyasətə malikdir.

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu bu uğurlu sosial siyasətin Prezident İlham Əliyev tərəfindən ötən 20 ildə sosial sahəyə xüsusi qayğı ilə davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizdə bütün sahələrdə davamlı tərəqqi prosesləri sosial nailiyyətlərlə tamamlanıb və əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atılması təmin olunub.

2003-cü ilin 15 oktyabrında keçirilən prezident seçkilərində xalqımızın etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev andiçmə mərasimində bəyan etmişdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm".

Bu sözlər ötən dövrdə uğurla reallaşdı: iqtisadi və hərbi gücünü daim artıran, qarşısına qoyduğu bütün strateji hədəflərə doğru inamla irəliləyən, bu yolda böyük nailiyyətlərə, qələbələrə imza atan Azərbaycan Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, qüdrətli, lider dövlətinə çevrildi.

Milli iqtisadiyyatın dünyada rekord səviyyədə - 3 dəfədən çox artımına, sahibkarlığın, regionların tərəqqisi şəraitində iqtisadi şaxələndirməyə və qeyri-neft sektorunun əhəmiyyətli dərəcədə genişlənməsinə, dünya iqtisadi sisteminə inteqrasiyanın gücləndirilməsinə, milli iqtisadiyyata investisiya axınının təmin edilməsinə və ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi nüfuzunun xeyli güclənməsinə nail olundu.

→ 5




# Azərbaycanın suverenliyinin tam bərpası regionda təhlükəsizliyin möhkəmlənməsinə imkanlar yaradır

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli qonaqlarımızı, dost ölkələrin xüsusi xidmət orqanlarının rəhbərlərini salamlamağa şadam.

Əminəm ki, Bakıda keçirilən tədbir qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsi işinə xidmət edəcək və gələcək əməkdaşlığa daha bir töhfə olacaq. Əlamətdar haldır ki, sizin iclasınız dövlət başçılarının da ünsiyyətinə və qarşılıqlı fəaliyyətimizin çox mühüm məsələlərinin müzakirəsinə kömək edəcək MDB-nin növbəti sammiti ərəfəsində keçirilir. Azərbaycan MDB-nin işində iştirak etməyə həmişə böyük əhəmiyyət verib. Bütün istiqamətlər üzrə və əlbəttə, təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində sıx təmaslar mövcuddur. Sizin işiniz, həmçinin həmkarlar arasında qarşılıqlı fəaliyyət hazırkı mürəkkəb beynəlxalq şəraitdə xüsusi əhəmiyyətə malikdir, çünki təhdidlər artır, yeni qeyri-sabitlik ocaqları yaranır və ölkələrimizin sabitliyi və təhlükəsizliyi bir çox hallarda sizin strukturların operativ işindən asılıdır.

Düşünürəm ki, siz bugünkü iclasda da əməkdaşlığın möhkəmləndirilməsi məsələlərini müzakirə edəcəksiniz. Əlbəttə, daim operativ informasiya mübadiləsi aparmaq zəruridir. Siz hamıdan yaxşı bilirsiniz ki, informasiya, o cümlədən onun qəbul edilməsi və ona reaksiya verilməsi baxımından böyük əhəmiyyətə malikdir. Əlbəttə ki, ölkələrimiz arasında sıx qarşılıqlı fəaliyyət əməkdaşlığın səmimi, məqsədyönlü, nəticəyə və mümkün təhdidlərin profilaktikasına və ya aradan qaldırılmasına yönəlmiş əməkdaşlıq üçün gözəl imkanlar yaradır.

Ölkələrimizin yerləşdiyi regionlarda, əlbəttə, xarici təhdidlər də mövcuddur və bu istiqamətdə operativ iş riskləri minimuma endirməyə imkan verir. Bizim ölkələrin yerləşdiyi məkanda ictimai-siyasi sabitliyin möhkəmləndiyini görmək sevindiricidir və dövlətlərimiz bir çox çağırışların öhdəsindən uğurla gəlir.

Azərbaycana gəldikdə, artıq bizim daxili təhdidlərimiz yoxdur. Üç həftə əvvəl həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın suverenliyi tam bərpa olunub. Əlbəttə, bu, regionumuzda təhlükəsizliyin möhkəmlənməsi və sülhə nail olunması üçün imkanlar yaradır. Biz buna çalışırıq və hesab edirik ki, başqa alternativ yoxdur. Son həftələrdə baş verən hadisələrin mətbuatda, ilk növbədə Qərb mediasında müxtəlif cür, deyərdim ki, birtərəfli, qərəzli və nə məsələnin tarixini, nə də bugünkü reallıqları tamamilə əks etdirmədən təqdim olunduğunu nəzərə alaraq, son üç ildə baş verənlər barədə sizi qısaca məlumatlandırmaq istəyirəm. Amma mənim informasiyamın, necə deyərlər, daha dolğun olması üçün tarixə qısa ekskursiya etmək istəyirəm.

Ondan başlayım ki, Dağlıq Qarabağ adlı qurum tarixdə heç vaxt mövcud olmayıb. 1805-ci ildə Rusiya imperiyasının tərkibinə daxil olmuş Qarabağ xanlığı olub. Kürəkçay sülh müqaviləsi imzalanıb, onu Azərbaycan tərəfindən Qarabağ xanı İbrahim Xəlil xan,- o, Qarabağın və Şuşanın xanı idi,- Rusiya tərəfindən isə çar generalı Sisianov imzalayıblar. Kürəkçay müqaviləsinin mətni internetdə var və hər kəs tanış ola bilər. Orada erməni əhalisi və ya erməni əhalisinin hansısa xüsusi hüquqları haqqında heç bir xatırlatma yoxdur. Yəni bu, bir daha aydın şəkildə ondan xəbər verir və tarixçilər də yaxşı bilirlər ki, Qarabağ əsrlərboyu, minilliklərlə bu ərazidə yaşamış azərbaycanlıların məskunlaşdığı qədim torpaqdır. Kürəkçay sülh müqaviləsindən sonra Azərbaycan xanlıqları ilə Rusiya arasında digər Azərbaycan xanlıqlarının, o cümlədən İrəvan xanlığının da Rusiyanın tərkibinə daxil olduğu daha iki - 1813-cü ildə Gülüstan sülh müqaviləsi və 1828-ci ildə Türkmənçay müqaviləsi olub. Həmçinin bu sənədlərdə, təbii ki, söhbət Azərbaycan torpaqlarından gedirdi. Cənubi Qafqazın sovetləşdirilməsindən sonra Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. O nə üçün yaradıldı? Çünki XIX əsrin həmin sənədlərindən sonra erməni əhalisinin İrandan və Şərqi Anadoludan Azərbaycan ərazilərinə kütləvi köçü başlandı. Artıq sovetləşdirmə məqamında Azərbaycanın Qarabağ regionunun milli tərkibi XIX əsrin əvvəlində olduğundan fərqli idi. Bunları nəzərə alaraq, ola bilər ki, daha hansısa səbəblərdən sovet hakimiyyəti, Sovet İttifaqı artıq həmin vaxt Dağlıq Qarabağ Muxtar Vilayətini, hətta respublika deyil, Azərbaycan SSR-in tərkibində vilayət yaratdı. Bu, tam yüz il əvvəl baş verib. Artıq Sovet İttifaqında mərkəzdənqaçma meyilləri başlayan vaxtda, erməni separatçılığının və təcavüzkar ekstremizmin baş qaldırdığı 1980-ci illərin sonunda qeyri-rəsmi ekstremist təşkilatları yaradıldı, təəssüf ki, mərkəzi sovet rəhbərliyi tərəfindən buna lazımi qiymət verilmədi, bir çox hallarda isə onları dəstəklədilər.

Hamımız 1980-ci illərin sonunda Sovet İttifaqına kimin başçılıq etdiyini xatırlayırıq və təbii ki, başqa nə isə gözləmək mümkün deyildi. Bütün bunlar ona gətirib çıxardı ki, Azərbaycan və erməni xalqları arasında ənənəvi sülh, dostluq və qarşılıqlı anlaşma münasibətləri pozuldu, zərərli milli müstəsnalıq, üstünlük ideologiyası ortaya atıldı və Azərbaycanın Qarabağ torpağına iddiaları əsaslandırmaq üçün cəhdlər edilməyə başlandı. Bu tendensiyalar artıq Sovet İttifaqının süqutundan sonra açıq təcavüz və Azərbaycan torpaqlarının işğalı ilə davam etdi. Nəticədə Azərbaycan ərazisinin təxminən 20 faizi - həm Qarabağ bölgəsi, həm keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti, həm də həmin muxtar quruma heç bir aidiyyəti olmayan yeddi rayon işğal edildi. Etnik təmizləmə həyata keçirildi, bir milyondan çox azərbaycanlı öz doğma torpaqlarından qovuldu və 2020-ci ilin payızına qədər vəziyyət belə olaraq qaldı. Azərbaycan bütün vasitələrlə məsələni sülh yolu ilə həll etməyə çalışdı. Biz ATƏT-in himayəsi altında uzunmüddətli və nəticəsiz danışıqlar prosesində iştirak etdik. Yeri gəlmişkən, bu münaqişənin nizama salınmaması bir daha göstərir ki, ATƏT-də böyük dəyişiklik olmalıdır. Bu münaqişənin timsalında biz həm də Birləşmiş Millətlər Təşkilatının öz nüfuzundan və öz rıçaqlarından istifadə edə bilməməsinin şahidi olduq. Belə ki, BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq, onlar əməldə yerinə yetirilmədi. Biz uzun müddət gözlədik, bizim ümidlərimiz var idi. Mən 2004-cü ildən müxtəlif mərhələlərdə danışıqlarda iştirak etdim, lakin təəssüf ki, 2019-cu ildə bütün ümidlər puça çıxdı. O vaxt Ermənistanın baş naziri bəyan etdi ki, "Qarabağ Ermənistandır və nöqtə". O, bununla bütün danışıqlara son qoydu və onları tamamilə mənasız etdi. Onu demək lazımdır ki, bu, suveren Azərbaycan dövlətinə qarşı açıq ərazi iddiası idi, çünki dünyanın heç bir ölkəsi, o cümlədən Ermənistan qondarma "Dağlıq Qarabağ respublikasını" tanımırdı. Yeni erməni rəhbərliyinin bu təxribatçı, düşünülməmiş, deyərdim ki, aydın olduğu kimi, özünə qarşı sui-qəsdçi addımı və digər, o cümlədən hərbi xarakterli təxribat fəaliyyətləri, 2020-ci ilin sentyabrında 44 gün davam edən, Ermənistan ordusunun tamamilə darmadağın olması və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə nəticələnən İkinci Qarabağ müharibəsinin başlanmasına gətirib çıxardı. Rusiya Federasiyasının və şəxsən Prezident Vladimir Vladimiroviç Putinin vasitəçiliyi ilə 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə keçmiş Dağlıq Qarabağ regionunun ətrafındakı rayonların hələ də işğal altında olan ərazilərinin də Azərbaycana qaytarılmasını, regiona isə Rusiya sülhməramlı kontingentinin yeridilməsini nəzərdə tutan üçtərəfli Bəyanat imzalandı.

Məsələnin qısa tarixçəsi budur. Belə bir sual yarana bilər: bəs, üç həftə əvvəl nə baş verib? Belə ki, barəsində danışdığım Bəyannamənin imzalanmasına baxmayaraq, Ermənistan onun bəndlərini yerinə yetirmirdi, halbuki ən vacib bəndlərdən birində deyilirdi ki, bütün erməni silahlı qüvvələri Qarabağ ərazisindən çıxarılmalıdır. Buna əməl edilmədi, həm də nümayişkaranə şəkildə edilmədi. Hətta iki il ərzində - 2020-ci ildən 2023-cü ilin əvvəlinədək, Azərbaycanın Laçın rayonunda sərhədə nəzarət etmədiyi bir vaxtda, oraya sayı milyonlarla ölçülən nəhəng döyüş silah-sursatları daşınıb, bu isə tamamilə yaxın vaxtlarda aşkara çıxarılıb. Minalar gətirilib, ərazi əlavə olaraq minalanıb. Bütün bunların hamısı ona gətirib çıxarıb ki, azərbaycanlılar öz torpaqlarında həlak olmağa davam ediblər. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bizim 315 nəfər hərbi və mülki vətəndaşlarımız həlak olmuş və ağır şəkildə yaralanmışlar. Təəssüf ki, onların sayı hər həftə artır.

Azərbaycana qarşı ərazi iddialarına son qoymaqla bağlı Ermənistana edilən çoxsaylı çağırışlar qəribə reaksiyaya səbəb olub ki, həm də bununla bağlı sizi məlumatlandırmaq istərdim. Bir il əvvəl - ötən ilin oktyabr ayında Ermənistan və Azərbaycan rəhbərlərinin beynəlxalq tərəfdaşlarla görüşündə Bəyanat qəbul edildi. Bu sənədə əsasən hər iki ölkə bir-birinin ərazi bütövlüyünü tanıdıqlarını və ölkələrimizin ərazi bütövlüyünü təsdiqləyən 1991-ci il Alma-Ata bəyannaməsinin tərəfdarı olduqlarını bəyan etdilər. Biz bunu Ermənistan tərəfindən atılan mühüm addım hesab etdik, Azərbaycana qarşı ərazi iddialarından nəhayət, əl çəkəcəyini zənn etdik. Lakin təəssüf ki, ümidlərimiz doğrulmadı. Azərbaycanın ərazi bütövlüyünü sözdə və kağız üzərində tanıyan Ermənistan rəhbərliyi əməldə hər şeyin əksini edirdi. Təxribat hərəkətlərinə son qoymaqla bağlı Azərbaycanın etdiyi çoxsaylı çağırışlar təəssüf ki, bütün ciddiliyi ilə qəbul edilmədi. Vəziyyət daha da gərginləşdi, çünki bu il sentyabrın 2-də Ermənistanın baş naziri qondarma "Dağlıq Qarabağ respublikasının" yaradılmasının ildönümü ilə bağlı təbrik məktubu göndərdi. Bu, qırmızı xətti keçmək demək idi və təbii ki, Azərbaycan buna dözə bilməzdi. Bu, bizim ərazimizə qarşı açıq-aşkar iddia irəli sürülməsi idi. Sentyabrın 9-da qondarma "Dağlıq Qarabağ"ın qondarma hakimiyyət orqanları "seçki" keçirdilər, özlərinə yeni başçı seçdilər, bu isə mövcud reallıqların tam şəkildə inkar edilməsi demək idi və sentyabrın 19-da Azərbaycana antiterror tədbirləri keçirmək və öz suverenliyini tam şəkildə bərpa etmək üçün başqa seçim yolu qoymadı. Bir sutkadan da az davam edən tədbirlər nəticəsində Ermənistanın Qarabağdakı ordusu tamamilə tərk-silah edildi, 10-15 min nəfərlik çoxminli kontingent silahsızlaşdırıldı və ərazimizin üzərində tam nəzarət bərpa olundu. Buna paralel olaraq, biz artıq Qarabağın erməni əhalisinin reinteqrasiya planını açıq şəkildə dərc etdik, bu plan internetdə də mövcuddur. Erməni əhalisinə öz evlərində qalmaqla bağlı çağırış edildi, çünki bizim tədbirlərin hədəfləri dəqiq xarakter daşıyırdı. Mülki infrastruktur, mülki obyektlər və mülki şəxslər zərər çəkmədilər. Artıq dediyim kimi, bütün tədbirlər 24 saatdan da az davam etdi. Bu müddət Ermənistanın qanunsuz hərbi birləşmələrinin tam şəkildə demoralizasiyası və mahiyyət etibarilə, təslim olması üçün kifayət etdi. Bu gün ərazilərin quldur dəstələrindən təmizlənməsi prosesi gedir. Bizdə olan məlumatlara görə, hələ ərazimizdə gizlənməyə davam edən müəyyən qruplar mövcuddur. Sentyabrın 20-dən sonra Qarabağda hərbi təxribatlar törədildi. Ərazi kifayət qədər böyükdür, dağlıqdır, meşəlikdir, buna görə də bizə ərazini quldur birləşmələrindən tamamilə təmizləmək üçün vaxt lazım olacaq. Bax, prinsip etibarilə, məsələnin tarixçəsi bundan ibarətdir.

Bəs ətrafda nə baş verir? Bunu da düşünürəm ki, ətrafda baş verənlər barədə verdiyimiz qiyməti bizdən eşitməyiniz sizin üçün maraqlı olar. Ondan başlayaq ki, Azərbaycan həm işğal müddətində, həm İkinci Qarabağ müharibəsində, həm də antiterror tədbirləri zamanı bütün humanitar normalara riayət edib. Beynəlxalq ekspertlər bunun şahididirlər. Yeri gəlmişkən, bu yaxınlarda azad edilmiş ərazilərdə səfərdə olan BMT missiyası dünən və bundan təxminən bir həftə əvvəl artıq iki dəfə məhz bunu vurğulayıb ki, bütün humanitar normalara əməl olunub. Bununla belə, Qərbdəki erməni havadarları Azərbaycana qarşı iyrənc təxribata və yalançı kampaniyaya əl ataraq hər şeydə bizi ittiham edirlər. Burada əsas skripkanı çalan Fransadır və bu, həm sözügedən ölkənin rəsmi şəxslərinin bəyanatlarında, həm Azərbaycanın diskreditasiya edilməsi cəhdlərində, həm də Azərbaycana qarşı aparılan və hər şeyin alt-üst şəkildə təqdim edildiyi media kampaniyasında özünü büruzə verir. Azərbaycan işğalçı kimi təqdim edilir, Ermənistan isə qurban kimi qələmə verilir. Otuzillik işğalın tarixi, bütün şəhər və kəndlərimizin yerlə yeksan edilməsi, Xocalı soyqırımı - bütün bunların hamısı, təbii ki, inkar edilir, tamamilə yalanla dolu hekayələr uydurulur. Lakin yeri gəlmişkən, onu da deməliyəm ki, elə dünən mənə bir videosüjet təqdim etdilər. Həmin videoda ABŞ prezidentliyinə namizəd Azərbaycana qarşı ittihamlarla çıxış edir və bu zaman ermənilər tərəfindən Gəncə şəhərinin raket atəşinə tutulması ilə bağlı kadrları nümayiş etdirir. Belə saxtakarlığa və həyasızlığa yol verəcək qədər simasızlaşmaq qeyri-mümkündür. İkinci Qarabağ müharibəsi zamanı Ermənistan münaqişə zonasından yüz kilometrlərlə uzaqda yerləşən şəhərlərimizi uzaqmənzilli artilleriyadan, o cümlədən ballistik raketlərdən atəşə tutdu. Bunun nəticəsində bizim uşaqlar da daxil olmaqla, yüzdən artıq mülki vətəndaşımız həyatını itirdi. Məhz sözügedən həmin namizəd, Azərbaycanı ittiham edərək, ermənilərin Gəncəyə və Bərdəyə hücumlarının kadrlarını nümayiş etdirir. İndi bu insanlarla necə danışmaq olar, onlara nəyi izah etmək olar? Onlar heç nə eşitmək istəmirlər. Onlar mərkəzdən verilən təlimata uyğun hərəkət edirlər. Ona görə də biz indi Azərbaycana qarşı aparılan misli görünməmiş informasiya müharibəsi ilə üz-üzə qalmışıq. Biz, əlbəttə, öz gücümüzlə buna müqavimət göstəririk, baş verənlərlə bağlı həqiqətləri çatdırmağa çalışırıq və çatdırırıq. Ancaq başa düşmək lazımdır ki, güclər qeyri-bərabərdir. Çoxillik müstəmləkəçilik tarixinə malik Fransa kimi ölkələrin dünya üzrə media resursları bizdəkindən qat-qat çoxdur.

Lakin bununla belə, biz müxtəlif platformalardan və beynəlxalq təşkilatlardan, habelə digər formalardan istifadə edərək, baş verənlər barədə həqiqətləri çatdırırıq və bundan sonra da çatdıracağıq.

Fransadan danışanda, bu ölkənin rəhbərliyinin 2020-ci ilin bütün dövründən başlayan və indi də davam edən qeyri-konstruktiv və təxribatçı rolunu da qeyd etmək istərdim. Azərbaycanın ünvanına çoxsaylı ittihamlar, əsassız təhdidlər və şantaj heç bir səmərə vermədi. Fransa Prezidentinin bu yaxınlarda Azərbaycanın beynəlxalq hüquqla problemləri olduğuna dair verdiyi bəyanat yalnız gülüş doğura bilər. Çünki Azərbaycan beynəlxalq hüququ pozmayıb. Biz öz ərazimizdə döyüşmüşük, separatizmi aradan qaldırmışıq, bütün humanitar normalara, Cenevrə Konvensiyasına əməl etmişik. Beynəlxalq hüququ isə 30 il ərzində Fransanın əlaltısı, bu gün onun əsas müttəfiqi olan Ermənistan başqa dövlətin ərazisini işğal edərək pozub. Necə deyərlər, öz gözündə tiri görməyib başqasının gözündə tük axtarmaq lazım deyil. Fransız rejimi milyon yarım əlcəzairlini təkcə əlcəzairli və müsəlman olduğuna görə məhv edib. Bu, soyqırımıdır. Hələ Fransanın Afrikada, Afrikanın digər hissələrində və bütün dünyada qanlı cinayətlərini demirəm. Fransanın bu gün müstəmləkələr saxlaması da ağlasığmazdır. Azərbaycan və şəxsən mənim tərəfimdən bu məsələ Qoşulmama Hərəkatının Sədri kimi dəfələrlə Qoşulmama Hərəkatının sammitlərində qaldırılıb və qanlı müstəmləkə keçmişi olan və hətta bu gün bəzi Afrika ölkələrinin nə qədər səy göstərsələr də, xilas ola bilmədikləri bu ölkə bizi beynəlxalq hüququ pozmaqda ittiham edir. Bu, absurddur.

Daha bir məsələ. İndi bəzi ölkələr və beynəlxalq təşkilatlar Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasında vasitəçilik xidmətləri göstərməyə çalışır. Mən bu yaxınlarda demişəm ki, əgər bu siyasət birtərəfli xarakter daşımırsa və qərəzli deyilsə, biz bu cəhdləri qəbul edirik. Amma Fransanın bir tərəfdən bütün diplomatik normaları pozduğunu, təhqirlərlə səciyyələnən bəyanatlarını, çirkin uydurmalarını, təxribat və yalanlarını görürüksə, digər tərəfdən, onun vasitəçilik xidmətləri göstərmək cəhdləri heç bir məntiq çərçivəsinə sığmır. Bizə belə vasitəçilər lazım deyil. Bu birincisi. İkincisi, kimsə vasitəçilik etmək istəyirsə, bu, PR-aksiyası xarakteri daşımamalı, əməldə nəticəyə yönəlməlidir.

Həmçinin sizə məlumat vermək istəyirəm ki, oktyabrın 12-də, bir gün sonra Rusiya tərəfinin təklifi ilə Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Bişkekdə görüşü olmalı idi. Biz Rusiya Federasiyasının vasitəçiliyini minnətdarlıqla qəbul edirik, çünki Rusiya bizim qonşumuz, müttəfiqimiz, həmçinin bizim regionda yerləşən, minlərlə kilometr uzaqda olan ölkələrdən fərqli olaraq qonşuluqda yerləşən Ermənistanın da müttəfiqidir. Təbii ki, ölkələrimiz arasında münasibətlərin tarixi, əlbəttə, Rusiya tərəfinin vasitəçiliyini nəzərdə tutur. Biz bu təklifi müsbət qarşıladıq və xarici işlər nazirimiz Rusiya və erməni həmkarları ilə görüşməyə hazır idi. Təəssüf ki, erməni tərəfi bu görüşdən imtina etdi. İndi sual yaranır: Ermənistan sülh istəyirmi? Zənnimcə, xeyr, çünki əgər sülh istəsəydi, bu imkandan imtina etməzdi. Ermənistanın baş naziri 6 saata Qranadaya uçur, orada Azərbaycansız Azərbaycanın müzakirə edildiyi mənasız görüşdə iştirak edir, amma 2-3 saata Bişkekə uça bilmir, onun mühüm işləri varmış. Bax, biz bütün bunları açıq deməliyik. Bütün bunları hamı görür, ancaq bunu danışmaq və nəzərə almaq lazımdır.

Öz şərhlərimə yekun vuraraq onu da demək istərdim ki, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasına gəldikdə, biz buna hazırıq. Biz sülh sazişi üzərində işi davam etdirməyə hazırıq. Erməni tərəfinin Rusiya Federasiyasının vasitəçiliyindən imtina edəcəyi təqdirdə, düşünürəm ki, Azərbaycan ilə Ermənistanın xarici işlər nazirləri arasında birbaşa danışıqlar alternativ ola bilər. Hər hansı digər platformalar öz xidmətlərini təklif edən həmin ölkələrin Azərbaycana deyil, həqiqətə, haqlı mövqeyə və beynəlxalq hüquqa münasibəti nəzərə alınmaqla tərəfimizdən təhlil ediləcək.

Vaxt tapıb gəldiyinizə görə bir daha sizə təşəkkürümü bildirmək istərdim. İndi hər yerdə çətin zamandır, hamının işi çoxdur, amma bu gün sizin Bakıda olmağınız həm də ölkəmizə, dövlətlərimizin xüsusi xidmət orqanları arasında əməkdaşlığın səviyyəsinə münasibətinizi göstərir və keçmiş SSRİ məkanında mühüm təhlükəsizlik amilidir. Zənnimcə, biz əməkdaşlığımızı möhkəmləndirməliyik. Tarixi əlaqələr, ortaq keçmişimiz - bütün bu amillər MDB məkanında dostluğun möhkəmlənməsinə və qarşılıqlı dəstəyə kömək edəcək. Beləliklə, bir daha sizi salamlayır, bugünkü tədbirdə uğurlar diləyirəm.

❖ ❖ ❖

Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin direktoru, MDB dövlətlərinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri şurasının sədri **Aleksandr Bortnikov** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Əvvəlcə, MDB-yə üzv dövlətlərin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının növbəti iclasının Azərbaycanda keçirilməsinə şərait yaratdığınız üçün Sizə təşəkkür etmək istəyirəm. Bu, artıq Şuramızın fəaliyyəti dövründə keçirdiyimiz beşinci iclasdır. Azərbaycan həmişə Şuranın işinin təşkili üçün əlverişli və gözəl şərait yaradır. Əlbəttə, biz bugünkü tədbirimizin hazırlanmasında aparılan ilkin işlərə görə Azərbaycan Təhlükəsizlik Xidmətinin rəhbərinə də minnətdarıq. Demək istəyirəm ki, fəaliyyət göstərdiyi bütün dövr ərzində Şura öz əhəmiyyətini sübut edib. Sizin bu gün xüsusi xidmət orqanlarının rəhbərlərinə çatdırdığınız məsələlərin əksəriyyəti Sovet İttifaqının süqutundan sonra qarşılaşdığımız problemlərin fonunda real olaraq mövcuddur.

Çox təəssüf ki, hər bir respublika, hər bir suveren dövlət bu və ya başqa dərəcədə bizim Şuranın tədbirlərində müzakirə etdiyimiz problemləri yaşayıb. Bunlar bizim son illər daim bəhs etdiyimiz separatçılıq və ekstremizm təzahürləridir. Biz bu və ya başqa dərəcədə bununla qarşılaşmışıq. Biz bilavasitə dövlətlərimizin təhlükəsizliyi, suverenliyi, konstitusiya quruluşu ilə bağlı məsələlərdən danışırıq, belə ki, həm ölkənin daxilində olan, həm də xarici amillərlə bağlı bəzi problemlərin hamısı ümumilikdə təhlükəsizlik məsələlərinə təsir göstərir.

Çox təəssüf ki, son vaxtlar MDB dövlətlərinin, demək olar ki, hamısı Sizin indi söylədiyiniz bu və ya digər məsələlərlə qarşılaşır. Hesab edirəm ki, bugünkü iclasımız birgə işimizin bütün istiqamətləri üzrə irəliləməyə kömək edəcək.

İlham Heydər oğlu, yaradılan şəraitə və bugünkü görüşdə bizə verdiyiniz tövsiyələrə, tarixi arayışa, hazırda bizim içərisində olduğumuz MDB məkanında və regionda baş verən proseslərin əsaslandırılmasına görə bir daha Sizə təşəkkür etmək istəyirəm. Bu, baş verənlərin anlaşılması və obyektiv qiymətləndirilməsi baxımından çox əhəmiyyətlidir. Əlbəttə, bugünkü iclasın nəticələrindən gələcəkdə dövlətlərimizin təhlükəsizliyinin təmin edilməsi məsələlərinin həllində maksimum dərəcədə səmərəli və məhsuldar istifadə etmək üçün bizdən asılı olan hər şeyi edəcəyik.

Çox sağ olun.

# "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında 2023-cü il 24 fevral tarixli Saziş"ə dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2023-cü il iyulun 18-də Şuşa şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması haqqında 2023-cü il 24 fevral tarixli Saziş"ə dəyişikliklərin edilməsi barədə Protokol" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 oktyabr 2023-cü il*

# Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**ağır cinayətlər məhkəmələri üzrə:**

**Lənkəran Ağır Cinayətlər Məhkəməsi**
Məmmədova Esmira Qərib qızı
**Şəki Ağır Cinayətlər Məhkəməsi**
Əfəndizadə Tural Qurbanəli oğlu

**inzibati məhkəmələr üzrə:**

**Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi**
Əliyev Tural Yusif oğlu
**Gəncə İnzibati Məhkəməsi**
Əliyeva Leyla Kamil qızı
**Sumqayıt İnzibati Məhkəməsi**
Həbibova Könül Əbülfəz qızı
**Şirvan İnzibati Məhkəməsi**
Qurbanova Pərvanə Tahir qızı

**kommersiya məhkəmələri üzrə:**

**Gəncə Kommersiya Məhkəməsi**
Qələndərzadə Ramiq Ramis oğlu
**Sumqayıt Kommersiya Məhkəməsi**
Həmidli Fərman Fəzail oğlu

**hərbi məhkəmələr üzrə:**

**Gəncə Hərbi Məhkəməsi**
Bəşirov Cəmil İsmayıl oğlu
Quliyev Tariyel Şirindil oğlu

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
Məmmədov Pərviz Şahin oğlu
**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Musayeva Vüsalə Vahid qızı
**Bakı şəhəri Nizami Rayon Məhkəməsi**
Əliyeva Starə Vidadil qızı
**Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi**
Muradov Pərviz Namiq oğlu
Rzayeva Fəridə İslam qızı

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Abşeron Rayon Məhkəməsi**
Qasımov Abusət Sahib oğlu
Mirhəsənli Mirnəsir Mirfazil oğlu
**Ağdaş Rayon Məhkəməsi**
Mürsəlova Aygün Mayıl qızı
**Füzuli Rayon Məhkəməsi**
İsmayılov Elmir Akif oğlu
**Gəncə Şəhər Məhkəməsi**
Xanməmmədova Liza Əliəşrəf qızı
**Göyçay Rayon Məhkəməsi**
Qurbanova Gülnaz İntiqam qızı
**Hacıqabul Rayon Məhkəməsi**
Bayramov Orxan Telman oğlu
**Xaçmaz Rayon Məhkəməsi**
Abiyeva Nərmin Mirhəsən qızı
Əliyeva Aynur Məhəmməd qızı
**Mingəçevir Şəhər Məhkəməsi**
Quliyeva Güləndam Gündüz qızı
**Salyan Rayon Məhkəməsi**
Əliyeva Vəsilə Əlövsət qızı
**Sumqayıt Şəhər Məhkəməsi**
İsmayılov Samir Bəyistan oğlu
Şirəliyeva Vəfa Zavrulla qızı
**Şabran Rayon Məhkəməsi**
Mirzəfərova Könül Murtuz qızı
**Şəki Rayon Məhkəməsi**
Musayev Kamran İbrahim oğlu
**Şirvan Şəhər Məhkəməsi**
Məmmədli Aydan Zakir qızı
**Ucar Rayon Məhkəməsi**
Bədəlov Xəyal Natiq oğlu.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

Aytən Heydər qızı Əliyeva Bakı Kommersiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Kamran Nüsrət oğlu Muxtarov Gəncə Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Elnur Aləm oğlu Nuriyev Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Anar Böyükkişi oğlu Sadıqov Xaçmaz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Azər Heydər oğlu Tağıyev Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Nurəddin Nizami oğlu Hüseynli Gəncə Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Elçin Qüdrət oğlu Məmmədov Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Nahid Namiq oğlu Mirzəyev Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

Kənan Zakir oğlu Hüseynov Gəncə Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

Fikrət Hüseyn oğlu Əliyev Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Hərbi Məhkəməsinin hakimi təyin edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 oktyabr 2023-cü il*

# İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib



Oktyabrın 11-də İqtisadi Şuranın və Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurasının növbəti iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən birgə iclasın gündəliyində ölkənin neft-qaz hasilatı sahəsində cari vəziyyət və perspektivlər, o cümlədən SOCAR-ın və ümumilikdə respublikanın neft-qaz sektorunun uzunmüddətli inkişaf planları, gələcək hasilat proqnozları, Heydər Əliyev adına Neft Emalı Zavodunun Yenidənqurma və Modernizasiya Layihəsinin icra vəziyyəti, həmçinin layihənin icrası üçün tələb olunan əlavə işlər və digər cari məsələlər geniş müzakirə olunub.

Tədbirdə SOCAR-ın prezidenti Rövşən Nəcəfin məruzəsi və Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun çıxışı dinlənilib.

İclasın yekununda müzakirə olunan məsələlər barədə şuranın üzvlərinin təklifləri nəzərə alınmaqla AİH-in İdarə Heyətinə və SOCAR-a müvafiq tapşırıqlar verilib.

# Buxarestdə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət

Rumıniyada rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Buxarestdəki "Tey"parkında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edib.



Milli Məclisin Sədri abidənin önünə əklil qoyub.

Xatırladaq ki, 2004-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə Buxarestdə Ulu Öndər Heydər Əliyevin abidəsinin açılışı olub. Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin Buxarestdə abidəsinin qoyulması Azərbaycan-Rumıniya əlaqələrinin inkişafının təzahürüdür.

***"Azərbaycan"***



# Milli Məclisin Sədri Sahibə Qafarova Rumıniyanın Baş naziri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova Rumıniyaya rəsmi səfəri çərçivəsində bu ölkənin Baş naziri İon-Marçel Çolaku ilə görüşüb. Milli Məclis Sədrini səmimiyyətlə salamlayan Rumıniyanın Baş naziri Azərbaycana səfərini və səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşünü xoş təəssüratlarla xatırlayıb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Baş nazir Azərbaycanla Ruminiya arasında strateji münasibətlərin uğurla inkişaf etdiyini bildirərək ölkələrimizin, sadəcə, tərəfdaş deyil, həm də dost olduqlarını vurğulayıb. Onun sözlərinə görə, Azərbaycanın dövlət müstəqilliyini Türkiyədən sonra dünyada ikinci tanıyan ölkə Rumıniyadır. Həmçinin Rumıniya Azərbaycanla strateji tərəfdaşlığa dair saziş imzalayan ilk Avropa İttifaqı ölkəsidir. Azərbaycanın Rumıniyanın Cənubi Qafqazda birinci ticarət tərəfdaşı olduğunu diqqətə çatdıran İon-Marçel Çolaku ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı üçün daha böyük potensial olduğunu qeyd edib.

Daha sonra Baş nazir Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolu barədə danışıb. O, avropalı həmkarları ilə də "Cənub qaz dəhlizi"ni müzakirə etdiyini xatırladaraq deyib ki, nəqliyyat sahəsində də Azərbaycan mühüm rola malikdir. Onun sözlərinə görə, Qara dəniz və Xəzər dənizi arasında nəqliyyat bağlantısının gücləndirilməsi üçün yaxşı imkanlar mövcuddur. "Yaşıl enerji" layihələrinin vacibliyi barədə fikirlərini ifadə edən İon-Marçel Çolaku deyib ki, Avropanın hazırda "yaşıl enerji"yə ciddi ehtiyacı var və Azərbaycandan "yaşıl enerji"nin ixracı məsələsi əhəmiyyətlidir.

Azərbaycan parlament nümayəndə heyətinə və ölkəmizin ünvanına səsləndirdiyi xoş sözlərə görə minnətdarlığını bildirən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan-Rumıniya dostluq münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsində uğurla inkişaf etdiyini deyib.

Spiker Sahibə Qafarova Baş nazir İon-Marçel Çolakunun Rumıniya Deputatlar Palatasının Sədri kimi cari ilin fevral ayında ölkəmizə səfərini və onunla görüşünü məmnunluqla xatırlayıb.

Milli Məclisin Sədri ikitərəfli münasibətlərin inkişafında dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlər və görüşlərin müstəsna rolunu qeyd edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniyaya, həmçinin Rumıniya dövlət başçılarının ölkəmizə səfərlərini xatırladıb. Sahibə Qafarova diqqətə çatdırıb ki, bu qarşılıqlı səfərlər ölkələrimiz arasında yüksəksəviyyəli fəal siyasi dialoqun mövcud olduğunu göstərir.

Azərbaycan parlamentinin rəhbəri bildirib ki, iki ölkə arasında müqavilə-hüquq bazası kifayət qədər zəngindir və bu günə qədər iki ölkə arasında 60-dan çox sənəd imzalanıb ki, bu da ikitərəfli münasibətlər üçün mühüm hüquqi baza təşkil edir. Sahibə Qafarovanın sözlərinə görə, ölkələrimiz arasında iqtisadiyyat, enerji sahəsində əlaqələr yaxşı səviyyədədir, ticarət dövriyyəsi getdikcə artmaqdadır. Bununla yanaşı, müxtəlif sahələr üzrə əməkdaşlığın genişləndirilməsi üçün geniş potensial var. O, inamını ifadə edib ki, Ticarət-İqtisadi Əlaqələr və Elmi-Texniki Əməkdaşlıq üzrə Birgə Komissiyanın səmərəli fəaliyyəti əməkdaşlıq sahələrini şaxələndirməyə imkan verəcək.

Görüşdə qeyd olunub ki, ölkələrimiz arasında əməkdaşlığın əsas sahələrindən biri enerji ilə bağlıdır. Sahibə Qafarovanın sözlərinə görə, hazırda enerji təhlükəsizliyi məsələsində yeni perspektivlər var. O cümlədən "yaşıl enerji" sahəsində əməkdaşlığın gücləndirilməsi imkanları mövcuddur. Milli Məclisin Sədri Azərbaycanda müxtəlif sahələrə investisiya imkanları, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işləri barədə də məlumat verib.

Ölkələrimiz arasındakı münasibətlərdə parlamentlərin özünəməxsus yeri olduğunu deyən Milli Məclisin Sədri bu gün parlamentlərimiz arasında səmərəli əməkdaşlığın qurulmasından məmnunluğunu ifadə edib. O, ötən dövr ərzində parlament sədrləri, dostluq qrupları səviyyəsində baş tutmuş qarşılıqlı səfərlərin, hər iki parlamentdə fəaliyyət göstərən dostluq qruplarının əhəmiyyətini qeyd edib.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova BMT Təhlükəsizlik Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş və ərazilərimizin Ermənistanın işğalından azad edilməsini tələb edən qətnamələrin 30 ilə yaxın icra olunmaması, 2020-ci ildə Azərbaycanın öz gücünə həmin qətnamələrin icrasını təmin etməsi və torpaqlarını işğaldan azad etməsi barədə məlumat verib. Sahibə Qafarova deyib ki, Azərbaycan 30 ilə yaxın bir dövr ərzində ədalətin bərpa olunmasını, beynəlxalq sənədlərin icra edilməsini gözlədi. Lakin beynəlxalq münasibətlərdə mövcud olan ikili standartlar səbəbindən işğala nəinki son qoyulmadı, hətta bir sıra hallarda işğalçını müdafiə edən, işğalçılıq siyasətinin davam etməsini təşviq edən addımların şahidi olduq. Nəhayət, Azərbaycan özü ədaləti bərpa etdi. Amma çox paradoksaldır ki, bu gün bəzi dairələr özünün beynəlxalq hüquqla tanınmış, təsdiq olunmuş ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyi üçün Azərbaycana qarşı qərəzli bəyanatlar səsləndirir.

Milli Məclisin Sədri görüşdə həmçinin hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi, məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması prosesi barədə məlumat verib. Spiker Azərbaycanın beynəlxalq hüququn 5 əsas prinsipi əsasında Ermənistanla sülh sazişinin imzalanmasını təklif etdiyini, lakin Ermənistanın ötən 3 il ərzində destruktiv mövqe tutduğunu, müxtəlif hərbi-siyasi təxribatlar törətdiyini diqqətə çatdırıb. O, Azərbaycanın lokal antiterror tədbirləri, onun nəticələri, Qarabağın erməniəsilli sakinlərinin reinteqrasiyası istiqamətində həyata keçirilən işlər barədə də danışıb.

Baz nazir İon-Marçel Çolaku Rumıniyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, tezliklə Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasını arzuladıqlarını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Ermənistanın inkişafı sülh müqaviləsini imzalamaqdan keçir

Regionda sülhün və sabitliyin bərqərar edilməsi ilk növbədə bölgə dövlətlərinin marağında olmalıdır. Region dövlətləri istəmədikdən sonra kənardan sülhün gəlməsi qeyri-mümkündür. Müəyyən edilmiş sərhədlər daxilində sülhə nail olmaq hər kəs üçün prioritet olmalıdır.

Ermənistanın Azərbaycan ərazilərini işğal altında saxlaması 30 ilə yaxın davam etmişdir və bu, çox ağrılı bir proses olmuşdur. Təəssüf ki, BMT TŞ-nin qətnamələri, keçmişdə qalan və münaqişənin həlli üçün mandat almış ATƏT-in Minsk qrupu bu müddət ərzində münaqişənin həll edilməsinə heç bir töhfə verməmişdir.

Hətta bugünkü vəziyyətdə görürük ki, bir zamanlar ATƏT-in Minsk qrupunun həmsədri olmuş Fransa əksinə, münaqişənin həllində yox, bölgədə hər zaman xaosun olmasında maraqlı olub. Bu ölkə Ermənistanı hər addımda revanşist hərəkətlərə təhrik edərək sülhün və sabitliyin qarşısında maneə yaratmış, bu cəhdlərinə hazırda da davam edir. Fransa hər addımda tarixə qovuşmuş münaqişəni alovlandırmağa cəhd edir.

Bəzi dairələr unudurlar ki, məhz 2020-ci il sentyabrın 27-də başlayan Zəfər yürüşümüz 44 gün kimi qısa müddətdə tarixi qələbəmizlə başa çatıb. Nəticədə Ermənistan məğlubiyyətə düçar olaraq təslim olub və kapitulyasiya aktını imzalayıb. Daha sonra 24 saatdan da az davam edən lokal xarakterli antiterror tədbirləri ilə separatçıların üzərində inamlı qələbə qazanmışıq və ölkəmiz öz suverenliyini tam bərpa edib.

Bu gün erməni xalqı başa düşür ki, onları uzun illər ərzində idarə edən canilər yalnız Azərbaycan xalqına qarşı soyqırım cinayətləri törətməmiş, eləcə də öz hakimiyyətləri uğrunda bütün kriminal əməllərə bulaşmışlar.

Bu gün regionun inkişafı üçün birgə səylərin həyata keçirilməsinin zamanıdır. Bunun əsasında regionun sabitliyi və dövlətlərin birliyi dayanır. Davamlı inkişafa, sülhə və sabitliyə nail olmağın yolu isə Ermənistanın sülh müqaviləsini imzalamasından keçir. Ermənistan müqaviləni imzalamalıdır. Bunun icrasına nail olmaq üçün ölkəmizin kifayət qədər gücü və siyasi iradəsi var. Eyni zamanda regiona sülhün gəlməsi hər gün dayaqları bir az da zəifləyən Ermənistan hakimiyyətinin dağılmasının qarşısını almış olacaq.

Prezident İlham Əliyevin Gürcüstana səfəri mühüm əhəmiyyət kəsb edir. Bu gün biz Cənubi Qafqazda Azərbaycan və Gürcüstanın timsalında bir dostluq nümunəsi görürük. Ölkələrimiz tarixi, mədəni bağlılıqları ilə yanaşı, uzun illərdir ki, dostluq, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda yaşayan gürcülər, Gürcüstanda yaşayan azərbaycanlılar diskriminasiyaya məruz qalmadan yaşadıqları ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edirlər, yaradılmış bərabər imkanlardan yararlanırlar.

Xalqlarımız arasında tarixi köklərə dayanan dostluq münasibətləri Ümummilli Lider Heydər Əliyevin və Gürcüstanın mərhum Prezidenti Eduard Şevardnadzenin səyləri nəticəsində dövlətlərarası dostluğa çevrilib. Ölkələrimiz müstəqilliyini yenidən bərpa etdikdən sonra Ümummilli Liderin Gürcüstanla dostluğa verdiyi önəm, imzalanmış sənədlər münasibətlərin inkişafına müsbət töhfələr verib. Gürcüstan ölkələrimiz arasında dostluq münasibətlərinin qurulmasında əvəzsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə bir sıra tədbirlərə evsahibliyi edir.

Sevindirici haldır ki, bu gün iki ölkə arasında mövcud olan dostluq münasibətlərinin inkişafında dövlət başçılarının səmimi münasibətləri, yüksəksəviyyəli qarşılıqlı səfərləri müsbət rol oynayır. Birgə icra edilən layihələr, mədəni, iqtisadi, humanitar sahələrdə genişmiqyaslı əlaqələr hər iki ölkənin maraqlarına xidmət edir.

Qlobal layihələrin birgə icra edilməsi, dəmir yolu xəttinin çəkilişi, ölkələrin hər zaman bir-birinə dəstək verməsi, beynəlxalq təsisatlarda sıx əməkdaşlığı region və dünya üçün bir dostluq nümunəsidir. Ölkəmiz hər zaman sülhə və əməkdaşlığa böyük əhəmiyyət verir, sülhə və birgəyaşayışa xidmət edən bütün müsbət addımları dəstəkləyir.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini***



# MÖHTƏŞƏM 20 İL

2003 2023

**Hər bir Azərbaycan vətəndaşının Prezidenti kimi fəaliyyətinin ilk günlərindən başlayaraq xalqımızın Ulu Öndəri Heydər Əliyevin müqəddəs yolunu - müstəqillik, inkişaf, tərəqqi, demokratiya yolunu uğurla davam etdirən, ölkəmizi zamanın çox ağır və keşməkeşli sınaqlarından, mürəkkəb geosiyasi proseslərindən məharətlə çıxararaq onu dünya dövlətləri arasında söz, nüfuz sahibinə çevirən cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən 20 il, sözün tam mənasında, çoxəsrlik tariximizə silinməz, qızıl hərflərlə həkk olunmuş bir dövr kimi daxil olub. Üzümüzə açılan hər səhəri yeni uğurlar, yeni nailiyyətlərlə qarşılayırıq.**



# Zəfər imzalı qüdrətli Lider

Azərbaycan xalqı dövlətimizin başçısını intibahın, sabitliyin, təhlükəsizliyin və sülhün qarantı hesab edir, ətrafında bir yumruq kimi birləşərək ona tam güvənir. Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, 30 ilə yaxın müddətdə Ermənistan tərəfindən işğal altında saxlanılan dədə-baba torpaqlarımızın azad olunması ilə sona çatan 44 günlük Vətən müharibəsində böyük sərkərdəlik keyfiyyətləri nümayiş etdirərək tarixi Zəfərə imza atan cənab İlham Əliyev Yenilməz, Müzəffər Ali Baş Komandan kimi xalqımızın qürur, fəxarət mənbəyidir. Azərbaycan xalqı əmindir ki, bölgəmizdə, daha geniş coğrafi məkanda baş verə biləcək istənilən təlatümdə onu qalib, müstəqilliyini toxunulmaz edəcək qüdrətli Lideri vardır. Bu gün ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş müasir Azərbaycan cənab Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə müstəqillik yollarında inamlı, qətiyyətli addımlarla sürətlə irəliləyir.

Müasir tariximizin ötən 20 ilini əhatə edən bu dövrdə böyük və sürətli inkişaf, xalqımızın həyatındakı yüksəliş, Azərbaycanın dünya dövlətləri sırasında ləyaqətlə tanınması və öz yerini möhkəmləndirməsi danılmaz həqiqətlərdir. Dövlətimizin başçısının uğurlu daxili və xarici siyasəti, müdrik uzaqgörənliklə qəbul etdiyi taleyüklü qərarlar, bilavasitə təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş irimiqyaslı və hərtərəfli islahatlar, yüksək səviyyədə icra olunmuş çoxsaylı layihələr nəticəsində Azərbaycan nəinki regionda, hətta qlobal müstəvidə sabitlik və təhlükəsizlik, inkişaf və rifah məkanı kimi diqqət mərkəzindədir. Ölkəmiz dayanıqlı iqtisadiyyata, böyük maliyyə resurslarına malik, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, dünyada müstəqil siyasət yürüdən, sürətlə inkişaf edən bir dövlət kimi bütün səviyyələrdə qəbul olunur.

Xüsusi vurğulamaq istərdim ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev böyük xilaskarlıq missiyasını qətiyyətlə yerinə yetirməklə Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpasına nail olub. Xalqımızın qəhrəmanlıq salnaməsini yenidən yazan dövlət başçısının rəhbərliyi ilə müasir texnologiyalara yiyələnən, son nəsil silahlara sahib olan rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsi zamanı düşməni diz çökdürüb, torpaqlarımızı işğalçılardan təmizləyib, 200 ildən bəri davam edən erməni mifi və illüziyalarını tamamilə məhv edib. "Qarabağ Azərbaycandır!" həqiqətinin parlaq təzahürü olan və bu ilin sentyabr ayında 24 saatdan da az müddətdə davam edən lokal xarakterli antiterror tədbirlərində Qarabağda yerləşən separatçıların başı əzildi, Ermənistanın torpaqlarımızdakı qeyri-qanuni hərbi birləşmələri məhv edildi. Bu qələbə suverenliyimizin tam bərpa edilməsi ilə tarixə əbədi qızıl hərflərlə daxil oldu.

Bu gün möhtərəm Prezidentimizin qətiyyətlə həyata keçirdiyi Böyük qayıdış proqramı həm Qarabağımızın, Şərqi Zəngəzurun, həm də geniş mənada Azərbaycanın yeni işıqlı sabahlarından xəbər verir. Hazırda Qarabağ və Şərqi Zəngəzur ərazisi böyük bir tikinti meydançasına bənzəyir - nəhəng infrastruktur layihələri uğurla icra olunur, yaşayış məntəqələri tamamilə yenidən qurulur, sənaye, kənd təsərrüfatı və xidmət sektoruna aid müəssisələr inşa olunur. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəal təşəbbüsləri ilə Qarabağda və Şərqi Zəngəzurda reallaşdırılan layihələr, erməni vandalları tərəfindən dağıdılmış qədim mədəni və dini abidələrimizin sürətlə bərpası istiqamətində görülən misilsiz tədbirlər xalqımız tərəfindən böyük razılıq və minnətdarlıq hissi ilə qarşılanır.

Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, idmanın inkişafına, gənclərin sağlamlığına, fiziki hazırlığına hər zaman xüsusi diqqət və qayğı göstərən Ümummilli Lider Heydər Əliyevin bu mütərəqqi yanaşması möhtərəm cənab Prezident tərəfindən uğurla davam etdirilir. Belə ki, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildiyi vaxtdan ötən dövr ərzində cənab İlham Əliyevin idmanın inkişafı istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər, uğurla reallaşdırılan layihələr nəticəsində ölkəmiz beynəlxalq idman mərkəzlərindən birinə çevrilib. Cənab Prezidentin bilavasitə səyi ilə ötən illər ərzində ölkədə 50-yə yaxın olimpiya-idman kompleksi tikilərək istifadəyə verilib, beynəlxalq idman tədbirlərinin ölkəmizdə keçirilməsi ənənəvi hal alıb. Azərbaycan idmanın ayrı-ayrı növləri üzrə dünya və Avropa çempionatlarına, nüfuzlu turnirlərə, bir çox digər mötəbər beynəlxalq yarışlara, o cümlədən Birinci Avropa Oyunlarına, Dördüncü İslam Həmrəyliyi Oyunlarına, "Formula-1" Qran-prisinə uğurlu evsahibliyi edib. Ölkəmizdə idmana və idmançılara göstərilən yüksək dövlət qayğısı sayəsində idmançılarımız beynəlxalq yarış və turnirlərdə vətənimizin idman şərəfini uca tutur, Azərbaycan bayrağını yüksəklərə qaldırırlar.

Xalqımızın Ümummilli Lideri, bütün dövrlərin ən böyük azərbaycanlısı Heydər Əliyevin müəyyən etdiyi mütərəqqi inkişaf strategiyasını və siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezidentimiz cəmiyyətin təhlükəsizliyinin qorunması və mülki müdafiəsinin təşkili məsələlərinə də hər zaman xüsusi diqqətlə yanaşıb. Məhz bunun nəticəsidir ki, Azərbaycanda Fövqəladə Hallar Nazirliyinin yaradılması haqqında 2005-ci il dekabrın 16-da müvafiq sərəncam imzalayan dövlət başçısının diqqət və qayğısı sayəsində yeni yaradılmış nazirlik qısa müddətdə mobil, hər cür təbii və texnogen fövqəladə hadisə ilə uğurla mübarizə aparmaq gücünə malik bir quruma çevrildi. Cənab Prezidentin dəstəyi sayəsində Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinin müasir standartlar səviyyəsində təşkili, strukturunun zamanın tələbinə uyğun təkmilləşdirilməsi, normativ hüquqi, kadr hazırlığı və maddi-texniki bazasının ən müasir standartlar səviyyəsində formalaşdırılması mümkün oldu. Bu isə ölkə əhalisinin və ərazilərinin təhlükəsizliyinin aidiyyəti üzrə təmin edilməsi deməkdir.

Bu çərçivədə, böyük fəxarət hissi ilə qeyd etməliyəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev 2007-ci il dekabrın 17-də Bakıda, Azadlıq meydanında Fövqəladə Hallar Nazirliyinin aldığı, fövqəladə hallar zamanı istifadə edilən yeni texnika, avadanlıq və qurğuların təqdimatında, 2008-ci il noyabrın 12-də Fövqəladə Hallar Nazirliyinin yeni istifadəyə verilmiş inzibati binasının açılış mərasimində, 2011-ci il fevralın 23-də Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə qoşunlarına döyüş bayrağının təqdim edilməsi mərasimində, 2013-cü il dekabrın 27-də FHN-in Akademiyasının beynəlxalq standartlara cavab verən yeni binasının və 2018-ci il dekabrın 27-də nazirliyin İdman-Sağlamlıq Mərkəzinin açılış mərasimində iştirak edib, 2022-ci il dekabrın 9-da Fövqəladə Hallar Nazirliyi tərəfindən alınmış və işğaldan azad olunmuş ərazilərdə istifadə üçün nəzərdə tutulmuş xüsusi təyinatlı texnikalarla şəxsən tanış olub. Hər gəlişi ilə Fövqəladə Hallar Nazirliyinin kollektivinə sonsuz sevinc bəxş edən dövlətimizin başçısının bu tədbirlərdə proqram xarakterli bütün göstəriş və tapşırıqları fəaliyyət istiqamətlərimiz kimi qəbul edilib.

Yeri gəlmişkən, bir haşiyə çıxaraq qeyd etmək istərdim ki, 2008-ci il noyabrın 12-də Fövqəladə Hallar Nazirliyinin yeni istifadəyə verilmiş inzibati binasının açılış mərasimində iştirak edən möhtərəm Prezidentimiz xoş arzularını dilə gətirərək görülən işləri yüksək qiymətləndirməklə yanaşı, beynəlxalq standartlara cavab verən sistemin yaradılması, müasir avadanlığa, nəqliyyat vasitələrinə və xüsusi texnikaya olan tələbatın tamamilə ödənilməsi istiqamətində işlərin ardıcıl olaraq davam etdirilməsi ilə bağlı qarşımızda ciddi tapşırıqlar qoymuşdu. Dövlətimizin başçısı demişdi: "Mən çox şadam ki, Fövqəladə Hallar Nazirliyi yaranandan sonra qısa müddət ərzində çox böyük işlər görüldü. Azərbaycanda təhlükəsizliyin təmin olunmasında, xilasetmə işlərinin düzgün qurulmasında çox böyük işlər görülmüşdür. Bu gözəl binanın tikintisi və Fövqəladə Hallar Nazirliyinin sərəncamına verilməsi də göstərir ki, Azərbaycan dövləti bu sahəyə çox böyük diqqət yetirir. İnsanların təhlükəsizliyi və mümkün olan xoşagəlməz hadisələrin qarşısının alınması, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üçün Azərbaycan dövləti nə lazımdırsa edəcəkdir. Fövqəladə Hallar Nazirliyinin yeni müasir texnika ilə təchizatı da davam edir. Göstərilən təlimlərdə iştirak edən bütün texnikalar, demək olar, son müddət ərzində alınıb, ən müasir standartlara cavab verir. Əlbəttə ki, ən müasir standartlara cavab vermək üçün gələcək illərdə də bütün Azərbaycan üzrə ən qabaqcıl texnologiyalar, ən mütərəqqi metodlar tətbiq olunmalıdır. Dünyada hansı qabaqcıl texnologiya varsa, o, Azərbaycanda bütün sahələrdə tətbiq edilməlidir. O cümlədən Fövqəladə Hallar Nazirliyinin uğurlu fəaliyyəti üçün onun maddi-texniki bazası daha da möhkəmlənməlidir. Demək olar ki, texnikanın böyük hissəsi alınıbdır. Ancaq növbəti illərdə artıq nəinki Bakıda və başqa böyük şəhərlərdə, bütün bölgələrdə, bütün rayonlarda ən müasir avadanlıq olmalıdır".

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin "Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır" müdrik kəlamını öz fəaliyyət prinsipi kimi qəbul edən Fövqəladə Hallar Nazirliyi tərəfindən ölkədə fövqəladə hadisələrin xəbərdar edilməsi sisteminin təkmilləşdirilməsi, fövqəladə hal risklərinin qiymətləndirilməsi işlərinin, yanğın-xilasetmə qurumlarının fəaliyyətinin dünyanın ən qabaqcıl ölkələrinin təcrübələri tətbiq edilməklə təşkili dövlət başçısının Azərbaycanda yürüdülən təhlükəsizlik və mülki müdafiə siyasətinin təntənəsi deməkdir. Azərbaycan vətəndaşları və ölkəmizə səfər edən hər bir qonaq görür ki, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları - yanğınsöndürənləri, xilasediciləri, dalğıcları ehtiyac olduğu hər an onların köməyinə çatmağa hazırdır.

Fövqəladə Hallar Nazirliyinin peşəkar fəaliyyəti Müzəffər Ali Baş Komandanın müdrik rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun işğalçı Ermənistanla apardığı 44 günlük Vətən müharibəsi zamanı özünü xüsusilə göstərdi. Belə ki, həmin günlərdə nazirliyin qüvvə və vasitələri digər aidiyyəti dövlət orqanları ilə birgə səfərbər olunub, əhalinin mülki müdafiəsi və təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlər görülüb. Nazirliyin yanğın-xilasetmə qüvvələri Ermənistan tərəfindən mülki obyektlərə, o cümlədən insanların sıx yaşadığı yaşayış məntəqələrinə endirilən mərmi və raket zərbələri nəticəsində yaranan dağıntı və yanğınların operativ aradan qaldırılmasını, zərərçəkmişlərin xilas edilməsi və təxliyəsini uğurla həyata keçiriblər. Bundan əlavə, həm müharibə günlərində, həm də müharibədən sonrakı dövrdə psixoloji dəstəyə ehtiyacı olan vətəndaşlarımıza yardım işi təşkil olunub. Bu məqsədlə Türkiyədən dəvət olunmuş psixoloqlarla birlikdə psixoloji problemlər yaşayan müharibə iştirakçılarına, o cümlədən qazilərə, doğmalarını itirmiş şəhid ailəsi üzvlərinə, erməni terrorundan fiziki və mənəvi zərər görmüş insanlara psixoloji dəstək göstərilib, onların reabilitasiyası təmin olunub.

Şanlı Zəfərdən sonra Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərdə mümkün fövqəladə halların vaxtında xəbərdar edilməsi və nəticələrinin çevik aradan qaldırılması işinin təmin edilməsi məqsədilə nazirliyin müvafiq strukturlarının fəaliyyəti təşkil edilib. 2021-ci ilin yanvar ayından başlayaraq, FHN-in müvafiq qüvvələri Ağdam və Füzuli rayonlarında minatəmizləmə əməliyyatlarında fəal iştirak edirlər. Bu işin sürətləndirilməsi məqsədilə nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin "N" saylı hərbi hissəsi yaradılıb. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət göstərən nazirliyin qurumlarının, həmçinin "N" saylı hərbi hissənin ən müasir texnika və avadanlıqlarla komplektləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi addımlar atılır.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva daim təbii və texnogen hadisələr zamanı zərərçəkən insanların yanında olur, onların problemlərinin həllinə xüsusi həssaslıqla, diqqət və qayğı ilə yanaşır, operativ olaraq irimiqyaslı hadisələrin baş verdiyi bölgələrə səfərləri zamanı fəlakətin nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün dövlətin bütün resurslarını səfərbər edirlər. 2010-cu ilin yaz aylarında Aran bölgəsində Kür və Araz çaylarında yaranmış daşqınların vurduğu ziyanın, 2012-ci ilin may ayında Zaqatala, Balakən və Qax rayonlarında, 2019-cu ilin fevral ayında Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş verən güclü zəlzələlərin nəticələrinin aradan qaldırılması ilə əlaqədar görülmüş tədbirlər ölkə rəhbərliyinin ağır məqamda daim xalqla bir yerdə olmasının, insanların dərd-sərinin, problemlərinin həllini həmişə diqqətdə saxlamasının bariz nümunələridir. Dövlətimizin başçısının xüsusi nəzarəti altında daşqın və zəlzələlərin ziyan vurduğu rayonlarda ən müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının, sosial təyinatlı və infrastruktur obyeklərinin tikintisi həyata keçirilib, əhali yeni, müasir evlərlə təmin edilib. Bu kimi nümunələri çox çəkmək olar. Heç bir bəlanın və fəlakətin qarşısında tək olmayan vətəndaşlarımız 2003-cü ildə cənab İlham Əliyevin prezident seçilərkən dediyi "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" sözünə sadiqliyinin bir daha canlı şahidləri olublar.

Səmimi etiraf etməliyəm ki, Fövqəladə Hallar Nazirliyi yarandığı vaxtdan ötən dövr ərzində baş vermiş çoxsaylı fövqəladə hallar zamanı uğurlu mübarizə təcrübəsi nümayiş etdirib. Bunlardan xüsusilə, Mingəçevir Su-Elektrik Stansiyasının ərazisində baş vermiş torpaq sürüşməsi zamanı stansiya üçün yaranmış təhlükənin qısa müddətdə qarşısının alınması, Bakı şəhərindəki Naxçıvani və Murtuza Muxtarov küçələrinin kəsişməsində tikilən 16 mərtəbəli yaşayış binasının uçması nəticəsində əmələ gəlmiş dağıntılar altından insanların xilas edilməsi, Neft Emalı Zavodunda yanğının söndürülməsi, Xəzər dənizində yerləşən "Bulla-dəniz" yatağında baş vermiş qəzanın, "Günəşli" yatağındakı 10 saylı dərin dəniz özülündə baş vermiş qəzanın, "Azneft" İstehsalat Birliyinin Neft yığım məntəqəsində baş vermiş hadisənin nəticələrinin aradan qaldırılması, Azərbaycan İstilik-Elektrik Stansiyasının açıq paylayıcı qurğular stansiyasının transformatorunda və 6-cı enerji blokunda yanğınla nəticələnən partlayış zamanı meydana çıxmış təhlükənin operativ şəkildə aradan qaldırılması, iri ticarət mərkəzlərində, "Sobsan" boya fabrikində, Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində yerləşən "Azərsun Sənaye Parkı"nın ərazisində baş vermiş yanğınların söndürülməsi, Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş yanğının söndürülməsi və aparılan axtarış işləri, çox sayda digər belə əməliyyat zamanı Fövqəladə Hallar Nazirliyinin qüvvələrinin göstərdiyi əsl peşəkarlığı qeyd etmək istərdim.

Bir məqama da diqqət yönəltmək yerinə düşərdi ki, dünyanın yeni növ koronavirus (COVID-19) pandemiyası ilə qarşılaşdığı vaxtda bu xəstəliklə mübarizədə Prezident İlham Əliyevin liderlik əzmkarlığı, vaxtında atdığı cəsarətli və müdrik addımlar beynəlxalq aləmdə ən yaxşı nümunələrdən hesab olunur. Koronavirus infeksiyasının yayılma təhlükəsinin qarşısının alınması ilə bağlı dövlətimizin başçısı tərəfindən ilk günlərdən qarşımızda qoyulan tapşırıqlara uyğun olaraq, Rusiya Federasiyası, İran İslam Respublikası və Gürcüstanla sərhəd-keçid məntəqələrinin yaxınlığında Fövqəladə Hallar Nazirliyi tərəfindən hər cür müasir tibbi avadanlıqlarla təchiz edilmiş qəbul-çeşidləmə məntəqələri yaradılıb və burada FHN-in peşəkar tibbi briqadaları fasiləsiz rejimdə fəaliyyət göstəriblər. Bundan əlavə, ölkəmizdə koronavirusla mübarizə məqsədilə qısa vaxtda modul tipli xəstəxanaların fəaliyyətə başlaması Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın vətəndaşların sağlamlığının qorunmasına göstərdiyi xüsusi diqqətin bariz nümunəsi oldu. Bu mənada, Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının qısa müddətdə inşa edilərək fəaliyyətə başlaması COVID-19 pandemiyası ilə mübarizədə Azərbaycan dövlətinin müdrik mövqeyini bir daha nümayiş etdirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü humanist siyasətin bir hissəsi olaraq, Fövqəladə Hallar Nazirliyi eyni zamanda müxtəlif ölkələrdə baş vermiş fəlakətlərin nəticələrinin aradan qaldırılması, həmçinin humanitar yardımların çatdırılması əməliyyatlarını uğurla yerinə yetirib. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, 2011-ci ilin oktyabr ayında Türkiyənin Van vilayətində baş vermiş dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılması, 2021 və 2022-ci ilin yayında dəhşətli meşə yanğınlarının söndürülməsi, bu ilin fevral ayında baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarına dəstək məqsədilə qardaş ölkəyə göndərilmiş Fövqəladə Hallar Nazirliyinin yanğın-xilasetmə qüvvələri qarşılarına qoyulmuş tapşırıqları yüksək peşəkarlıq və ləyaqətlə yerinə yetiriblər. Böyük dağıntı və çoxsaylı insan tələfatı ilə nəticələnmiş fevral zəlzələsi zamanı FHN-in qüvvələri tərəfindən Türkiyənin Kahramanmaraş rayonunda müxtəlif ünvanlarda salınan çadır şəhərciklərində yaşayan insanlar üçün lazımi şərait yaradılıb, o cümlədən mobil səhra mətbəxi qurularaq qida təminatı təşkil olunub. Nazirliyin hər cür müayinə və müalicə imkanlarına malik mobil səhra hospitalları fasiləsiz fəaliyyətini davam etdirib, zərərçəkmişlərə yüksəksəviyyəli tibbi xidmət göstərilib, psixoloji yardım işi təşkil olunub. Qeyd edilməlidir ki, bu məsələlər bilavasitə cənab Prezidentin nəzarəti altında olub.

Bununla bərabər, dövlət başçısının tapşırığına əsasən, 2010-cu və 2016-cı illərdə İsrail Dövlətində, 2017-ci ildə Gürcüstanda baş vermiş meşə yanğınları, 2010-cu ildə Pakistan İslam Respublikasındakı daşqınlar, 2012-ci ildə İran İslam Respublikasında baş vermiş zəlzələ, 2014-cü ildə Əfqanıstan İslam Respublikasının şimalında baş vermiş leysan yağışlarının törətdiyi fəsadların, həmçinin Serbiya Respublikası və Bosniya və Hersoqovinada daşqınların nəticələrinin aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən müvafiq kömək göstərilib. Həmçinin Azərbaycan Respublikasının hökuməti səviyyəsində 2010-cu ildə Haitidə baş vermiş zəlzələnin, 2013-cü ildə Filippində baş vermiş qasırğanın fəsadlarının aradan qaldırılması məqsədilə və Somalidə aclıqdan əziyyət çəkən insanlar üçün maddi yardımlar edilib. Eyni zamanda 2013-cü ildə Misirdəki iğtişaşlarla əlaqədar burada yaşayan azərbaycanlıların, 2015-ci ildə Nepalda baş vermiş dağıdıcı zəlzələ nəticəsində fəlakət zonasında olan soydaşlarımızın və xarici ölkə vətəndaşlarının Fövqəladə Hallar Nazirliyinə məxsus təyyarə ilə təcili təxliyəsi həyata keçirilib. 2017-ci ildə Azərbaycan hökuməti adından Cibuti Respublikasına, həmçinin Myanmada Rohingya müsəlmanlarına qarşı davam edən kütləvi zorakılıq zəminində əziyyət çəkən insanlara kömək göstərmək məqsədilə humanitar yardımlar çatdırılıb.

*Bir sözlə, milli dövlətçilik ideallarına hər zaman sədaqət nümayiş etdirən Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında müstəqilliyimizin daha da möhkəmləndirilməsində, ölkəmizdə təhlükəsiz həyat və fəaliyyətin etibarlı təminatı ilə bağlı müəyyənləşdirdiyi mühüm vəzifələrin layiqincə yerinə yetirilməsində bundan sonra da qüvvə və bacarığını əsirgəməyəcəkdir.*

**Kəmaləddin HEYDƏROV,**
***Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik***



# MÖHTƏŞƏM 20 İL 2003 2023

# Qalib dövlət, güclü sosial siyasət

*Əvvəli 1-ci səh.*

Uğurlu sosial-iqtisadi siyasət, icra olunan ardıcıl və məqsədyönlü dövlət proqramları yoxsulluğun kəskin şəkildə azalmasını şərtləndirməklə, Azərbaycan bu sahədə müsbət təcrübəsinə görə BMT-nin Davamlı İnkişaf Məqsədlərinə dair milli məsləhətləşmələrin aparılması üçün seçilmiş ölkələr sırasına daxil edildi.

2020-ci il sentyabrın 27-də isə Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu müasir dünya hərb tarixinə misilsiz döyüş peşəkarlığı nümunəsi kimi yazılan uğurlu hərbi əməliyyatlarla cəmi 44 gün ərzində möhtəşəm tarixi Zəfər əldə etdi. Beynəlxalq səviyyədə tanınan ərazilərimiz Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad olundu. Cənab Prezidentin qeyd etdiyi kimi, "Bundan sonra əsrlər boyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır".

"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır" deyən Prezident cənab İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı ölkəmizdə davamlı sosial inkişafa, sosial müdafiə və aktiv məşğulluq proqramlarının uğurla davam etdirilərək ildən-ilə əhəmiyyətli dərəcədə genişlənməsinə, sosial təminat sisteminin dəfələrlə güclənməsinə imkan yaradıb.

2003-cü ildən ötən dövrdə əməkhaqları, pensiya və digər sosial ödənişlərin mütəmadi olaraq artırılması, regionların və özəl sektorun inkişafı şəraitində yeni iş yerlərinin açılması, məşğulluq imkanlarının artmasının daimi xarakter alması, əhalinin gəlirlərində ilbəil artım, sosial müdafiə və reabilitasiya əhəmiyyətli yeni müəssisələr şəbəkəsinin qurulması, sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişləndirilməsi təmin edilib. Dövlət başçısının qeyd etdiyi kimi, "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik".

Ötən 20 ildə dövlət büdcəsinin illik sosial müdafiə və sosial təminat xərclərində 20 dəfədən çox artım baş verib. Minimum əməkhaqqı 38 dəfə artırılaraq 345 manata, orta aylıq əməkhaqqı 12 dəfə artaraq 925,3 manata çatıb. Sosial müdafiə sisteminin mühüm komponenti olan pensiya təminatı yoxsulluğun azaldılmasında əhəmiyyətli rola malikdir. 2006-cı ilin əvvəlindən Azərbaycanda qabaqcıl dünya təcrübəsinə uyğun müasir sığorta-pensiya modelinə keçidin təmin edilməsi pensiya təminatında müsbət trendləri şərtləndirib. Dövlət başçısının 2014-cü il 4 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"na uyğun olaraq həmin sistemin yeni çağırışlara uyğun təkmilləşdirilməsi, layiqli pensiya təminatı sisteminin qurulması istiqamətində mühüm addımlar atılıb.

Bununla yanaşı, dövlət başçısı tərəfindən hər il müvafiq sərəncamlar imzalanmaqla minimum pensiyaların mütəmadi artırılması, hər ilin əvvəlində pensiyaların və fərdi hesablardakı pensiya kapitallarının indeksləşdirilərək artırılması təmin olunub. Ümumilikdə ötən 20 ildə minimum pensiya 14 dəfə artaraq 280 manata, orta aylıq pensiya 18 dəfə artaraq 435 manata, yaşa görə orta aylıq pensiya 19 dəfə artaraq 466 manata, əlilliyə görə orta aylıq pensiya 14 dəfə artaraq 366 manata, ailə başçısını itirməyə görə orta aylıq pensiya isə 19 dəfə artaraq 408 manata çatıb.

Pensiya üzrə ödənilən illik vəsaitlərin məbləği isə 30 dəfədən çox artaraq 5 mlrd. 907 mln. manata çatıb. Təkcə son bir ildə pensiyalar üzrə ödənişlərə ayrılan illik vəsaitdə 1 mlrd. manata yaxın, son beş ildə isə 2,4 mlrd. manat (70 faiz) artım olub.

Digər tərəfdən, 2003-cü ildə orta aylıq pensiya məbləği pensiyaçılar üçün yaşayış minimumundan 2 dəfə aşağı olduğu halda, hazırda bu məbləğ (435 manat) olmaqla pensiyaçılar üçün yaşayış minimumunu (199 manat) 2,2 dəfə üstələyir.

Minimum və orta aylıq pensiya məbləğlərinin Alıcılıq Qabiliyyəti Pariteti (AQP) əsasında hesablanmış AQP dolları ilə ifadəsində MDB ölkələri, Gürcüstan və Ukrayna üzrə müqayisə sıralamasında Azərbaycan müvafiq olaraq birinci və ikinci yeri tutub.

Minimum aylıq əməkhaqqının həm ABŞ dolları, həm də AQP dolları ilə ifadəsində MDB ölkələri, Gürcüstan və Ukrayna üzrə müqayisə sıralamasında Azərbaycan ikinci yeri tutub.

Aparılan ardıcıl əməkhaqqı islahatlarının daha bir müsbət nəticəsi kimi ölkəmizdə xalis minimum aylıq əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbəti 2003-cü ildəki 11,7 faizdən 2018-ci ildə 26,5 faizə, 2023-cü ilin əvvəlində isə 41,1 faizə çatıb. Bu da həmin nisbət göstəricinin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində mühüm irəliləyişdir.

Cənab Prezident tərəfindən imzalanan fərman və sərəncamlar ötən 20 il ərzində 15-dən çox yeni aylıq sosial ödəniş növünün təsis edilməsinə, habelə pensiya təminatında humanist yanaşmaların tətbiqi sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb. Belə ki, dövlət başçısının şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə xüsusi qayğısının təzahürü olaraq 2007-ci ilin əvvəlindən şəhid ailələri, 2008-ci ilin sentyabrından müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü təyin edilib. Ötən dövrdə həmin təqaüdün məbləği şəhid ailələri üçün 6 dəfə artırılaraq 100 manatdan 600 manata, müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər üçün 5,6 dəfə artırılaraq 90 manatdan 500 manata, orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə (II dərəcə) əlilliyi olan şəxslər üçün 5,7 dəfə artırılaraq 70 manatdan 400 manata, orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə (III dərəcə) əlilliyi olanlar üçün 6,6 dəfə artırılaraq 50 manatdan 330 manata çatdırılıb.

Bu təqaüdlərlə yanaşı, həmin kateqoriyalardan olan şəxslər aylıq pensiya və müavinətlərlə də təmin edilirlər. Həmçinin cənab Prezidentin daha bir xüsusi qayğısı olaraq onlarla bağlı son illərdə yeni mühüm sosial dəstək proqramları - 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların ailələrinə və həmin tarixədək hərbi xidmət zamanı aldığı xəsarət və xəstələnməsi ilə bağlı əlilliyi müəyyən edilmiş şəxslərə və ya onların vərəsələrinə birdəfəlik ödəmələr verilməsi proqramları icra olunub.

Eyni zamanda 2012-ci ildə II Dünya müharibəsi iştirakçılarına və həmin müharibə dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində işləmiş və digər şəxslərə də Prezidentin təqaüdü təyin edilməsinə başlanıb və ötən dövrdə 3,3 dəfə artırılaraq 100 manatdan 330 manata çatdırılıb. 2014-cü ilin əvvəlindən isə beşdən çox uşağı olan qadınların hər bir uşağına görə aylıq sosial müavinət təsis edilib və ötən dövrdə bu müavinətin məbləği də 3,5 dəfə artırılaraq 30 manatdan 105 manata çatdırılıb. 2014-cü ildə daha bir təqaüd növü - Əfqanıstanda sovet qoşunları tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan hərbi qulluqçuların ailələrinə də Prezidentin aylıq təqaüdü təsis edilib və bu təqaüd də ötən dövrdə 3 dəfə artırılaraq 200 manatdan 600 manata çatdırılıb.

2018-ci ilin aprelində ölkəmizdə keçirilən seçkilərdə cənab İlham Əliyevin ölkə seçicilərinin mütləq əksəriyyətinin səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi onun rəhbərliyi ilə 2003-2018-ci illərdə ölkənin nail olduğu dinamik inkişaf kursunun, bütün sahələrdə, o cümlədən sosial sahədə qazanılmış mühüm nailiyyətlərin uğurla davam etdirilməsinə imkan yaradıb. "Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik", - deyən Prezident cənab İlham Əliyevin fərman və sərəncamları ilə 2018-2023-cü illərdə əməkhaqqı və digər sosial ödənişlərin artırılması məqsədilə 4 sosial islahat paketi icra olunub.

Ümumilikdə, 4 milyondan çox vətəndaşı əhatə edən bu islahatların hər biri üzrə illik əsasda ayrılan əlavə vəsaitlərin ümumi məbləği 7 mlrd. manata yaxındır. Bu islahatlar nəticəsində 2018-2023-cü illərdə ölkəmizdə minimum pensiya 2,5 dəfə, minimum əməkhaqqı 2,7 dəfə, orta aylıq pensiya 2,1 dəfə, yaşa görə orta aylıq pensiya 2 dəfə, orta aylıq əməkhaqqı 70 faiz, sosial müavinət və təqaüd ödənişləri 5 dəfə, median əməkhaqqı 2,1 dəfə, əməkhaqqı fondu 2,6 dəfə, işsizliyə görə sığorta ödənişlərinin orta aylıq məbləği 52 faiz artıb.

Azərbaycan Prezidentinin imzaladığı sənədlərlə son beş ildə daha 10 yeni sosial ödəniş növü - müharibə veteranlarına, birinci dərəcə əlilliyi olanlara və əlilliyi olan 18 yaşadək şəxslərə qulluq edənlərə, Vətən Müharibəsi qəhrəmanlarına, işləməyən pensiyaçı elmlər doktorlarına və fəlsəfə doktorlarına Prezidentin aylıq təqaüdü, uşaqları övladlığa götürən şəxslərə müavinət, himayədar ailələr üçün müavinət və s. təsis olunub.


















Beləliklə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təkcə 2018-2023-cü illərdə Prezidentin aylıq təqaüdü ilə təmin olunanların sayı 6,5 dəfə artaraq 60 mindən 390 minə çatıb. Aylıq sosial müavinətlə təmin olunanların sayı isə son beş ildə 5 faiz çoxalaraq 385 mindən 432 minə çatıb. Həmçinin son illər müvafiq qanunvericilikdə humanist yanaşmalar tətbiq edilib: 2019-cu ilin əvvəlindən əmək pensiyası yaşına çatan və fərdi hesabında hətta ən kiçik məbləğdə pensiya kapitalı olanlara avtomatik pensiya hüququ verilib, yaşa görə müavinət yaşı pensiya yaşı ilə eyniləşdirilib, 2022-ci ildə qanuna 50-dək əlavə və dəyişiklik edilməklə, erkən pensiya hüququ olan kateqoriyaların sırası genişləndirilib, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən əmək sahələri sırasına yeni 59 vəzifə, peşə əlavə edilib və s.

Aztəminatlı ailələrin rifahına mühüm dövlət dəstəyi olan ünvanlı dövlət sosial yardımı proqramının icrasına da Prezident İlham Əliyevin təsdiq etdiyi qanunla 2006-cı ildə başlanılıb. Ötən dövrdə ünvanlı sosial yardım sistemi elektronlaşdırılıb, habelə qanunvericilikdə bir sıra dəyişikliklər edilərək, bu proqramın əhatə dairəsi genişləndirilməklə proqrama əlçatanlıq artırılıb, sosial yardımın təyinat şərtləri xeyli yumşaldılıb. Ünvanlı sosial yardım üçün müraciət zamanı ailədən tələb olunan məlumatların sayı əhəmiyyətli dərəcədə azaldılıb və artıq həmin məlumatlar müvafiq elektron informasiya bazalarından əldə olunur.

Eyni zamanda ünvanlı dövlət sosial yardımının hesablanması üçün ehtiyac meyarının məbləği 2006-ci ildəki 30 manatla müqayisədə ötən müddətdə 8,2 dəfə artırılaraq 2023-cü ilin 1 yanvar tarixindən 246 manata çatdırılıb. Bu artım dinamikası aztəminatlı ailələrə ödənilən ünvanlı sosial yardımların məbləğində də ciddi artıma imkan yaradır. Hər ailəyə ödənilən ünvanlı sosial yardımın orta aylıq məbləği 2006-cı ilə nisbətən ötən müddətdə 11 dəfə artırılaraq 478 manata çatıb. Bununla yanaşı, artıq 2023-cü ildən ölkəmizdə ilk dəfə olaraq ehtiyac meyarının həcmi ilə yaşayış minimumunun həcmi bərabərləşdirilib ki, bu da ehtiyac meyarı həddinin yaşayış minimumu səviyyəsinə yüksəldilməsi hədəfinə nail olunduğunu göstərir.

Ümumilikdə, bu gün 2,6 milyondan çox şəxs Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial ödəniş sistemi ilə əhatə olunub.

Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə isə dövlət başçısının göstərişi ilə icra olunan sosial dəstək proqramı çərçivəsində şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib.

Postmüharibə dövründə onlara 5300, ümumilikdə, ötən dövrdə 14100, o cümlədən son 20 ildə 13 mindən çox mənzil, həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 44 günlük Vətən müharibəsindən sonra 324 avtomobil, ümumilikdə, ötən dövrdə 7500-dən çox, o cümlədən son 20 ildə 6500-dən çox avtomobil verilib.

Postmüharibə dövrü üzrə qeyd olunan sosial dəstək proqramı şəhid ailələri və müharibə iştirakçılarından ibarət 124 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 309 min xidmət göstərilib. Bu xidmətlərə mənzil və avtomobillə təminat tədbirlərindən əlavə olaraq, həmin şəxslərdən ibarət 103 min şəxsə 115 min aylıq sosial ödəniş təyin olunmasını, 11 min nəfərə 51 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilməsini, 20 min şəxsin məşğulluğunun təmin edilməsini (o cümlədən 10,3 min şəxs özünüməşğulluq proqramına cəlb olunmasını), müharibə ilə əlaqədar əlilliyi olan 2012 şəxsin 44,6 mindən çox reabilitasiya vasitəsi (o cümlədən 439 şəxsin 458 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunmasını), vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 95,7 min şəxsə xidmətlər göstərilməsini və s. də aid etmək olar.

Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərlə yanaşı, digər həssas qruplardan olanların da mənzillə təminatı həyata keçirilir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olaraq və Heydər Əliyev Fondunun mühüm sosial layihələrindən biri kimi son illərdə Abşeron rayonunda çoxmənzilli yaşayış binaları inşa edilərək dövlət uşaq müəssisələri məzunlarının istifadəsinə verilib. Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin "Məzun evi" sosial müəssisəsi kimi fəaliyyət göstərən həmin yaşayış binalarında 365 məzun mənzillə təmin olunub. Eyni zamanda son illər yeni yaşayış binalarından həmin məzunların mənzillərin təqdim edilməsi işləri aparılır və ümumilikdə ötən dövrdə həmin məzunlardan 650 şəxs tam təmirli mənzillə təmin olunub. Həmçinin gözdən əlilliyi olan şəxslərə dövlət tərəfindən yüzlərlə mənzil verilib.

Bu gün nazirliyin 15 reabilitasiya müəssisəsi fəaliyyət göstərir ki, onlar tərəfindən son beş ildə 144 min şəxsə reabilitasiya xidməti göstərilib və həmin dövrdə əlilliyi olan şəxslərə 283 min reabilitasiya vasitəsi verilib. 2018-2023-cü illərdə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib, Qəbələ rayonunda Uşaq Reabilitasiya Mərkəzi açılıb və yaxın aylarda Şəmkir Uşaq Reabilitasiya Mərkəzi də istifadəyə veriləcək. Görülən işlər reabilitasiya xidmətləri göstərilən şəxslərin illik sayının həmin dövrdə 3 dəfə, son 20 ildə 8 dəfə artaraq 60 minə çatmasına imkan verib.

Prezident cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq aparılan sosial islahatların mühüm uğurlarından biri DOST konsepsiyasıdır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial sahələr üzrə 159 xidmətin "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ əsasda təqdim olunmasını, nəticə etibarilə dövlət sosial xidmətlərinin vətəndaş rahatlığı və məmnunluğuna uyğun göstərilməsini təmin edir. Ölkə Prezidentinin fərmanı ilə 2019-cu ilin may ayında DOST Agentliyi və bundan sonra Bakı şəhəri, Abşeron və Bərdə rayonlarında olmaqla 7 DOST mərkəzi açılıb.

Artıq 1,8 milyon vətəndaşa DOST xidməti göstərilib və bu xidmətlərdən vətəndaş məmnunluğu 98,2 faizdir. İşğaldan azad edilmiş bölgələrimizdə də DOST xidmətləri qurulur və başlanğıc kimi 2022-ci ilin may ayında Zəngilan rayonunun Ağalı kəndində ilk "Smart DOST" xidmət məntəqəsi açıldı. Bu il avqustun 7-də isə Prezident cənab İlham Əliyevin iştirakı ilə Bərdədə Qarabağ Regional DOST Mərkəzi açıldı ki, bu mərkəz ölkəmizin Qarabağ iqtisadi rayonu üzrə 9 şəhər və rayonun (Xankəndi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər) sakinlərinə xidmət edir.

Əhalinin məşğulluğunun təminatı dövlət başçısının sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən biridir. Bu siyasətə uyğun olaraq aktiv məşğulluq proqramları daim genişləndirilir. Təkcə son 5 ildə 1 milyondan çox şəxs həmin məşğulluq proqramlarına cəlb olunub, 452 min nəfər işlə təmin olunub, 21 minədək şəxs peşə hazırlığı kurslarına, 511 min şəxs peşəyönümü xidmətlərə cəlb olunub.

Cənab Prezidentin təşəbbüsü və tapşırığı ilə icra olunan özünüməşğulluq proqramı mühüm sosial-iqtisadi əhəmiyyəti ilə seçilən proqram olmaqla işsiz və işaxtaran şəxslərin kiçik biznesə çıxışına dəstək verir. 2017-ci ildən icra olunan özünüməşğulluq proqramına cəlb olunanların illik sayı isə ötən dövrdə 14 dəfə artırılaraq 16 mini ötüb və 73 min şəxs özünüməşğulluq proqramına cəlb edilərək onlara verilmiş aktivlər hesabına kiçik təsərrüfatlarını yaradıblar. Proqramın icrası zamanı aztəminatlı ailələrə, şəhid ailələri və müharibə iştirakçılarına, əlilliyi olan şəxslərə və digər həssas qruplara üstünlük verilir. Dünya Bankının maliyyə dəstəyi ilə nazirliyin icra etdiyi "Azərbaycanda məşğulluğa dəstək" layihəsi də özünüməşğulluq proqramının genişlənməsinə mühüm dəstəkdir və layihə üzrə həssas qruplardan olan 22 min işsiz şəxsin istehsal və xidmət sahələri üzrə kiçik bizneslərinin yaradılması istiqamətində işlər aparılır.

Son 20 ildə muzdla çalışanların sayı 544 min və ya 44 faiz artaraq 1 mln. 770 minə çatıb. Son illər məşğulluq imkanlarının artırılması, qeyri-rəsmi məşğulluğun leqallaşmasına yönələn kompleks tədbirlər bu istiqamətdə növbəti irəliləyişə imkan yaradaraq əmək müqavilələrinin sayında son 5 ildə 35 faiz və ya 460 mindən çox artım baş verib. Bu müsbət trendlər, əməkhaqqı islahatları məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalarda da qeyd olunan dövrdə 2 dəfə artımla nəticələnib və bu daxilolmaların həcmi ötən il 4,6 milyard manata çatıb.

Prezident cənab İlham Əliyevin uğurlu sosial islahatlar proqramının əsas hədəflərindən biri də dövlət sosial xidmətlərinin innovativ yanaşmalar, müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlara şəffaf və çevik, keyfiyyətli, əlçatan, vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin qurulmasıdır. Bu istiqamətdə DOST Konsepsiyasının davamı olaraq, sosial xidmətlərin geniş miqyasda elektronlaşdırılması proqramı icra olunub və bu gün nazirliyin 159 xidmətindən 140-dan çoxu (90 faizdən çoxu) artıq rəqəmsal platformadan təqdim edilir. 30-dan çox e-arayış xidməti, həmçinin 2019-cu ilin əvvəlindən sosial ödənişlərin elektron sistem üzərindən proaktiv təyinatı mexanizmləri, həmin il ölkənin sosial reyestri olan e-sosial.az portalı, 2020-ci ildə fərdi hesabların e-qaydada proaktiv şəkildə açılması xidməti, 2022-ci ildə "Əmək və Məşğulluq" altsistemi işə salınıb.

*Beləliklə, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və Prezident cənab İlham Əliyevin yeni müasir və qlobal çağırışlara uyğun yüksək səviyyədə davam etdirdiyi müdrik və uzaqgörən milli inkişaf strategiyası son 20 ildə Azərbaycanın böyük tarixi uğurlara, möhtəşəm Zəfərə, eyni zamanda mühüm sosial irəliləyişlərə nail olmasını təmin edib. Bu müdrik və uzaqgörən siyasət bundan sonra da ölkəmizi dinamik inkişaf yolunda hər zaman qələbələrə, zirvələrə doğru aparacaq.*

**Sahil BABAYEV,**
***Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri***



# MÖHTƏŞƏM 20 İL 2003 2023

# Tarixin şərəf səhifəsi



**2003-cü il oktyabrın 1-də Azərbaycan xalqının yetirdiyi nadir şəxsiyyət, müstəqil Azərbaycan Respublikasının memarı, görkəmli siyasi və dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev ölkədə keçiriləcək prezident seçkiləri ilə əlaqədar xalqa müraciət etmişdir.**

Müraciətdə deyilir: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Qədirbilən xalqımız Ulu Öndərin bu tarixi müraciətini böyük ruh yüksəkliyi ilə qəbul edərək 2003-cü ilin oktyabr ayında keçirilən prezident seçkilərində Yeni Azərbaycan Partiyasının (YAP) namizədi İlham Əliyevi dəstəklədi və o, Azərbaycan xalqının, Azərbaycan seçicisinin mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçildi.

Həmin tarixdən keçən 20 illik dövrdə cənab İlham Əliyev Ümummilli Liderin ideyalarına sadiqliyini nümayiş etdirərək xalqımızın ən layiqli oğullarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı istiqamətində çox uğurlu nəticələr əldə edilməsinə nail olmuşdur. İlk növbədə "Əsrin müqaviləsi" bütün parametrlər üzrə icra olunaraq ölkəmizin sosial-iqtisadi inkişafını təmin edən əsas maliyyə mənbəyinə çevrilmişdir. "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarından və "Şahdəniz" qaz yatağından, habelə digər neft-qaz yataqlarından hasil olunan neftin və qazın xarici bazarlara çıxarılması üçün magistral neft və qaz xətləri tikilib istifadəyə verilmişdir. Hazırda ölkəmiz İlham Əliyevin həyata keçirdiyi sabit və davamlı xarici və daxili siyasət nəticəsində Avropanı və bir sıra digər ölkələri neft və qazla təmin edən tərəfdaş ölkə imicini qazanmışdır.

Bu gün neft və qazdan əldə edilən gəlir Prezidentin təşəbbüsü və birbaşa rəhbərliyi altında ölkəmizin sosial-iqtisadi inkişafı və əhalinin firavanlığı üçün səmərəli istifadə olunur. Bu məqsədlə hələ 2004-cü ildən regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı qəbul edilmiş, onun üçü uğurla icra olunmuşdur. Hazırda dördüncü proqram icra edilir. Bu dövlət proqramlarının həyata keçirilməsi regionların simasını kökündən dəyişmiş, bölgələrdə 70 illik sovet dövründəki uğurlardan dəfələrlə çox uğurlu nəticələr əldə edilmiş, paytaxt Bakı ilə birlikdə digər şəhərlərimiz də müasir tələblərə uyğun olaraq yenidən qurularaq tanınmaz dərəcədə dəyişmişdir. İndi bir çox insan regionlarda yaşamağa daha çox üstünlük verir.

Prezident İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, bizim apardığımız siyasətin əsasında insan amili dayanır. Bu, həqiqətən belədir. İndiyəcən bu məqsədlə respublikamızda yoxsulluğun ləğv edilməsi, məşğulluğun artırılması və əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün bir neçə dövlət proqramı qəbul edilərək icra olunmuşdur. Həm Bakıda, həm də regionlarda çoxlu sayda yeni müəssisələr, tikinti təşkilatları, ticarət obyektləri və digər istiqamətlər üzrə məşğulluq obyektləri yaradılmışdır. Bunun nəticəsidir ki, ölkəmizdə son 20 ildə yoxsulluğun səviyyəsi 5 faizə enmiş, məşğul əhalinin sayı kəskin artmışdır.

Bu dövr həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri də ölkə ərazisində sosial infrastrukturun və kommunikasiya xətlərinin yaradılması, bərpası və yenilənməsi olmuşdur. 20 il ərzində respublika əhəmiyyətli magistrallar, eləcə də yerli əhəmiyyətli, kəndlər arasında, kənd və qəsəbələr daxilində yollar yenidən qurulmuşdur. Bu illər ərzində ölkəmizin bütün şəhərlərində və digər yaşayış məntəqələrində məktəb, xəstəxana, uşaq bağçası və digər sosial binaların tikintisi böyük vüsət almış, həmin obyektlərdə gənc nəslin tərbiyəsi və təhsil alması, insanlara yüksək səviyyədə tibbi yardım göstərilməsi üçün hər cür şərait yaradılmışdır. Yaşayış məntəqələrinin işıq, qaz, su sarıdan təminatı ən yüksək səviyyəyə çatdırılmışdır.

Prezidentin həyata keçirdiyi siyasətdə insan amilini önə çəkməsinin bariz nümunələrindən biri də vətəndaşların məmnunluğuna səbəb olan "ASAN", "DOST" xidmətləri kimi mərkəzlərin yaradılması və onların əhatə dairəsinin genişlənməsidir. Eyni zamanda internet şəbəkəsinin respublikamızın bütün ərazisini əhatə etməsi də vətəndaşlarımız və ölkəmizin qonaqları tərəfindən yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığına əsasən yaranan bu xidmət mərkəzləri nəinki ölkə vətəndaşlarının, həm də bir çox xarici ölkənin də marağına səbəb olmuşdur.

Cənab İlham Əliyevin 20 illik prezidentliyi dövründə insanların firavan həyat sürmələri üçün neft və qaz satışından əldə olunan gəlirin böyük bir hissəsi əhalinin aylıq əməkhaqqının, pensiya və müavinətlərin, digər sosial xərclərin artırılmasına yönəldilmişdir. Bu məqsədlə həmin xərclərə yönələn dövlət büdcəsi vəsaitləri bir neçə dəfə artmışdır. Hazırda bu ödəmələrin səviyyəsinə görə respublikamız postsovet məkanında öncül yerlərdən birini tutur.

İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasətin əsas istiqaməti isə neft sektorundan əldə olunan vəsait hesabına dayanıqlı inkişafı təmin edən qeyri-neft sektorunu, o cümlədən kənd təsərrüfatını və turizmi inkişaf etdirməkdir. Milli təhlükəsizliyin tərkib hissəsi olan ərzaq təhlükəsizliyi Azərbaycan Prezidentinin həmişə diqqət mərkəzindədir. Dövlət başçısı əhalinin ərzaq təhlükəsizliyinin əsas bazası olan aqrar sahənin inkişafına xüsusi diqqət və qayğı ilə yanaşır. Çünki ərzaq təhlükəsizliyi istənilən ölkədə iqtisadi, sosial və siyasi sabitliyi təmin etdiyindən bu sahənin inkişafı dövlətin qarşısında duran ən ümdə vəzifələrdən biridir. Odur ki, Prezident kənd təsərrüfatında struktur dəyişikliyinin aparılması, ərzaq təhlükəsizliyi haqqında dövlət proqramlarının qəbul edilməsi, aqrar və torpaq islahatlarının dərinləşdirilməsi, islahatlar nəticəsində yaranmış çoxlu sayda və müxtəlif formada fəaliyyət göstərən kənd təsərrüfatı məhsul istehsalçılarının maddi marağının artırılmasına dair və digər stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi barədə bir neçə sənəd imzalamışdır.

İlham Əliyevin təşəbbüsü ilə hazırda ölkəmizdə 40-dan çox iri kənd təsərrüfatı müəssisəsi və aqroparklar yaradılaraq fəaliyyət göstərir. Bunun nəticəsidir ki, 10 milyondan çox əhalisi olan Azərbaycanda əhalinin taxıl və bitki yağı istisna olmaqla digər kənd təsərrüfatı məhsullarına olan tələbatı əsasən yerli istehsal hesabına təmin edilir. Eyni zamanda bəzi məhsullar, xüsusən meyvə və tərəvəz məhsullarının bir qismi xarici ölkələrə ixrac olunur.

Ölkəmizdə qeyri-neft sektorunun əsas istiqamətlərindən biri də turizmdir. Turizmin inkişafı üçün ölkəmizin əlverişli təbii iqlim şəraiti, çox sayda memarlıq və tarixi abidə, ziyarətgah mövcuddur. Bunun nəticəsidir ki, 2019-cu ildə (COVID-19 pandemiyasından əvvəl) 2,9 milyon nəfər əcnəbi və vətəndaşlığı olmayan şəxs turizm məqsədilə respublikamıza səfər etmişdir. Həmin il daxili turistlərin sayı isə 4,3 milyon nəfərdən çox olmuşdur. Turistlərin yerləşdirilməsindən və onlara göstərilən ictimai iaşə xidmətindən əldə olunan əlavə dəyər ölkə üzrə istehsal edilən ümumi daxili məhsulun 2,4 faizini təşkil etməklə 1,98 milyard manat təşkil etmişdir. Bu sahədə çalışan işçilərin sayı isə 108 min nəfərdən çoxdur.

Bu gün Azərbaycanda Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində bütün vətəndaşlar özlərini çox rahat hiss edir, Konstitusiyamızda təsbit edilmiş bütün hüquqlardan istifadə edərək əmin-amanlıq şəraitində yaşayırlar. Milli mənsubiyyətinə görə ölkəmizdə heç bir ayrı-seçkilik yoxdur. Xarici ekspertlərin qiymətləndirməsinə görə, Azərbaycan Respublikası dünyanın ən multikultural ölkələrindən biridir. Məhz buna görə də ölkəmizdə dəfələrlə multikulturalizmə dair beynəlxalq konfranslar və görüşlər keçirilmişdir.

Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi altında dünyada analoqu olmayan iqtisadi inkişafa nail olub. Ötən dövrün bəzi illərində ÜDM istehsalı əvvəlki ilə nisbətən 30-35 faiz artmışdır. Ölkəmizin son 20 ildə əldə etdiyi bu iqtisadi tərəqqi onun ardıcıl olaraq bir çox beynəlxalq tədbirin keçirildiyi məkana çevrilməsini təmin etmişdir. Keçən dövr ərzində Azərbaycan "Avroviziya" musiqi yarışmasına, I Avropa Oyunlarına, dördüncü İslamiadaya, bir sıra idman növləri, o cümlədən gimnastika, güləş və futbol üzrə ən mötəbər yarışlara yüksək səviyyədə evsahibliyi etmişdir.

Ölkəmizin yüksək sürətlə iqtisadi inkişafı və geniş maliyyə imkanlarına malik olması vətəndaşlarımızın sovet dönəmində banklarda yerləşdirdikləri əmanətlərin qaytarılmasına imkan vermişdir. Prezidentin sərəncamı ilə həmin vəsaitlər indeksləşdirilərək tam olaraq əhaliyə qaytarılmışdır.

İlham Əliyevin həyata keçirdiyi düşünülmüş və uzaqgörən siyasət sayəsində Azərbaycanın dünya dövlətləri arasında nüfuzu yüksəlmiş, həm ölkəmizə, həm də onun liderinə olan etibar və etimad möhkəmlənmişdir. Məhz buna görə Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş və cənab İlham Əliyev şuranın iclasına sədrlik etmişdir.

Azərbaycan Respublikası BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına üzv seçilmiş və qısa müddətdən sonra bu quruma sədrlik etmişdir. Prezident İlham Əliyevin fəaliyyəti sayəsində təşkilatın üzv dövlətləri Azərbaycanın sədrlik müddətini yenidən bir il artırmışdır.

İlham Əliyevin siyasətinin mərkəzində insan amilinin dayanması özünü ən çətin anlarda da göstərmişdir. 2020-ci ildə dünyanı çox amansız və dəhşətli dərəcədə çənginə almış "COVID-19" pandemiyası dövründə insanların sağlamlığını qorumaq, pandemiyanın yayılmasının qarşısını almaq, peyvəndləmə prosesini sürətləndirmək və karantin tətbiq etməklə əhali arasında itkiləri minimuma endirmək üçün ölkəmizdə təsirli tədbirlər həyata keçirildi. Paralel olaraq Prezident gəliri az olan ölkələrə kömək göstərmək üçün Ümumdünya Səhiyyə Təşkilatına, eləcə də kasıb, xüsusilə Qoşulmama Hərəkatına üzv olan ölkələrə maddi yardımlar göstərdi. Həyata keçirilən bu tədbirlər Azərbaycanın pandemiyadan az itki ilə çıxan ölkələr sırasında öncül yerlərdən birini tutmasına imkan verdi və ölkəmizi çətin anlarda dünyanın digər dövlətlərinə yardım göstərən bir ölkə kimi tanıtdı.

Əlbəttə ki, Prezident İlham Əliyevin 20 illik fəaliyyəti dövründə ölkəmizin qazandığı heyrətamiz uğurların zirvəsində Ermənistan-Azərbaycan - Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həll edilməsi dayanır. İlham Əliyevin nəyi necə və nə vaxt həll etməyi çox düzgün müəyyən etməsi, bu illər ərzində həyata keçirdiyi davamlı daxili və xarici siyasət öz bəhrəsini verdi və 30 illik işğala son qoyularaq 20 faiz ərazimiz düşmən tapdağından azad edildi. Bununla da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin ata vəsiyyətinə əməl edərək ölkəmizin qarşısında duran bir nömrəli problemi həll etmiş oldu.

Şübhəsiz ki, uzun illər arxasında böyük dövlətlərin dayandığı amansız və qəddar düşməni diz çökdürüb işğala son qoymaq heç də asan başa gəlməmişdir. İlham Əliyev işğalçı ölkənin rəhbərləri ilə dəfələrlə görüşlər keçirərək, məsələnin beynəlxalq norma və prinsiplərinə uyğun həll olunmasına səylər göstərsə də, qarşı tərəf verilən təkliflərlə razılaşmamış, özlərindən razı halda əgər müharibə olarsa, yeni ərazilər işğal etmək iddiasında olduqlarını bəyan etmişlər. Düşmən atəşkəs razılaşmasını işğal dövründə dəfələrlə pozaraq həmişə gərginlik yaratmağa çalışırdı. Belə gərginlik 2016-cı ilin aprelində və 2020-ci ilin iyul ayında daha geniş miqyas almış, ordumuz düşmənə layiqli cavab verərək bəzi ərazi və yüksəklikləri azad etmişdir. Eyni zamanda 2018-ci ildə Naxçıvan Muxtar Respublikasında Ermənistanın törətdiyi təxribata cavab olaraq ordumuzun həyata keçirdiyi Günnüt əməliyyatı düşmənə böyük və sarsıdıcı zərbə olmuşdur.

Lakin Ermənistan və onun Qarabağın dağlıq hissəsində məskən salmış separatçı qüvvələri bunlardan ibrət dərsi götürüb məsələni diplomatik yolla həll etməyə çalışmadılar və özlərinin işğalçılıq siyasətlərini davam etdirməyə üstünlük verdilər. İlham Əliyev düşmənin bu məkrli niyyətini lap əvvəldən bildiyinə görə ordumuzun maddi-texniki təminatını yüksəltmək, yeni texnika və texnologiyalar əldə etmək, kadr hazırlığına xüsusi diqqət yetirməklə Silahlı Qüvvələrimizi müasir tələblərə cavab verən ordu kimi formalaşdırdı. Ali Baş Komandan tam əmin idi ki, əgər müharibə olarsa, ordumuz qələbə çalmağa qadirdir.

2020-ci ilin 27 sentyabrında düşmənin genişmiqyaslı hücumunun qarşısını almaq və hücuma keçmək barədə ordumuza əmr veriləndə hamı bir nəfər kimi Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi. Ali Baş Komandanın möhkəm iradəsi və əzmi, xalqımızın və ordumuzun qələbə həsrəti Vətən müharibəsini cəmi 44 günə yekunlaşdırdı. Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonları və Şuşa şəhəri, habelə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olan bir çox kənd və qəsəbə düşməndən azad olundu. Düşmən öz qüvvəsinin tükəndiyini və müqavimət göstərməyin böyük itkilər verəcəyini görərək təslim olduğunu bildirdi və Ağdam, Kəlbəcər və Laçın rayonlarını könüllü tərk etdi. Azərbaycan, Ermənistan və Rusiya Federasiyasının rəhbərləri 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə müharibənin dayandırılması barədə bəyanat imzaladılar.

Bundan sonra işğaldan azad olunmuş ərazilərdə möhtəşəm quruculuq və bərpa işləri başladı. Böyük qayıdış üçün keçən 3 il ərzində Qarabağ və Şərqi Zəngəzurda yüz kilometrlərlə asfalt yollar çəkilib, yaşayış evləri, inzibati binalar, sosial və digər obyektlər tikilib, infrastruktur yaradılıb və s. Artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyatın müasir tələblərə uyğun yeni dövrü başlayır.

Bununla belə, Ermənistan və Qarabağ separatçıları bəyanatın tələblərini yerinə yetirmir və ordumuza qarşı təxribatlar törədirdilər. Bunun qarşısını almaq və Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etmək üçün bu il sentyabrın 19-da Ali Baş Komandan İlham Əliyevin əmri ilə separatçılara və Ermənistan ordusunun qanunsuz birləşməsinə qarşı lokal xarakterli antiterror tədbirlərinə başlandı və 24 saatdan da az bir vaxtda düşmən ağ bayraq qaldıraraq təslim oldu. Hazırda Qarabağın bütün şəhər və kəndlərində Azərbaycan bayrağı dalğalanır.

İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti və Ali Baş Komandan kimi 20 illik fəaliyyəti ölkəmizin qüdrətli bir dövlət kimi formalaşması, 30 illik işğala son qoyularaq respublikamızın ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması ilə tarixə düşüb. Bu müddət ərzində Azərbaycan dünya dövlətləri sırasında özünə layiq yer tutaraq dünya sivilizasiyasına töhfə verən, humanist və multikultural bir dövlət nüfuzu qazanıb. İlham Əliyevin adı isə dünya liderləri arasında sözünün sahibi olan, adı Azərbaycan tarixinə Müzəffər Ali Baş Komandan, Qalib və Xilaskar Sərkərdə kimi qızıl hərflərlə yazılan bir şəxsiyyət kimi daxil olub. Biz fəxr edirik və qürur hissi keçiririk ki, ölkəmizə beynəlxalq aləmdə böyük nüfuz sahibi kimi tanınan İlham Əliyev başçılıq edir.

*Həm də ona görə fəxr edir və qürur duyuruq ki, Prezidentimizin bu illər ərzində qazandığı möhtəşəm nailiyyətlərdə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva kimi silahdaşı var. Son illər ölkəmizdə humanitar məsələlərin həllinə Mehriban xanımın verdiyi töhfələr danılmazdır və xalqımız tərəfindən yüksək qiymətləndirilir.*

**Eldar İBRAHİMOV,**
***Milli Məclisin İntizam komissiyasının sədri,***
***Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, professor***



# MÖHTƏŞƏM 20 İL 2003 2023

# İnkişaf və Zəfər rəmzi



**2003-cü ilin 15 oktyabrı müstəqil Azərbaycanın yeni minillikdə ilk prezident seçkiləri günü, dövlətçilik tariximizdə isə şanlı eranın başlandığı zamandır. Həmin gün qədirbilən Azərbaycan xalqı tarixi seçim edərək işıqlı sabaha, tərəqqiyə, təhlükəsizliyə və gələcək zəfərlərə səs verdi. Xalq, onu zülmətdən, xaosdan, Azərbaycanı məhv olmaq təhlükəsindən qurtaran Ulu Öndər Heydər Əliyevin tarixi çağırışı ilə siyasi məktəbinin ən layiqli məzununa - cənab İlham Əliyevə yüksək etimad göstərdi. Xalqdan mandat alan cənab İlham Əliyev isə Azərbaycan tarixinin möhtəşəm epoxasının memarına çevrildi.**

20 illik zaman kəsiyinə ona görə möhtəşəm era deyirik ki, cənab İlham Əliyev məhz bu qısa müddətdə düşünülmüş, uzaqgörən, humanist və tam müstəqil siyasəti, uğurlu xarici diplomatiyası, qabiliyyəti, əsl sərkərdə qətiyyəti ilə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə, dünyanın isə ən etibarlı tərəfdaşına çevirdi. Əsl lider məhz belə əməllərlə tarixdə iz qoyur, adını əbədi yaşadır.

Bu gün qürurla, fəxarətlə deyə bilərik ki, məhz cənab İlham Əliyevin müdrik siyasəti ilə Azərbaycan cəmi 20 ildə bir çox dövlətin 100 ildə əldə edə bilmədiyi nailiyyətləri qazanıb və bu gün siyasi, iqtisadi və hərbi gücünə görə adı dünyanın qüdrətli ölkələri sırasında çəkilir.

Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan kimi cənab İlham Əliyev sərkərdə qətiyyəti ilə 200 illik terrorçu-separatçı erməni avantürasını məhv edib, "böyük Ermənistan" xülyasını tarixdən birdəfəlik silməklə Azərbaycan xalqının qəlbində əbədi heykəlini ucaldıb.

## Tarixi seçim anı, xalqa müraciət, verilən vədlər

2003-cü ilin oktyabr ayı tarixi seçim zamanı idi. Xalqın xilaskar lideri Ulu Öndər Heydər Əliyevin səhhətində yaranan problem ona uğurlu missiyasını davam etdirməyə imkan vermirdi. Bu səbəbdən də oktyabrın 1-də Ümummilli Lider onu sevən, yürütdüyü siyasətə hər zaman dəstək verən xalqa müraciət edərək öz namizədliyini siyasi varisi cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirdi.

Ulu Öndər xalqı layiqli varisi İlham Əliyevi dəstəkləməyə çağıraraq dedi ki, o, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir: "Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Əlbəttə ki, xalq ölkədə və dünyada baş verən prosesləri aydın görür və yaxşı bilirdi ki, Heydər Əliyev yolu nicat yoludur və bu siyasəti yalnız onun layiqli varisi davam etdirə bilər.

2003-cü il oktyabrın 15-də keçirilmiş seçkilərdə xalq öz seçimini etdi və seçicilərin 76 faizdən çoxu cənab İlham Əliyevə səs verərək onu özünə yeni rəhbər seçdi. Bununla da Azərbaycan xalqı Heydər Əliyevin siyasi kursuna səs verdi. Bu, siyasi kursa sadiqliyini nümayiş etdirən xalqımızın Ümummilli Liderə sevgisinin və inamının göstəricisi idi. Xalq bir daha sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi.

Xalqdan etimad mandatını alan Prezident İlham Əliyev isə oktyabrın 31-də keçirilən andiçmə mərasimində söz verdi: "Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir... Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Cənab İlham Əliyev yüksək kürsüdən bəyan etdi ki, Heydər Əliyev siyasətinə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcək və onun əsəri olan müasir Azərbaycanı gücləndirəcək, zənginləşdirəcək, hərtərəfli inkişaf etdirəcək və yeni qələbələrə doğru inamla addımlayacaq.

20 il öncə yaşanan proseslər bu gün sübut edir ki, qədirbilən Azərbaycan xalqı tarixi seçimində yanlışlığa yol verməyib. Çünki cənab İlham Əliyev verdiyi bütün vədləri həyata keçirdi. Prezidentin elə br sözü olmadı ki, gerçəkliyə çevrilməsin. Dünyanın siyasi xəritəsində bəlkə də kiçik bir nöqtə kimi görünən Azərbaycan 20 ildə nüfuzlu dövlətə çevrildi, beynəlxalq təşkilatlara üzv oldu və hətta bəzilərinə sədrlik də etdi.

## İqtisadi müstəqillik, möhtəşəm uğurlar, rekord göstəricilər

Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi dövr ərzində bütün sahələr öz inkişafını tapdı. Həyata keçirilən genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağına çevrildi.

Əlbəttə ki, bütün bunların reallaşmasında, ilk növbədə, Ulu Öndər Heydər Əliyevin yeni neft strategiyasının böyük payı var. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycan iqtisadiyyatının gücləndirilməsini təmin etdi.

Prezident seçildikdən sonra cənab İlham Əliyev regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarını müəyyən edərək daxili inkişafı şərtləndirən mühüm addımlar atmağa başladı. Bu günədək ölkəmizdə regionların inkişafı ilə bağlı qəbul edilən 4 dövlət proqramı əsasında Azərbaycanın hər bir bölgəsində misilsiz quruculuq işləri, inkişaf siyasəti həyata keçirildi və demək olar ki, qısa zamanda regionların siması büsbütün dəyişdi. Əhalinin məşğulluğu üçün minlərlə yeni iş yeri açıldı.

İlk dövlət proqramının icrasına başlanarkən Azərbaycanın valyuta ehtiyatları cəmi 1,8 milyon dollar idi. Bu gün isə iqtisadi göstəricilərə nəzər yetirdikdə rekord göstəricilərə şahidlik edirik. Son 20 il ərzində, ümumi daxili məhsul dörd dəfə, dövlət büdcəsinin gəlirləri 30 dəfədən çox, xarici ticarət dövriyyəsi isə on dəfədən çox artıb. 20 ildə ölkəmizə 300 milyard ABŞ dolları həcmində sərmayə qoyulub. Müstəqilliyimizin əvvəlində üzləşdiyimiz böyük çağırışlardan biri məlum olan yoxsulluq idi. 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın olsa da, hazırda ölkədə yoxsulluq 5,5 faiz təşkil edir. 20 ildə iqtisadiyyatımız 3,5 dəfə artıb. 2022-2023-cü illərdə strateji valyuta ehtiyatlarımız 14,5 faiz artaraq 67 milyard ABŞ dollarına çatdırılıb.

Məhz Prezident İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri əsasında həyata keçirilən layihələrlə Azərbaycan Avropanın enerji xəritəsini dəyişib. Bir vaxtlar öz əhalisinin enerjiyə olan tələbatını idxalla ödəyən ölkəmiz bu gün dünyaya enerji ixrac edir və bu prosesdə ən etibarlı tərəfdaş statusu qazanıb.

"Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq həm də "Cənub-Qərb" və "Şimal-Qərb" layihələri üzərində də iş aparan Azərbaycan bu gün Avrasiyada enerji körpüləri yaradır. Bu, bir həqiqətdir ki, Azərbaycan müstəqillik illərində öz enerji təhlükəsizliyinə sərmayə yatırıb, idxalçıdan ixracatçıya çevrilib. 1994-2020-ci illər ərzidə Azərbaycan "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, üç seqmentli - Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərindən ibarət "Cənub qaz dəhlizi" layihələrini reallığa çevirib.

Bu gün enerji və nəqliyyat marşrutlarının, o cümlədən boru kəmərlərinin xəritəsinə nəzər salsaq, orada Azərbaycanın dəstxətini görə bilərik. Azərbaycan həm də beynəlxalq bazarlarda enerji təchizatçısıdır və Avropa İttifaqı tərəfindən etibarlı pan-Avropa təchizatçısı hesab edilir. Müstəqillik dövründə Azərbaycan həm də beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrilib.

Prezident İlham Əliyev hər zaman aydın, şəffaf və birmənalı, müstəqil siyasət yürüdüb. Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi Azərbaycan çoxsaylı siyasi, iqtisadi və regional inkişaf layihələrində iştirak edir. 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, həmçinin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi, müasir Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun və qüdrətinin göstəricisidir. Artıq dördüncü ildir ki, ölkəmiz BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına uğurla sədrlik edir. Bu, həqiqətən də Azərbaycanın geniş beynəlxalq dəstəyə malik olmasının bariz təcəssümüdür. Azərbaycan iki mühüm beynəlxalq təsisatın - İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvüdür. Bu da onu göstərir ki, Azərbaycan eyni vaxtda hər iki təşkilata üzv olan azsaylı ölkələrdən biridir.

## Mütərəqqi struktur islahatlarının uğurlu nəticələri

Ən islahatçı Prezident kimi tanınan cənab İlham Əliyevin təşəbbüsü ilə 2016-cı ildə ölkəmizdə ümumxalq referendumu keçirildi və xalq yenə də dövlət başçısına böyük etimad göstərərək onun elan etdiyi islahatlar konsepsiyasına birmənalı dəstək verdi. Konstitusiyaya dəyişikliklər edildi, ölkədə yeni vitse-prezidentlik institutu yaradıldı və daha çevik idarəetmə mexanizmlərinin hüquqi bazası formalaşdırıldı. Vitse-prezidentlik vəzifəsinin təsis edilməsinin məqsədi dövlət strukturlarının fəaliyyətində səmərəliliyin və çevikliyin yüksəldilməsini, vətəndaşlar qarşısında öhdəliyin daha keyfiyyətli icrasına nail olunmasını, məmur məsuliyyətinin gücləndirilməsini təmin etmək idi. Bu baxımdan cənab Prezident tərəfindən vitse-prezidentlik institutunun yaradılması təklifinin ciddi əsasları var idi.

Dövlət başçısının 21 fevral 2017-ci il sərəncamına əsasən, Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunması da təsadüfi deyildi. Çünki Mehriban Əliyeva həmin dövrdə həm Milli Məclisin deputatı kimi, həm də Heydər Əliyev Fondunun rəhbəri olaraq ölkə daxilində və beynəlxalq arenada misilsiz işlər həyata keçirirdi. Vətəninə sonsuz sevgisi, milli-mənəvi dəyərlərə dərin hörməti, ölkənin ictimai-siyasi həyatındakı xidmətləri, xalqa olan tükənməz sevgisi onun ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillər oldu.

Artıq 6 ildir ki, bacarıqlı siyasi fəaliyyəti, yüksəksəviyyəli təşkilatçılıq məharəti, özünəməxsus idarəçilik xüsusiyyətləri, humanist yanaşma tərzi sayəsində Mehriban xanım Əliyeva bu vəzifənin öhdəsindən ləyaqətlə gəlir. Həyata keçirdiyi siyasət birmənalı şəkildə onu deməyə əsas verir ki, Mehriban xanım Əliyeva cənab Prezidentin ən sadiq silahdaşıdır.

Prezidentin mütərəqqi islahatları bununla yekunlaşmadı. Dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə Nazirlər Kabinetində, Prezident Administrasiyasında, Milli Məclisdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, məhkəmə-hüquq sistemində, digər qurumlarda da aparılan struktur və kadr islahatları ölkəmizin ictimai-siyasi və iqtisadi inkişafına yeni təkan verdi. İslahatlar müasir dövrün yeni çağırışları şəraitində Azərbaycanın ardıcıl və dinamik yüksəlişinə real zəmin yaratdı.

## 200 illik erməni avantürasının məhvi

İqtisadi müstəqilliyin sayəsində əldə edilən böyük uğurlar və Prezident İlham Əliyevin hər bir qərarı, təşəbbüsü və addımı Azərbaycanı qüdrətli dövlətə çevirdi və bütün bunlar 2003-cü ildə verilən ən mühüm vədin - işğal altında olan torpaqlarımızın azadlığının gerçəkləşdirilməsi üçün real zəmin yaratdı.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev əsl sərkərdə kimi Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. "Ərazi bütövlüyümüzün bərpa olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəridir" desək, yanılmarıq.

Üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan işğala son qoydu. 2023-cü il aprelin 23-də isə Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüz tam bərpa edildi. Sentyabrın 19-da isə Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirləri ilə Azərbaycan suverenliyi tam təmin etmiş oldu. Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması və tam şəkildə tərksilah olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin Azərbaycan ərazilərini tərk etməsi, qeyri-qanuni erməni silahlı dəstələrinin buraxılması, eyni zamanda paralel şəkildə bütün silah-sursat və ağır texnikanın təhvil verilməsi Azərbaycanın növbəti Qələbəsinin təntənəsi oldu. Müzəffər Ali Baş Komandan, Azərbaycan əsgəri və Azərbaycan xalqı bir daha sübut etdi ki, şəhidlərimizin qanı nahaq yerə tökülməyib.

Dünya ermənilíyinin ikiəsrlik avantürasını, "böyük Ermənistan" xülyasını 44 günə məhv edib, 23 saata tarixdən birdəfəlik silən İlham Əliyev həyata keçirdiyi qətiyyətli siyasəti ilə bir daha hər kəsə göstərdi ki, onun sözü imzası qədər keçərlidir. Əgər Prezident hansısa sözü deyirsə və ya hansısa vədi verirsə, onu mütləq tezliklə reallığa çevirir. Bunu artıq təkcə Azərbaycan xalqı deyil, bütün dünya bilir.

Qətiyyətli Lider kimi İlham Əliyev hər zaman deyirdi ki, gün gələcək əli Azərbaycan xalqının qanına batmış, xalqımıza qarşı terror aktları törətmiş hər bir separatçı cəzasını alacaq. Dövlət başçısının bu bəyanatının da reallaşması çox çəkmədi. Özünü buraxdığını elan edən qondarma qurumun "rəhbər"ləri bir-bir həbs edilərək Bakıya gətirilməkdədirlər. Azərbaycan Dövlət Təhlükəsizlik Xidməti tərəfindən bu günə kimi 8 terrorçu saxlanılıb. Onlardan bəziləri barədə həbs qəti imkan tədbiri seçilib. Bəzilərinin isə sorğusu davam etdirilir. Proses davamlı olacaq və terrorçular törətdikləri cinayətlərə görə layiqli cəzalarını alacaqlar.

Beləliklə, Prezident İlham Əliyev suverenliyin və konstitusiya qurluşunun tam bərpasını 44 gündə gerçəkləşdirdi, 23 saat ərzində tam yekunlaşdırdı. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası Prezident İlham Əliyevin qüdrətli liderliyinin nəticəsidir. Müzəffər Ali Baş Komandan ikiəsrlik "böyük Ermənistan" xülyasını, terrorçu-separatçı avantüranı 44 gündə məhv etdi, tarixdən birdəfəlik sildi.

Bu gün isə separatçılardan təmizlənən ərazilərimizə Azərbaycanın müvafiq dövlət qurumları nəzarət edirlər. Eyni zamanda Qarabağın erməni sakinlərinin reinteqrasiya prosesi həyata keçirilir. İllərlə separatçıların əlində girov kimi saxlanılan erməni sakinlər Azərbaycan vətəndaşlığını alıb ölkəmizin ərazisində digər xalqların nümayəndələri kimi xoş, firavan həyat sürmək niyyətindədirlər. Onlar da Azərbaycan dövlətinin digər vətəndaşlara göstərdiyi qayğı ilə əhatə olunacaqlar.

## Möhtəşəm quruculuq, Böyük qayıdış

Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük dövlət xadimi və Azərbaycan xalqının lideri kimi əsas missiyası dövlətin və xalqın gücü ilə düşmənin viran qoyduğu işğaldan azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılmasıdır.

Bu, Böyük qayıdış olmaqla təkcə azərbaycanlıların Qarabağa deyil, vaxtilə deportasiya edildikləri bütün tarixi torpaqlarına dönüşünü əhatə edəcək. İndi Prezident İlham Əliyevin böyük uzaqgörənliklə qurduğu strategiya Azərbaycan dövlətini daha qüdrətli, Azərbaycan xalqını daha güclü, Azərbaycan bayrağını daha uca etməyə hədəflənib. Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağ və Şərqi Zəngəzurun bərpası və inkişafını nəzərdə tutan Böyük qayıdış strategiyasının tükənməz aktuallığını təmin edir. Sözügedən strategiya yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş ərazilərin, ümumən regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Belə ki, layihələndirmə işlərində tətbiq olunan yeniliklərin bir çox dövlət üçün nümunəvi model kimi qəbul olunması və məsələ ilə bağlı səslənən beynəlxalq etiraflar qayıdış strategiyasının effektivliyi və perspektivliyi haqqında xəbər verir.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan bu günədək bərpa işlərinə Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il üçün planlaşdırılan minimum büdcə 2,4 milyard dollardır. Onu da xüsusi vurğulamaq yerinə düşər ki, bütün bu layihələri reallaşdırmaq üçün Azərbaycan heç bir maliyyə dəstəyi və ya maliyyə yardımı almır. Qüdrətli dövlət kimi yalnız öz iqtisadi imkanları hesabına işğaldan azad edilmiş torpaqlarımızda xariqələr yaradır.

Bu gün keçmiş məcburi köçkünlər öz yurdlarına qayıdırlar. Şuşada, Zəngilanda, Talışda, Füzulidə həyat yenidən qaynamağa başlayıb. İşğaldan azad edilmiş şəhər və rayonlarımızda, kəndlərimizdə bütün lazımi infrastrukturlar yaradılır, tarixi, mədəni-dini abidələrimiz bərpa edilir. Uzun illər düşmən tapdağında xarabalığa çevrilmiş torpaqlarımızda, məscidlərimizdə susdurulan müqəddəs azan səsi qalib Sərkərdənin rəhbərliyi sayəsində yenidən qurulan ibadət məbədlərində eşidilir. Əlbəttə ki, bütün bu proseslərin reallaşmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əvəzsiz xidmətləri var. Torpaqlarımız işğaldan azad edildikdən sonra erməni barbarlarının darmadağın etdikləri, tarixdən silmək istədikləri bütün abidələrimiz bu fond tərəfindən yenidən bərpa edilir. İndiyədək Şuşada, Ağdamda, Zəngilanda və digər işğaldan azad edilmiş ərazilərimizdə məscidlərimiz, tarixi-dini və mədəni abidələrimiz yenidən tam bərpa edilir.

Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzura hər səfərində tikintisi başa çatan abidələrimizi ziyarət edir, bərpa-quruculuq işləri davam edən tarixi-memarlıq, mədəni-dini abidələrimizdə görülən işlərlə tanış olub öz tapşırıq və tövsiyələrini verir.

Bir sözlə, Qarabağ və Şərqi Zəngəzuru "Dəmir yumruq"la azad edən Müzəffər Ali Baş Komandan bu gün tarixi şəhər və rayonlarımızı, kəndlərimizi "dəmir iradə" ilə yenidən qurur, keçmiş məcburi köçkünlərimizin tezliklə doğma yurdlarına tam qayıtmaları üçün qətiyyətli addımlar atır.

Azərbaycan Prezidentinin digər missiyası isə regionda sülhün, təhlükəsizliyin təminatıdır. Artıq suverenliyini tam təmin edən Azərbaycan Ermənistanla sülh sazişi bağlamağa hər zaman hazırdı. Əgər məğlub ölkənin rəhbərliyi bəzi havadarlarının yalan vədlərinə daha inanmayıb sülh müqaviləsinə imza atarsa, Cənubi Qafqazda yeni dönəm başlaya bilər. Ermənistan bölgədə həyata keçiriləcək layihələrdə iştirak hüququ qazanmaqla 30 ildir düşdüyü bataqlıqdan qurtulmuş olar. Bunu cənab İlham Əliyev dəfələrlə bu ölkənin rəhbərliyinə çatdırıb. İndi seçim Ermənistanındır.

*Bir sözlə, əminliklə deyə bilərik ki, qətiyyətli, sözü imzası qədər keçərli olan cənab İlham Əliyev bu tarixi missiyası ilə Azərbaycan xalqının qəlbində əbədi heykəlini ucaldıb. 2003-cü ilin 1 oktyabrında Ulu Öndər Heydər Əliyevin xalqa müraciətində uzaqgörənliklə səsləndirdiyi "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri İlham Əliyev başa çatdıra biləcək" fikri öz təsdiqini tapdı. Ata vəsiyyətini yerinə yetirən qətiyyətli Lider bu inamı doğrultdu. İndi isə onun qüdrətinə bütün Azərbaycan, bütün dünya inanır.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# MDB ölkələrinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərlərinin növbəti iclası olub





Oktyabrın 11-də Bakı şəhərində MDB-yə üzv dövlətlərin təhlükəsizlik orqanları rəhbərləri Şurasının (SORB) 53-cü iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi general-polkovnik Orxan Sultanov və MDB ölkələrinin müvafiq orqanlarının rəhbərləri iştirak ediblər. Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabanda müasir Azərbaycanın banisi və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək önünə gül dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Sonra tədbirin rəsmi açılışı olub, gündəlikdə duran məsələlərin müzakirəsinə başlanılıb. DTX-nin rəisi general-polkovnik Əli Nağıyev giriş nitqində qonaqları Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirib, tədbirin Bakı şəhərində keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Xidmət rəisi SORB-un Belarusun Minsk şəhərində keçirilən son iclasından ötən qısa zaman ərzində dünyada təhlükəsizlik və geosiyasi cəhətdən bir sıra köklü dəyişikliklərin baş verdiyini, bəzi ölkələrdə yeni münaqişə ocaqlarının yarandığını, beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, dini ekstremizm, narkotik vasitələrin qanunsuz dövriyyəsi hallarının artdığını və bu vəziyyətin ölkələrdə əməliyyat şəraitini xeyli mürəkkəbləşdirdiyini qeyd edib, tədbirin göstərilən istiqamətlərdə təcrübə və fikir mübadiləsi aparmağa, MDB dövlətlərinin mənfi təzahürlərə qarşı birgə mübarizə üsullarını və koordinasiyalı iş mexanizmini daha da təkmilləşdirməyə, gələcək fəaliyyətin konturlarını cızmağa əlavə imkanlar yaradacağına, mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin yeni mərhələyə yüksələcəyinə inandığını deyib. Əli Nağıyev iclasın gündəliyində həlli vacib məsələlərin durduğunu, tədbir çərçivəsində dövlətlərin təhlükəsizliyi baxımından mühüm qərarların qəbul ediləcəyinə, ümumilikdə iclasın məhsuldar keçəcəyinə ümidvar olduğunu bildirib.

Respublikamızda təhlükəsizliyə və sabitliyə əsas təhdidlərdən sayılan, Azərbaycanın Qarabağ bölgəsində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinə qarşı həyata keçirilmiş antiterror tədbirləri barədə məlumat verən general-polkovnik Əli Nağıyev bildirmişdir ki, həmin cinayətkar birliklərin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın ziddinə olaraq ərazilərimizdən çıxmaması, son zamanlar onlar tərəfindən yaşayış məntəqələrinin və kommunikasiyaların davamlı minalanması, ordumuzun mövqelərinin fasiləsiz atəş altında saxlanılması, mülki vətəndaşların və polis əməkdaşlarının həlak olması ilə nəticələnən terror aktlarının törədilməsi qısamüddətli antiterror tədbirlərinin keçirilməsini zəruri və təxirəsalınmaz edib, bununla da Azərbaycan Respublikası öz suverenliyini bərpa edib.

Sonra iclas birlik ölkələrinin təhlükəsizlik məsələləri üzrə, o cümlədən MDB məkanında sabitliyin pozulmasına yönələn destruktiv fəaliyyətə və yeni çağırışlara qarşı səylər birləşdirilməklə birgə mübarizəyə dair digər iştirakçıların çıxışları və qarşılıqlı müzakirələrlə davam etmiş, yekun sənədlərin imzalanması ilə başa çatıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Masallı Rayon Polis Şöbəsində vətəndaşlarla görüşüb.

Rayon polis şöbəsinin inzibati binasında Masallı, Yardımlı, Lerik, Astara, Lənkəran şəhər və rayonlarından qəbula gələn 95 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyəti yerindəcə həll edilib. Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib. Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər. 18-i Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 71 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Ombudsman Səbinə Əliyeva Vyana Miqrasiya Konfransında iştirak edib

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) miqrantların hüquqlarının qorunması və monitorinqi istiqamətində əhatəli və səmərəli fəaliyyət göstərir və bu sahədə beynəlxalq tərəfdaşlığa xüsusi önəm verir.

Ombudsman Səbinə Əliyevanın rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 10-11-də 8-ci Vyana Miqrasiya Konfransında iştirak etmək üçün Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (MSİBM) dəvəti ilə Vyanaya səfər edib.

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından bildirilib ki, konfrans miqrasiya üzrə qlobal müzakirələrin aparılması, Avropa, Afrika və Asiyanın miqrasiya idarəçiliyi üzrə qərarverənlər və yüksəksəviyyəli tərəflərin bir araya gətirilməsi, həmçinin regional və qlobal yerdəyişmə, geri qayıdış, reinteqrasiya və digər müvafiq sahələrdə fəaliyyət göstərən beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının, media və özəl sektorun nümayəndələrinin bu sahədə müsbət təcrübələri, üzləşdikləri çətinliklərin həlli yollarının müəyyən edilməsi sahəsində fikir mübadiləsinin aparılması məqsədi daşıyır.

Tədbirdə açılış nitqi ilə çıxış edən MSİBM-in Baş direktoru Mixail Şpindeleqqer miqrasiya siyasətinin uğurla həyata keçirilməsi, miqrantların hüquqlarının təmini, rifahlarının yaxşılaşdırılması, cəmiyyətə səmərəli inteqrasiyası naminə kommunikasiyanın, dövlətlərin əməkdaşlığının, birgə layihə və proqramların həyata keçirilməsinin zəruriliyini vurğulayıb.

Tədbirdə Avstriyanın Qadın, Ailə, İnteqrasiya və Media üzrə federal naziri Susanne Raab, Türkiyə Daxili İşlər Nazirliyinin Miqrasiya Baş İdarəsi rəhbəri Atilla Toros və müavini Hüseyin Kök, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Mərkəzi Aralıq dənizi üzrə vəziyyətlə bağlı xüsusi səfiri Vinsent Koçetel, Yunanıstanın miqrasiya və sığınacaq üzrə naziri Dimitris Kairidis, İsveçin miqrasiya naziri Maria Malmer Stenergard, "Fronteks"in Əsas İnsan Hüquqları İdarəsinin rəhbəri Jonas Grimheden və digərləri çıxış ediblər.

Konfrans çərçivəsində MSİBM-in Baş direktoru M.Şpindeleqqer ilə keçirilən ikitərəfli görüş zamanı ombudsman Səbinə Əliyeva təsisatın insan hüquq və azadlıqlarının səmərəli təmini, müdafiəsi və pozulmuş hüquqların bərpası sahəsində fəaliyyəti, "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş dəyişikliklər nəticəsində müvəkkilin səlahiyyətlərinin genişləndirilməsi barədə məlumat verib. Azərbaycan ombudsmanının insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığa xüsusi önəm verdiyi, milli insan hüquqları institutları və ombudsmanların beynəlxalq və regional təşkilatlarına üzv olduğu bildirilib.

Eyni zamanda miqrantların hüquqlarının qorunması istiqamətində ölkə təcrübəsi barədə məlumat verilib, ombudsmanın Milli Preventiv Mexanizm mandatı çərçivəsində miqrantların saxlama yerlərinə də başçəkmələr həyata keçirildiyi vurğulanıb. Ombudsman 30 ilə yaxın müddət ərzində Ermənistanın Azərbaycana qarşı işğal və etnik təmizləmə siyasəti nəticəsində ölkəmizdə bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün həyatı sürdüyünü, onların sosial, iqtisadi, təhsil və digər hüquqlarının təmininin daim diqqət mərkəzində saxlanıldığını qeyd edib.

Bu sahədə beynəlxalq tərəfdaşlığın genişləndirilməsinin vacibliyini qeyd edən ombudsman MSİBM-lə davam edən əməkdaşlığın miqrasiya sahəsində fəaliyyətin səmərəliliyinin artırılmasına xidmət etdiyini, həssas əhali qruplarına aid olan miqrantlara daha çox diqqət yetirilməklə onların hüquqlarının müdafiəsi üzrə yeni yanaşmaların tətbiq olunmasına töhfə verəcəyini vurğulayıb.

# *Ceyhun BAYRAMOV:* "Otuz il sonra bölgədə sülh və sabitliyin təmin edilməsi üçün tarixi imkan yaranıb"

Oktyabrın 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə tərəflər Azərbaycan ilə Ermənistan arasında sülh sazişi layihəsinin perspektivləri, iki ölkə arasında normallaşma məsələləri, bölgədəki son vəziyyət, Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni əhalisinin reinteqrasiyası istiqamətində atılan addımlar ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycan tərəfinin sülh gündəliyi üzrə Avropa İttifaqı da daxil olmaqla, beynəlxalq tərəfdaşların vasitəçiliyi ilə həyata keçirilən görüşlərin müsbət nəticələnməsində maraqlı olduğunu, 30 il sonra bölgədə sülh və sabitliyin təmin edilməsi naminə tarixi imkanın yarandığını vurğulayıb. Bu xüsusda Ermənistan tərəfindən revanşizmə gətirə biləcək açıqlama və bəyanatların verilməsindən, ölkəmizə qarşı aparılan qondarma qarayaxma kampaniyasından çəkinməyin vacibliyi diqqətə çatdırılıb.

Görüşdə nazir Ceyhun Bayramov Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni sakinlərinin reinteqrasiyası istiqamətində aparılan işlər barədə qarşı tərəfi məlumatlandırıb, hazırda tərəfimizdən yaradılmış elektron portal vasitəsilə yerli erməni sakinlərin qeydiyyatı prosesinin davam etdirildiyini bildirib. Həmçinin erməni sakinlərin Azərbaycan ərazisini tərk etməsinin hər hansı bir məcburi yerdəyişmə ilə əlaqədar olmadığı diqqətə çatdırılaraq BMT rəsmilərinin bölgəyə son səfərləri və səfər sonrası verilən açıqlamaların bunun bariz nümunəsi olduğu qeyd olunub.



Görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparıblar.

❖ ❖ ❖

Oktyabrın 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclası çərçivəsində ölkəmizdə səfərdə olan Pakistanın xarici işlər naziri Cəlil Abbas Cilani ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə tərəflər Azərbaycan və Pakistan arasında qarşılıqlı etimad, həmrəylik və hörmətə əsaslanan strateji ikitərəfli münasibətlər, əməkdaşlıq perspektivləri, gündəlikdə duran əsas məsələlər, bölgədəki cari vəziyyət ətrafında fikir mübadiləsi aparıb.

İki ölkə arasında əməkdaşlığın, o cümlədən mövcud siyasi dialoqun yüksək səviyyəsindən məmnunluq ifadə olunub, bütün istiqamətlərdə, o cümlədən parlament diplomatiyası istiqamətində ali və yüksəksəviyyəli səfərlərin, o cümlədən təmasların əhəmiyyəti vurğulanıb.



Həmçinin Azərbaycan və Pakistan arasında iqtisadiyyat, nəqliyyat, ticarət və digər sahələrdə əməkdaşlığın geniş potensialının olduğu diqqətə çatdırılıb. Görüşdə nazir Ceyhun Bayramov həmkarını bölgədəki son vəziyyət, Azərbaycanın qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah edilməsi və qanunsuz rejimin buraxılması məqsədilə həyata keçirdiyi antiterror tədbirləri barədə məlumatlandırıb.

Pakistanlı nazir İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının növbəti iclasının Azərbaycanın Şuşa şəhərində yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Pakistanın xarici işlər naziri Cəlil Abbas Cilani Pakistanın Azərbaycanın ərazi bütövlüyünü və suveren ərazilərində həyata keçirdiyi legitim addımları dəstəklədiyini vurğulayıb.

Bu kontekstdə Ermənistanın 30 illik işğalı dövründə, habelə 44 günlük Vətən müharibəsi zamanı ölkəmizə göstərilən dəstək yüksək qiymətləndirilib.

Görüşdə nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında müzakirələr aparıblar.

*AZƏRTAC*

# *XİN:* "Katrin Kolonanın Fransa Senatında Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları qətiyyətlə pisləyirik"

Oktyabrın 11-də Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonanın Fransa Senatında çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddiaları qətiyyətlə pisləyir və rədd edirik.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Fransanın Avropa və xarici işlər naziri Katrin Kolonanın Fransa Senatında çıxışı zamanı səsləndirdiyi iddialara dair şərhində bildirilib.

Qeyd edilib ki, Fransa nazirinin Azərbaycanın Qarabağ bölgəsini heç bir güc tətbiq edilmədən, könüllü şəkildə tərk edən ermənilərin Ermənistanda yerləşməsinin, guya, Azərbaycan tərəfindən planlaşdırıldığı iddiasını səsləndirməsi Fransanın beynəlxalq təşkilatların rəyinin, hətta Ermənistan baş nazirinin 21 sentyabr tarixli bəyanatının əksinə, öz məkrli və xəyalpərəst siyasətlərini davam etdirmək marağından çıxış etdiyini göstərir.

"Öz qanlı müstəmləkəçiliyi və vasitəçiliyi dönəmində işğalçı tərəf olan Ermənistanı dəstəkləyən Fransanın indi ədalətdən və beynəlxalq hüquqdan danışması qəbuledilməzdir.

Azərbaycan ərazilərinin işğaldan azad edilməsini, işğalçı qüvvələrin qeyd-şərtsiz, tam və dərhal çıxmasını, məcburi köçkünlərin öz evlərinə qayıtmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin 27 il ərzində icrasını təmin etmək istiqamətində heç bir addım atmayan Fransanın indi Azərbaycana qarşı qətnamə qəbuluna çağırış etməsi riyakarlıq nümunəsidir. Qırxdördgünlük Vətən müharibəsindən sonra son üç il ərzində Fransa tərəfi əsassız BMT Təhlükəsizlik Şurası təşəbbüsləri ilə çıxış etmək əvəzinə qanunsuz fəaliyyətə son qoyulması və erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılması məqsədilə Ermənistana düzgün istiqamət versəydi, bu, bölgədə sülh və təhlükəsizliyə əsl töhfə olardı.

Fransa tərəfinə bir daha xatırladırıq ki, Azərbaycanla təhdid və təzyiq dili ilə danışmaq heç bir nəticə verə bilməz və bu kimi destruktiv əməllərə dərhal son qoyulmalıdır.

Ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı bütün addımların qarşısı qətiyyətlə alınacaq", - deyə şərhdə vurğulanıb.

# Allahşükür Paşazadə Müsəlman Ağsaqqalları Şurasının baş katibi ilə görüşüb

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Dünya və ənənəvi dinlər liderlərinin Qurultay Katibliyinin XXI sessiyasında iştirak etmək məqsədilə səfərdə olduğu Qazaxıstanda oktyabrın 10-da bir sıra görüşlər keçirib.





QMİ-nin Mətbuat xidmətindən bildirilib ki, səfər çərçivəsində Allahşükür Paşazadə Müsəlman Ağsaqqalları Şurasının Baş katibi Məhəmməd Əbdüssalam ilə görüşüb.

Şeyxülislam A.Paşazadə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tamamilə bərpa olunması barədə Məhəmməd Əbdüssalama məlumat verib.

Baş katib bu tarixi hadisə münasibətilə təbriklərini çatdırıb, antiterror tədbirləri zamanı Azərbaycan tərəfindən yerli əhaliyə qarşı heç bir zorakılıq halının qeydə alınmadığını xüsusi vurğulayıb. Qeyd olunub ki, bununla belə, bəzi ölkələr və siyasi dairələr yenə də məsələyə ikili standartlardan yanaşaraq bu aşkar faktı görmür və ya görmək istəmir.

Tərəflər Müsəlman Ağsaqqalları Şurasının beynəlxalq aləmdə artan nüfuzunu və Birləşmiş Millətlər Təşkilatı başda olmaqla, müxtəlif beynəlxalq strukturlarla fəal əməkdaşlığını məmnunluqla vurğulayıblar.

Məhəmməd Əbdüssalam Abu-Dabidə keçiriləcək BMT Ətraf Mühitin Mühafizəsi üzrə 28-ci Konfransının tarixində ilk dəfə olaraq Müsəlman Ağsaqqalları Şurasının rəhbərliyi ilə dini platformanın yaradılmasının planlaşdırıldığını qeyd edib. Baş katib Qafqaz Müsəlmanları İdarəsinin sədrinə Cənub-Şərq Asiya ölkələrinə səfərləri, bu ölkələrdə dinlərarası forumların hazırlanması və təşkili barədə məlumat verib.

Şeyxülislam A. Paşazadə bu təşəbbüslərə tam dəstəyini ifadə edərək, Müsəlman Ağsaqqalları Şurası rəhbərliyinin həmin tədbirlərin keçirilməsi ideyasını yüksək qiymətləndirib. Tərəflər Ümumdünya Fətva evləri və qurumları Baş Katibliyinin konfransında iştirak etmək üçün şeyxülislamın gələn həftə Qahirəyə gözlənilən səfərinə toxunaraq Qafqaz Müsəlmanları İdarəsinin sədri ilə Əl-Əzhər şeyxi arasında görüşün təşkili imkanlarını müzakirə ediblər.

Görüşdə QMİ sədrinin birinci müavini Müfti Salman Musayev və sədr müavini Rəşad Əliyarlı iştirak ediblər.

❖ ❖ ❖

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Qazaxıstanda həmçinin Bəhreyn Krallığının Kral Həməd adına sülh şəraitində birgə yaşayış Qlobal Mərkəzinin prezidenti Abdullah bin Əhməd Al Xəlifə ilə də görüşüb.

QMİ-nin Mətbuat xidmətindən bildirilib ki, görüşdə Şeyxülislam A.Paşazadə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişaf edəcəyinə ümidvar olduğunu deyib.

Bəhreyn Krallığının xarici işlər nazirinin siyasi məsələlər üzrə müavini vəzifəsini də icra edən Abdullah bin Əhməd Al Xəlifə daha əvvəl ölkəmizə səfər etdiyini, həmkarları ilə görüşlər keçirdiyini bildirib.

A.Paşazadə bəhreynli həmsöhbətinə Azərbaycanda hökm sürən multikulturalizm, dinlərarası və konfessiyalararası harmoniya mühiti barədə məlumat verib. Diqqətə çatdırılıb ki, Azərbaycanda sünni və şiə müsəlmanlar mehriban yaşayır, sünni və şiə imamlar ölkə məscidlərində birlikdə namaz qılırlar. Eyni zamanda müxtəlif dinlərin nümayəndələrinin tolerantlıq mühitində yaşaması Azərbaycan cəmiyyətinin həyat tərzidir.

Kral Həməd Qlobal Mərkəzinin prezidenti öz növbəsində qeyd edib ki, Bəhreynin müsəlman icması da iki məzhəbin nümayəndələrindən ibarətdir, bu da cəmiyyətlərimizin oxşarlığından xəbər verir. Tərəflər iki ölkə arasında bütün sahələrdə, o cümlədən mədəni və mənəvi sahələrdə əlaqələrin və əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

Abdullah bin Əhməd Al Xəlifə deyib ki, onun rəhbərlik etdiyi Qlobal Mərkəz Müsəlman Ağsaqqallar Şurası ilə əməkdaşlıq çərçivəsində gələn il Bəhreyndə dünyanın müxtəlif ölkələrindən bir çox din xadimlərinin iştirakı ilə sülh içində birgəyaşayış məsələlərinə həsr olunmuş böyük beynəlxalq dinlərarası forum təşkil etməyi planlaşdırır. O, Şeyxülislamı orada iştirak etməyə dəvət edib.

QMİ sədri A.Paşazadə dəvətə görə minnətdarlığını bildirib və onu məmnuniyyətlə qəbul edib.

Görüşün sonunda tərəflər Kral Həməd Qlobal sülh içində birgə yaşayış Mərkəzi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında sıx ikitərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi barədə razılığa gəliblər.

*AZƏRTAC*






# Heydər Əliyev Mərkəzində Mixail Qusmanın "Liderin ürəyi" filmi təqdim olunub

Oktyabrın 10-da Heydər Əliyev Mərkəzində "TASS" informasiya agentliyinin baş direktorunun birinci müavini, Rusiyanın Əməkdar jurnalisti Mixail Qusmanın "Liderin ürəyi" sənədli filminin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, ekran əsəri Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilib.

Baş direktorun birinci müavini Mixail Qusman filmin nümayişindən əvvəl çıxışında bu ilin dahi Heydər Əliyevin adı, yüzilliyi ilə ayrılmaz şəkildə əlaqəli olduğunu vurğulayaraq deyib: "Oktyabrın 10-u xüsusi gündür. Düz 30 il bundan əvvəl 1993-cü il oktyabrın 10-da Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi and içib. O, həmin vaxt ən ağır vəziyyətdə olan ölkəni faktiki olaraq xilas edib".

Mixail Qusman filmin niyə belə adlandırıldığı barədə də danışıb: "Ekran əsəri "Liderin ürəyi" adlandırılıb, çünki Heydər Əliyev bütün həyatı boyu ürəyini qorumadan işləyib, özünü bütövlükdə doğma xalqına həsr edib. Oktyabrın 15-də İlham Heydər oğlunun 2003-cü il seçkilərində inamlı qələbə qazandığı başqa bir tarixin qeyd olunması çox simvolikdir".

Əməkdar jurnalist qeyd edib ki, Heydər Əliyevin böyük arzusu idi ki, Azərbaycan torpaqlarını işğaldan azad etsin və bayrağı azad edilmiş Şuşada, bütün Qarabağda dalğalansın. "2020-ci il noyabrın 8-də Azərbaycan bayrağı Şuşada, bu il sentyabrın 20-də isə bütün Qarabağda ucaldılıb", - deyə o bildirib.

Sonra "Liderin ürəyi" sənədli filmi nümayiş olunub.

Film Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı və ölkəyə rəhbərlik etdiyi dövrü əhatə edir. Ekran əsərində belə bir qayıdışın dünya tarixində ilk dəfə baş verdiyi vurğulanır.

Heydər Əliyev Azərbaycan tarixində əsas rol oynayıb və dünya siyasətində dərin iz qoyub. "Liderin ürəyi" sənədli filmi Mixail Qusmanın Bill Klinton, Corc Buş, Jak Şirak, Madlen Olbrayt, Toni Bler, Zbiqnev Bjezinski və digər dünya liderləri ilə Heydər Əliyev haqqında apardığı söhbətləri ehtiva edir. Məhz onun dövründə Azərbaycan strateji tərəfdaşlarının sayını genişləndirərək, beynəlxalq arenada öz mövqeyini möhkəmləndirib. ATƏT və BMT kimi təşkilatlarda ölkənin diplomatiyası fəallaşıb. Uzaqgörən siyasətçi Heydər Əliyev Azərbaycana böyük xarici investisiyalar cəlb edib ki, bu da "Əsrin müqaviləsi"nin imzalanmasına gətirib çıxarıb.

Filmin nümayişinin sonunda Mixail Qusman ekran əsərinin ərsəyə gəlməsində göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna, eləcə də arxiv materiallarının əldə edilməsindəki dəstəyə görə AzTV-yə, Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) təşəkkürünü bildirib.

Sonra Azərbaycanın Xalq artisti Elçin Əzizov Xalq artisti Polad Bülbüloğlunun müşayiəti ilə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Rekviyem" mahnısını ifa edib. Qeyd edək ki, Azərbaycanın Xalq artisti Polad Bülbüloğlu ekran əsəri üçün şair Yuri Ryaşentsevin şeirlərinə mahnı bəstələyib.

Polad Bülbüloğlu çıxış edərək bildirib: "Bu gün biz azad Qarabağı, azad Azərbaycanı görürük. Ümummilli Lider Heydər Əliyevin 100 illiyi Azərbaycanda və eləcə də digər ölkələrdə qeyd edilir. Bu onu göstərir ki, Heydər Əliyev bu gün də öz xalqını tanıdır".

Qeyd edək ki, filmdə Heydər Əliyevin Mixail Qusmana verdiyi eksklüziv müsahibələri, onun dəyərli fikirləri, siyasi fəaliyyəti ilə bağlı nadir arxiv kadrları yer alıb. Çəkilişlər Moskvada, Bakıda və Ulu Öndərin doğulduğu Naxçıvanda aparılıb.

"Liderin ürəyi" sənədli filminin rejissoru Valeri Spirin, ssenari müəllifi Marina Deniseviçdir.

Ekran əsəri Azərbaycan, rus və ingilis dillərində hazırlanıb.

# UNESCO İcra Şurasının 217-ci sessiyasında Azərbaycanın bəyanatı səsləndirilib

"Azərbaycan UNESCO-nun prioritet və proqramlarının səmərəli şəkildə həyata keçirilməsinə böyük önəm verir. Ölkəmiz UNESCO və ona üzv dövlətlərlə açıq, şəffaf və inklüziv şəkildə işləməkdə qətiyyətlidir. Azərbaycan mədəniyyətlərarası dialoq, eləcə də irqçilik və ayrı-seçkiliklə mübarizə sahəsində təşkilatın irəli sürdüyü təşəbbüsləri fəal şəkildə dəstəkləyir, "Bakı Prosesi" və "Mədəniyyət naminə sülh" kimi qlobal təşəbbüslər vasitəsilə mədəniyyətlər və dinlər arasında dialoqu ardıcıl olaraq təşviq edir".




AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev təşkilatın İcra Şurasının 217-ci sessiyasında təqdim etdiyi ölkəmizin milli bəyanatında yer alıb. Bildirilib ki, Azərbaycan öz milli imkanları daxilində və Qoşulmama Hərəkatının sədri kimi sülh, təhlükəsizlik və Qlobal Dayanıqlı İnkişaf Gündəliyinə töhfə verməkdə davam edir, beynəlxalq həmrəyliyi və çoxtərəfliliyi təşviq etmək üçün səylərini əsirgəmir. Ancaq regionda hələ də mövcud olan irqçilik, ayrı-seçkilik və bununla bağlı dözümsüzlük kimi təhlükəli tendensiyalar narahatlıq doğurur.

"Ermənistan 30 illik hərbi təcavüz zamanı Azərbaycanın işğal olunmuş ərazilərində mədəni irsi tamamilə dağıdıb, talan edib və vandalizmə məruz qoyub. Tarixi abidələr, məscidlər, məbədlər, məqbərələr, muzeylər, eksponatlar, sənət qalereyaları, arxeoloji abidələr və kitabxanalar kimi mədəni sərvətlər ən vəhşicəsinə talan olunaraq yerlə yeksan edilib.

İşğal zamanı Azərbaycanın təhsil infrastrukturuna da ciddi ziyan vurub. Azərbaycanın işğal altında olmuş ərazilərində 2000-dən çox təhsil müəssisəsi Ermənistan tərəfindən tamamilə dağıdılıb.

Ermənistanda da Azərbaycanın mədəni irsinin dağıdılması, talan edilməsi və mənimsənilməsi üzrə sistemli siyasət həyata keçirilib. Ermənistanda azərbaycanlıların tarixi izləri qəsdən məhv edilib, İrəvan, Qərbi Zəngəzur, Vedi, Nüvədi, Göyçə və bir çox digər dədə-baba və tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların izləri tamamilə silinib", - deyə bəyanatda vurğulanıb.

Diqqətə çatdırılıb ki, Ermənistanın azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasəti Azərbaycanın qeyri-maddi mədəni irsinə də sarsıdıcı təsir göstərib. Azərbaycanın mədəni irsinin Ermənistan tərəfindən dağıdılması hər bir azərbaycanlının mədəni hüquqlarına, xüsusən də hər kəsin mədəni irsdən istifadə hüququna mənfi təsir göstərib.

Azərbaycan hökumətinin, çoxsaylı Azərbaycan QHT-lərinin və Qərbi Azərbaycan İcmasının Ermənistanda Azərbaycan mədəni irsinin dağıdılmasından dərin narahatlığını ifadə edən və bu ölkədə mövcud vəziyyəti qiymətləndirmək üçün UNESCO-nun baş direktoruna faktaraşdırıcı missiya göndərməklə bağlı müraciət Azərbaycan xalqının haqlı tələbidir.

"2020-ci il üçtərəfli Bəyanatın imzalanmasından ötən üç il ərzində Ermənistan Azərbaycan ərazisində on min nəfərdən çox qeyri-qanuni silahlı birləşmə saxlamışdı.

Bu ölkə, həmçinin Laçın yolundan Azərbaycanın suveren ərazisində separatizmi alovlandırmaq üçün istifadə edib. 2023-cü ilin sentyabrında qanunsuz erməni silahlı birləşmələrinin çoxsaylı hərbi təxribatlarına və təxribat xarakterli əməllərinə cavab olaraq, Azərbaycan Silahlı Qüvvələri lokal xarakterli antiterror tədbirləri həyata keçirib. Antiterror tədbirləri zamanı humanitar hüququn normalarına tam uyğun olaraq mülki şəxslərə və mülki infrastruktura zərər vurmamaq üçün bütün işlər görülüb", - deyə bəyanatda qeyd edilib.

Bəyanatda qondarma rejimin ləğvi, qeyri-qanuni silahlı birləşmələrin tərk-silah edilməsi, yerli erməni sakinlərin reinteqrasiyası prosesi, bunun üçün xüsusi portalın yaradılması, dialoq üçün əlverişli mühitin yaradılması, Azərbaycanın Ermənistanla normallaşma planı barədə də məlumat verilib.

Diqqətə çatdırılıb ki, BMT-nin Azərbaycanın Qarabağ bölgəsi, xüsusilə də Xankəndi şəhəri üzrə missiyasının hesabatında mülki ictimai infrastruktura, eləcə də mədəni və dini məkanlara heç bir ziyanın dəymədiyi, Azərbaycanın Xankəndidə səhiyyə xidmətlərinin və bəzi kommunal xidmətlərin bərpasına hazırlaşdığı, mülki şəxslərə qarşı zorakılığa yol verilmədiyi bildirilib.

Eyni zamanda qeyd olunub ki, Azərbaycan və Ermənistan üçün mehriban qonşuluq münasibətləri qurmaq və iki suveren dövlət kimi sülh şəraitində birgə yaşamaq üçün tarixi imkan var.

# Qlobal dialoqların Şuşa zirvəsi

## Beynəlxalq tədbirlərin baş ünvanına çevrilən mədəniyyət paytaxtımız 2026-cı ildə İƏT-in turizm paytaxtı olacaq




**"Şuşa rəsmi olaraq Azərbaycanın mədəniyyət paytaxtıdır, eyni zamanda Şuşa bizim qələbəmizin rəmzidir, sülhün rəmzidir...**

...Şuşada artıq bir neçə beynəlxalq tədbir keçirilibdir. Bu şəhərdə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, bir neçə beynəlxalq idman tədbiri keçirilib və nəhayət, bu gün Qlobal Media Forumu keçirilir. Yəni bu şəhər öz kimliyini qoruya bilmişdir".

2023-cü il iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimi zamanı çıxışında Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Qarabağın baş tacı Şuşa artıq musiqi, şeir bayramlarının, mötəbər tədbirlərin, qlobal konfransların keçirildiyi, mühüm bəyannamələrin imzalandığı baş ünvana çevrilib.

Elə Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) sədrliyi çərçivəsində oktyabrın 10-da Xarici İşlər Nazirləri Şurasının 27-ci iclasının Vətən qibləmiz Şuşada keçirilməsi də, üç əsrə yaxın tarixi olan qədim şəhərimizin müasir çağırışlar, qlobal dialoqlar məkanı olduğunun bariz göstəricisidir.

### Şuşanın qürurlu çağı

Prezident İlham Əliyevin şəxsi nəzarəti altında sürətli quruculuq və bərpa işləri aparılaraq Böyük qayıdışa möhtəşəm hazırlıq görülən Zəfər qalamız Şuşada kompleks işlər həyata keçirilir. "Şuşa hər birimizi özünə çəkir" deyərək, hər dəfəsində mədəniyyət paytaxtımıza böyük sevgi və məhəbbətlə gələn İlham Əliyev tarixi şəhərimizdə görülən işlərlə şəxsən tanış olur.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən Qarabağın büllur qəsrində mədəni həyatın, ənənələrin də axarına düşməsi üçün mühüm layihələr gerçəkləşdirilir. Fond tərəfindən qədim şəhərimizin tarixi, dini, mədəni abidələrinin müvəffəqiyyətlə bərpa edilməsi, illərdən sonra burada yenidən "Xarıbülbül" Musiqi Festivalının, "Vaqif Poeziya Günləri"nin təşkil olunması da bir daha göstərir ki, şuşa həm də tarixi şan-şöhrətini, ruhunu özünə qaytarıb.

271 illik əzəmətli tarixə malik Şuşa getdikcə təkcə Azərbaycanın deyil, Qafqazın, böyük türk və islam aləminin, ümumilikdə dünyanın mədəni və diplomatik mərkəzinə, sivilizasiyalararası dialoqların keçirildiyi məkana çevrilir.

Təsadüfi deyil ki, azadlığının üzərindən ötən üç ilə yaxın qısa dövr ərzində mədəniyyət paytaxtımızda xeyli mühüm beynəlxalq tədbir, festival, forum və konfranslar keçirilib.

Şuşanın tarixindəki ən əlamətdar hadisələrdən biri 2021-ci il iyunun 15-də - Milli Qurtuluş Günündə Prezident İlham Əliyevlə qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalamaları olub.

2022-ci ili isə Azərbaycan xalqı başdan-başa "Şuşa ili"nin coşqusunda keçirib. Ötən il Dünya Azərbaycanlılarının V Qurultayının Vətən qibləmiz Şuşada baş tutmasının özünün xüsusi rəmzi mənası var idi.

Azərbaycanın mədəniyyət paytaxtı həm də Qafqazın diplomatiya mərkəzi olaraq bilinir. Ötən il "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" adlı beynəlxalq forumun Şuşada təşkil olunması buna əyani nümunə idi. Həmiçinin 2022-ci ildə Bakıda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏT PA) Üçüncü Ümumi Konfransında iştirak edən dövlətlərin parlament nümayəndə heyətlərinin, eləcə də Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransında iştirak edən nümayəndə heyətlərinin Şuşaya səfər etmələri qədim şəhərimizin qlobal əməkdaşlıq platformasına çevrilməsini təntənəli nümayiş etdirdi.

2022-ci ildə Şuşada keçirilən tədbirlərdən biri isə Qoşulmama Hərəkatının (QH) Gənclər Sammitinin Şuşa sessiyası oldu.

### Türk dünyasının qüruru

Bu il Şuşa bütün türk dünyasının qürur ünvanı olaraq "Türk Dünyasının Mədəniyyət Paytaxtı" kimi şərəfli missiyanı yerinə yetirir.

2023-cü il mayın 12-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və TÜRKSOY-un birgə təşkilatçılığı ilə "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı - 2023" ilinin rəsmi açılış mərasimi keçirildi.

Eyni zamanda ənənəvi olaraq Zəfər qalamızda xeyli beynəlxalq mötəbər tədbirlər həyata keçirilir.

Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfrans da bu qəbildən idi. Sözügedən konfransın Şuşada keçirilməsi erməni vandalizminin izlərinin və Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma işlərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması baxımından əhəmiyyətli idi.

Çoxsaylı beynəlxalq tədbirin keçirildiyi Şuşa şəhəri iyulun 21-də müstəqil Azərbaycanın tarixində ilk dəfə dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, media, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya topladı.

Prezident İlham Əliyevin tapşırığına əsasən, "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı iyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumu keçirildi.

Prezident İlham Əliyev forumda çıxışı zamanı vurğuladı ki, Şuşa Qlobal Media Forumu ölkəmiz üçün və əlbəttə, Qarabağ bölgəsi üçün çox möhtəşəm bir tədbirdir.

### Bölgədə sülh təşəbbüslərinin müəllifi

Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) sədrliyi çərçivəsində oktyabrın 10-da Şuşa şəhərində Xarici İşlər Nazirləri Şurasının 27-ci iclası keçirildi.

Şuşada keçirilən iclasın iştirakçılarına ünvanladığı müraciətində dövlət başçısı İlham Əliyev bildirdi ki, Azərbaycan İƏT-in fəal üzvüdür və təşkilata üzv olan dövlətlərlə münasibətlərinə xüsusi əhəmiyyət verir.

Müraciətində iclas iştirakçılarının olduqca əlamətdar və tarixi dövrdə Azərbaycana gəldiklərini vurğulayan Prezident onu da diqqətə çatdırdı ki, xalqımız ölkəmizin suverenliyini, konstitusiya quruluşunu bərpa etməsinin sevincini, qürurunu yaşayır: "Hazırda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, sülh müqaviləsinin imzalanması və Cənubi Qafqaz bölgəsinin sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün tarixi şərait yaranmışdır".

Elə bu beynəlxalq tədbirin Şuşada keçirilməsi də göstərdi ki, artıq mədəniyyət paytaxtımız Cənubi Qafqazda sabitliyə, sülhə, rifaha, tərəqqiyə çağırışlar edilən unikal məkandır.

### İslam dünyasının mədəniyyət paytaxtı

Qarabağın mirvarisi hər ötən gün yeni-yeni şərəfli titullara sahib olur ki, bunlardan biri də Şuşa şəhərinin 2024-cü il üzrə "İslam dünyasının mədəniyyət paytaxtı" adına layiq görülməsidir.

Onu da bildirək ki, 2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatında Azərbaycanın sədrliyi çərçivəsində oktyabrın 4-5-də İran İslam Respublikasının Ərdəbil şəhərində təşkilata üzv dövlətlərin yüksəksəviyyəli turizm ekspertlərinin 7-ci görüşü və turizm nazirlərinin 5-ci iclası keçirilib. İclasda səsvermə nəticəsində Şuşa şəhəri İƏT-in 2026-cı il üçün turizm paytaxtı seçilib.

Gətirdiyimiz bu nümunələrdən də göründüyü kimi, parlaq Şuşa Zəfəri sayəsində hər günümüz, ayımız, ilimiz Şuşa qələbəsinin təntənəsi, coşqusu, qüruru ilə keçir.

Qəhrəman Azərbaycan oğullarının açdığı Zəfər yolu ilə Qarabağın ürəyinə səfərə gələn xarici ölkələrin vətəndaşları, ümumiyyətlə, beynəlxalq ictimaiyyətin nümayəndələri də Şuşanın, Qarabağın timsalında görürlər ki, Azərbaycan xalqının necə maddi-mədəni zənginlikləri var. Əcnəbi qonaqlarımız bu füsunkar təbiətli diyarın fonunda heyranlıqla seyr edirlər ki, Azərbaycan necə möhtəşəm milli dəyərlərə, ənənələrə, tolerantlığa, sülh ab-havasına malik ölkədir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Şuşanın daha bir önəmli tədbirə evsahibliyi

## İƏT-in mühüm toplantısının mədəniyyət paytaxtımızda keçirilməsinin simvolik əhəmiyyəti var

**Oktyabrın 10-da Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) sədrliyi çərçivəsində Şuşada Xarici İşlər Nazirləri Şurasının 27-ci iclası keçirilib.**



İşğaldan azad olunduqdan dərhal sonra beynəlxalq tədbirlərə evsahibliyi etməyə başlayan Şuşa bu fəaliyyətini uğurla davam etdirir. Bu gün dünyanı narahat edən qlobal məsələlərin Şuşada müzakirə olunması Azərbaycanın artan nüfuzundan xəbər verir. Xarici İşlər Nazirləri Şurasının Şuşada keçirilən görüşü ciddi beynəlxalq və regional əhəmiyyət kəsb edir.

Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya sənədini imzalamasından sonra işğaldan azad edilən ərazilərimiz, o cümlədən Şuşa yeni inkişaf dövrünü yaşayır. Mədəniyyətimizin beşiyi Şuşada və işğaldan azad olunmuş digər ərazilərdə qısa zamanda yenidənqurma və bərpa işləri geniş vüsət alıb, bu yerlərə yeni nəfəs gəlib. Artıq bu ərazilərdə "boz zona"lar aradan qaldırılıb, təhlükəsizlik təmin olunub. Qarabağda yaşayış məntəqələri bərpa edilir, yeni yollar çəkilir, hava limanları istifadəyə verilir. 2022-2026-cı illərdə həyata keçirilməsi nəzərdə tutulan Böyük qayıdışa dair dövlət proqramı uğurla icra olunur. Keçmiş məcburi köçkünlər müasir şərait yaradılmış doğma yurdlarına qayıtmağa başlayırlar.

Deputat bildirib ki, qürur doğuran faktdır ki, işğaldan azad olunmuş şəhərlər həm də beynəlxalq tədbirlərə evsahibliyi edir. Şuşa bu mənada xüsusilə fərqlənir və mütəmadi olaraq beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi və qlobal əhəmiyyətli qərarların qəbul edildiyi ünvana çevrilib. Şuşa şəhəri həm də türk və islam dünyasının mədəniyyət simvoludur. Belə ki, 2022-ci il Azərbaycanda "Şuşa ili" kimi qeyd olunub. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı isə bu şəhəri 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı elan edib. Daha sonra Doha şəhərində keçirilən İslam dünyası Mədəniyyət Nazirlərinin 12-ci konfransında Şuşanı 2024-cü ildə islam dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə bağlı qərar qəbul olunub. Həm də oktyabrın 4-5-də İranın Ərdəbil şəhərində Azərbaycanın sədrliyi ilə keçirilən İƏT-na üzv dövlətlərinin yüksəksəviyyəli turizm ekspertlərinin 7-ci görüşü və turizm nazirlərinin 5-ci iclasında Şuşa şəhəri İƏT-nin 2026-cı il üçün turizm paytaxı seçilib. Göründüyü kimi, Şuşa beynəlxalq əhəmiyyət kəsb edən şəhərə çevrilib. İƏT-nin Nazirlər Şurasının 27-ci iclasının məhz Şuşada keçirilməsi də bu şəhərin dünyanın diqqət mərkəzində olmasından xəbər verir.

Azər Badamov bildirib ki, Azərbaycan 1992-ci ildən etibarən İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü və fəal iştirakçısıdır. Şuşada keçirilən görüşün mövzusunun "Yaşıl keçid və qarşılıqlı bağlantılar" olması da hazırkı dövrdə xüsusi aktuallıq kəsb edir. Çünki Azərbaycan dövləti işğaldan azad edilmiş əraziləri "yaşıl zona" elan edib, bərpaolunan enerji sahəsinin bu ərazilərdə inkişaf etdirilməsi prioritet seçilib.

"Bu gün dünyanı narahat edən ən vacib məsələlərdən birinin də iqlim dəyişikliklərini sürətləndirən atmosferin dekorbonlaşdırması proseslərinin genişləndirilməsi ilə bağlıdır. Ölkəmiz bu istiqamətdə də artıq fəaliyyətə başlayıb. Şuşa şəhərində məhz bu mövzu üzrə müzakirələrin aparılması İƏT-ə üzv olan dövlətlərin xarici işlər idarələrinin rəhbərləri üçün də çox maraqlı olub. İclasda regional və qlobal əhəmiyyət daşıyan digər məsələlər ətrafında da müzakirələr aparılıb. Ümumiyyətlə, Şuşada keçirilən bu görüş böyük beynəlxalq əhəmiyyət daşıyır", - deyə deputat vurğulayıb.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Füzuli şəhəri geri qayıdan sakinləri ilə birlikdə sevincli günlərini keçirir




Gəlişləri ilə dönüşləri arasında otuz il var. Füzuli Ermənistan silahlı qüvvələri tərəfindən işğal ediləndə 1993-cü il idi. Həmin dövr ermənilərin Azərbaycan torpaqlarını zəbt etmək niyyəti ilə başladıqları Birinci Qarabağ müharibəsi davam edirdi.

O vaxtlar qəsbkar, amansız, qəddar düşmənin silahlı hücumlarından, zülmlərindən baş götürüb dədə-baba yurdlarından, isti ocaqlarından qaçmaq məcburiyyətundə qalan azərbaycanlıların heç biri ayrılığın bu qədər uzun çəkəcəyini düşünmürdü...

Qatil ermənilərin törətdikləri qırğınlar, təxribatlar davam edirdi. Azərbaycan dövlətinin, xalqının məqsədi isə öz əzəli torpaqlarını Ermənistan silahlı qüvvələrinin işğalından sülh yolu ilə azad etmək idi. Ancaq Ermənistan münaqişəni alovlandırmaqda maraqlı olduğunu, sülh istəmədiyini ərazilərimizdə təxribatlar, terrorlar törətməklə açıq-aydın göstərirdi. Rəsmi İrəvan bir tərəfdən də Azərbaycanın qədim şəhərlərindən olan Xankəndidə kök salmış kriminal xunta rejimini yaratmaqla və ona arxa durmaqla vəziyyəti mürəkkəbləşdirirdi. 2020-ci ilin payızına qədər belə keçdi. Həmin ilin 27 sentyabrında Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı ilə başlayan İkinci Qarabağ müharibəsində haqq, ədalət qalib gəldi. Azərbaycan Ordusu 44 gün ərzində on illərdir davam edən erməni işğalına son qoyaraq Qarabağ və Şərqi Zəngəzur ərazilərimizi azadlığa qovuşdurdu.

Böyük zəfərdən dərhal sonra işğaldan qurtulmuş ərazilərimizdə geniş və sürətli tikinti, quruculuq işlərinə başlanıldı. 2020-ci il noyabrın 16-da Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli və Cəbrayıl rayonlarında "Zəfər yolu" kimi tanınan Füzuli-Şuşa avtomobil yolunun təməlqoyma mərasimində iştirak etdilər. Səfərdən dərhal sonra Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi layihəsinə start verildi. Dövlət başçısı İlham Əliyev 2021-ci ilin 15 yanvarında Şuşa və Füzuliyə səfəri zamanı Füzuli-Şuşa avtomobil yolunun və Füzuli Beynəlxalq Hava Limanının layihələrinin icrasına başlanıldı. Hava limanında ilk uçuş sınaqları 2021-ci ilin 22 avqustunda reallaşdı.



Zəfər nəticəsində keçmiş məcburi köçkünlərin otuzillik yurd həsrətlərinin bitməsinə, onların doğma yurdlarına təhlükəsiz şəkildə qayıtmasına imkan yarandı. Bütün zəruri tədbirlərin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Böyük qayıdış proqramının icrasına başlanıldı.

Füzuli şəhərinə ilk köç 2023-cü il avqustun 8-də yola salındı. O zaman 90 nəfərdən ibarət 25 ailə öz dədə-baba yurduna döndü. Füzuli şəhərinə ailələrin köçürülməsi davam edir. Böyük qayıdış proqramı çərçivəsində oktyabrın 10-u səhər saatlarında növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Füzuliyə çatdı. Dünən, oktyabrın 11-də isə eyni məkandan - Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən növbəti köç karvanı yola salındı. Bu mərhələdə Füzuli şəhərinə daha 22 ailə - 59 nəfər köçürüldü.

Onlar Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən qarşılandı.

Beləliklə, daha 22 ailə olmaqla 59 nəfər Füzuli sakini də yurduna qovuşdu. Bununla da Füzuli şəhərində 187 ailənin, yəni 661 nəfərin daimi məskunlaşması təmin edildi.

Qarabağın, Şərqi Zəngəzurun yenidən qurulan yaşayış məskənlərinə keçmiş məcburi köçkünlərin qayıdışı bundan sonra da davam edəcək. Prezident İlham Əliyev oktyabrın 10-da Şuşada keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasının iştirakçılarına ünvanladığı müraciətdə bildirdi ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış proqramı milli prioritetlərimiz sırasındadır: "Uğurla icra edilən proqram çərçivəsində bu günə qədər Laçın, Füzuli şəhərlərinə, Ağalı, Zabux və Talış kəndlərinə köçkünlərin qayıtması təmin olunub. Növbəti 3 ildə 100 minə qədər köçkünün doğma yurd-yuvalarına dönməsi planlaşdırılır. Həyata keçirilən layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına xidmət etməklə, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün əlverişli şərait yaradır".

Füzuli şəhərində artıq inşası başa çatmış məktəbə və tikilməkdə olan yaradıcılıq mərkəzinə görə qardaş Özbəkistana və Qazaxıstana təşəkkür edən dövlət başçısı bunu ölkələrimiz arasında qardaşlığın, həmrəyliyin və dostluğun növbəti bariz təzahürü kimi qiymətləndirdi.

Böyük qayıdış proqramı çərçivəsində həyata keçirilən işlər nəticəsində Qarabağın, Şərqi Zəngəzurun yaşayış məskənləri canlanır. Qədim yurd yerlərimiz əvvəlki çağlarına qayıdır. Azadlığına qovuşduqdan sonra yenidən qurulan bütün yurdlarımız kimi abadlaşan və daha da gözəlləşən Füzuli şəhəri də geri qayıdan sakinləri ilə birlikdə sevincli günlərinə qədəm qoyur.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Növbədə insan qatilləri Köçəryan və Sarkisyandır...

## Xalqımıza qarşı cinayətdə əli olan hər kəs layiq olduğu cəzanı alacaq

Üç il əvvəl, bu günlər Azərbaycan əsgəri qanı ilə xalqımızın yeni şərəf salnaməsini yazırdı. Hər gün sabahımızı 30 il düşmən işğalı altında qalan torpaqlarımızın azad olunması xəbərləri ilə açırdıq...

Ordumuzun irəliləməsi nəticəsində zəifləyən, küncə sıxışdırılan məkrli düşmənin fitnə-fəsadı daha da artırdı. Əhali arasında çaşqınlıq yaratmaq üçün cəbhə xəttindən yüz kilometrlərlə uzaq şəhərlərimizi hədəf alan ermənilər müharibə və beynəlxalq qanunlara zidd olaraq dinc əhalinin yaşadığı binaları raket atəşinə tuturdular. Oktyabrın 11-də gecə saatlarında Gəncə şəhərinə dördüncü dəfə raket zərbəsi endirildi. Raket hücumu zamanı şəhərin 10 günahsız sakini şəhid oldu, 40-dan çox insan yaralandı. Bundan bir neçə gün əvvəl 4 oktyabrda Gəncəyə raket zərbəsi endirilən zaman Qarabağ separatçılarının lideri Araik Harutyunyan özünün "X" hesabında Gəncəyə onun əmri ilə raket zərbəsi endirildiyi barədə fərxlə yazırdı: "Sizin çoxunuz hər iki fotonu və mənim bəyanatımı xatırlayırsınız. Bildirirəm ki, biz zarafat etmirdik. Bu gün əmr verdim ki, Gəncədə hərbi obyektlər neytrallaşdırılsın". Xatırladaq ki, raket zərbəsi endirilən ərazi hərbi obyektlərdən uzaq mülki əhalinin sıx yaşadığı bir yer idi... Artıq düşmən növbəti fitnəkarlığını etmişdi...

Xalqımızın böyük öğlu Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, dövlət iki şeydən sarsıla bilər: "Cinayətkar cəzasız qalanda və günahsıza cəza veriləndə..." Ata vəsiyyətini şərəflə və qətiyyətlə yerinə yetirən Müzəffər Ali Baş Komandan işğal altında olan bütün torpaqları ordusu ilə azad etdiyi kimi, əli xalqımızın qanına bulaşmış cinayətkarların cəzadan kənar qalmamaları, ədalət məhkəməsi qarşısına çıxarılmaları üçün qətiyyət və prinsipiallıq nümunəsi göstərir. Artıq regionda separatizmi təbliğ və təşviq edən, qanunsuz silahlı dəstələr yaradaraq onlara rəhbərlik edib kütləvi qətliamlar törədən, özünü separatçı rejimin "xarici işlər naziri", "prezidentinin dövlət müşaviri" adlandıran David Babayan, Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu, qondarma "Dağlıq Qarabağın Müdafiə Ordusu Komandanının birinci müavini" olan Davit Manukyan, Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu, general-leytenant "Dağlıq Qarabağın müdafiə naziri" postunu tutan Lyova Mnatsakanyan, özünü "Dağlıq Qarabağın dövlət naziri" adlandırıb terrorçuları maliyyələşdirən, qanunsuz silahlı dəstə yaradıb separatizmi təbliğ edən Ruben Vardanyan, özünü qondarma separatçı rejimin "prezidenti" adlandıran Araik Harutyunyan və Meşəlidə, Xocalıda qətliamlar törədən Vaqif Xaçaturyan həbs edilərək Bakıya gətirilib. İndi onlar əməllərinə görə cavab verəcəklər.

Ermənistan indi də Azərbaycana qarşı təcavüzdə, terror əməllərində, əsirlikdə olan hərbi qulluqçulara və mülki şəxslərə qarşı insanlıq əleyhinə ağır cinayətlər törətmiş bu şəxslərin həbs olunaraq Bakıya gətirilməsindən şou düzəldərək ölkəmiz əleyhinə məkrli təbliğat aparmağa çalışır. Amma yalan ayaq tutar yeriməz. Bəri başdan qeyd edək ki, Ermənistanın start verdiyi bu uğursuz kampaniya da iflasa məhkumdur. Beynəlxalq Ədalət Məhkəməsində düçar olduğu uğursuzluqlara baxmayaraq, bu dövlət yenə də əsassız olaraq beynəlxalq hüququn norma və prinsiplərinə zidd şəkildə məhkəmə qarşısında iddialar irəli sürür, məqsədli şəkildə sülh və normallaşma prosesində maraqlı olmadığını nümayiş etdirir.



Ermənistan beynəlxalq təşkilatları, dünya ictimaiyyətini çaşdırmaq məqsədi ilə müharibə cinayətləri törətməkdə ittiham olunan separatçıları siyasi məhbus adlandırır. Hansı ki, indi hərbi cinayətlərdə adları keçən həmin separatçıların özləri müxtəlif zamanlarda mətbuatda çıxış edərək "qürurla" azərbaycanlı girov və məhbusları necə qul kimi işlətdiklərini, onlara qarşı necə amansızlıqla zorakılıq etdiklərini danışıblar. Ermənistanda və digər Avropa dövlətlərində oturub Azərbaycan əleyhinə saxta ittiham yağdıranlar unutmasınlar ki, bu hadisələr çox da uzaq tarixdə baş verməyib. Onların zülmünü görüb zərərçəkmiş şahidlər var... Həm də həbs olunanlar səhvlərini anlayıb törətdikləri cinayətləri etiraf edirlər.

Azərbaycan əsir götürülmüş hərbi qulluqçulara qarşı hər zaman ləyaqətlə davranıb. İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsi zamanı Ermənistan əsir götürdüyü Azərbaycan əsgərlərinə, mülki vətəndaşlara qarşı xüsusi amansızlıqla davranıb. Bunu təsdiqləyən istənilən qədər fakt, videomaterilal, insanların bədənində işgəncələr, zülmün nişanələri var. Bundan başqa, Ermənistan tərəfi əsir götürdükləri insanların ləyaqətini alçaldaraq məhkəməsiz, qanunsuz cəzalandırdıqları barədə özlərinin çəkib yaydıqları videogörüntülər var...

Dumanlı hava şəraitində yolunu azaraq Ermənistana keçən iki əsgərimizin başına gətirilən oyunları xatırlayanda belə, insan dəhşətə gəlir. Ermənistan hakimiyyəti bu şəxslərə qarşı amansızlıq edənlərə nəinki cəza verdi, hüquqi ölçü götürdü, əksinə, həmin əsirləri saxta ittihamlarla mühakimə edib 12 il müddətinə azadlıqdan məhrum etdi. Bu gün beynəlxalq hüquqdan, humanizmdən danışan Ermənistan 4000 nəfərə yaxın əsir, itkin və girov götürdüyü soydaşlarımızın taleyi, öldürülübsə yeri haqqında məlumat verməkdən yayınır.

Bunun əksi olaraq Azərbaycan əsir götürülmüş, saxlanılmış hərbi qulluqçulara, eləcə də hazırda həbsdə olan separatçı rejimin başçılarına qarşı hər zaman ləyaqətlə davranıb. Onların saxlanma şəraiti, yerləri barədə həm ailə üzvlərinə, həm də beynəlxalq təşkilatlara məlumat verilir. Vəkillə təmin ediliblər. Vaxtaşırı həkim müayinəsindən keçirilib müalicə olunurlar .

Əlbəttə ki, iki xalq arasında düşmənçilik toxumu səpən, qanlı müharibələrə səbəb olan separatçılar və onlara rəhbərlik edənlər cəzasız qalmayacaqlar. Müvəqqəti olaraq hələ ki ədalətdən yayına bilən Robert Köçəryanın, Serj Sarkisyanın da həbs olunaraq Azərbaycanda ədalət məhkəməsi qarşısına çıxarılacaqları gün gəlib çatacaq. Onlar da, bu münaqişəni yaradıb bundan şəxsi mənfəətləri üçün bəhrələnən digər cinayətkarlar da düşünməsinlər ki, cəzasızlıqları əbədi olacaq. Çox çəkməz ki, "Gəncənin bombalanmaq əmrini mən vermişəm" deyən Araik Harutyunyan və digərləri kimi ədalət məhkəməsi qarşısında cavab verib etdiyi əməllərin cəzasını çəkəcəklər.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

# Fransada böhran

## Öz sadə problemlərini həll edə bilməyən bu ölkənin hakimiyyət orqanları başqalarının işinə burun soxurlar

Fransada ictimai nəqliyyat, xəstəxanalar, kitabxanalar, təhsil müəssisələri, polis məntəqələri və digər yerləri yataq bitləri basıb. Həşəratların işğalı mövzusu son günlər Fransa mediasının səhifələrini tərk etmir.





Ölkənin hakimiyyət orqanları müxtəlif səviyyələrdə toplantılar çağırır, bitlərə qarşı mübarizə planları haqqında danışırlar.

Hələ yayda Parisin "Şarl de Qoll" hava limanının gözləmə zonasında həşəratların tapıldığı barədə məlumatlar yayılmışdı. Sonra onlara təkcə sakinlərin evlərində deyil, xəstəxanalarda, kinoteatrlarda, kitabxanalarda, həmçinin metro vaqonlarında, avtobuslarda və qatarlarda da rast gəlinməyə başlandı. KİV-in məlumatına görə, yay aylarında Fransada zərərvericilərə qarşı mübarizə üçün müraciətlərin sayı keçən illə müqayisədə 65 faiz artıb.

Fransanın ictimai nəqliyyatında bütün oturacaqlar həşəratların özlərini əla hiss etdiyi yumşaq tekstil üzlükdən hazırlanır. Böhran ötən həftə kulminasiya nöqtəsinə çatıb, o zaman istifadəçilər sosial şəbəkələrdə metroda aşkar edilən sürünən canlıların videolarını aktiv şəkildə yayımlamağa başlayıblar. İndi əksər sərnişinlər çox da geniş olmayan vaqonlarda ayaqüstə dayanmağa üstünlük verirlər.



Fransa Səhiyyə Nazirliyinin rəhbəri Orellan Russo vətəndaşları paytaxtın bitlər tərəfindən zəbt edilməsi ilə bağlı təşviş yaratmamağa çağırıb. Bir neçə aydan sonra Paris Olimpiya Oyunlarına evsahibliyi edəcək və bu cür "reklam" ölkənin imicinə ciddi ziyan vura bilər.

Parlament artıq həşəratlarla mübarizə ilə bağlı qanun layihəsi hazırlamağa söz verib və nəqliyyat naziri Kleman Bon nəqliyyatda "böyük təmizlik işləri" aparacağını vəd edib. Axı, Olimpiada zamanı logistikaya görə məhz o məsuliyyət daşıyacaq.

Fransada bu problem yeni deyil, dişləyən parazitlərin fransızların həyatına daxil olması tendensiyası uzun illər Qida Təhlükəsizliyi, Ətraf Mühit və İş Sağlamlığı üzrə Milli Agentlik tərəfindən izlənilir (Anses). Məlumata görə, ölkədə hər onuncu ailədə çağırılmamış "sakinlər" var.

Son məlumata görə, Fransada beş məktəb bitlərin yayılması səbəbindən bağlanıb. Bu barədə Təhsil Nazirliyi məlumat yayıb. Söhbət Marseldə, eləcə də Vokluz, Rone, Vosges və Saone-et-Luara kommunalarında təhsil müəssisələrindən gedir. Bu günlərdə daha iki məktəb Strasburqda bağlanıb. Digər məktəblərdə, o cümlədən Parisin 12-ci rayonundakı liseydə də bitlərin olması aşkar edilib. Oktyabrın 21-də başlayacaq məktəb tətilləri zamanı binaların dezinfeksiya edilməsi planlaşdırılır.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Paşinyan nazirlərinə etibar etmir

## Hayastan yeni siyasi xaosa sürüklənir

Hayastanda anti-Rusiya siyasəti ətrafında başlanan məlum böhran fonunda hadisələrin daha gərgin məcrada inkişaf edəcəyinə dair verilən proqnozlar özünü doğrultmağa başlayır. Belə məlum olur ki, bu ölkə daxilində qarşıdakı dövr ərzində kifayət qədər ciddi nəticələrə gətirib çıxaracaq ziddiyyətlər meydana çıxacaq.



Nikol Paşinyan yaxın vaxtlarda vəzifəsini tərk edəcək nazirlərin yerinə namizədlər axtarmağa başlayıb. "Joğovurd" nəşrinin yazdığına görə, baş nazir İrəvan Qəyyumlar Şurasına seçkilərindən sonra mərkəzi icra hakimiyyətində təmizləmə işlərinə başlayacaq. Müəllif bildirib ki, bu müddət ərzində fəaliyyətsiz qalan nazirlər postları ilə vidalaşacaqlar: "Fəaliyyətsiz nazirlər arasında ədliyyə naziri Qriqor Minasyan, ətraf mühit naziri Hakop Simidyan, ərazi idarəetmə və infrastrukturlar naziri Qnel Sanosyan, həmçinin sosial məsələlər naziri Narek Mkrtçyan da var. Hakimiyyətə yaxın mənbələrimizdən əldə etdiyimiz məlumata görə, Nikol Paşinyan artıq bu nazirləri əvəz edəcək şəxslər axtarmağa başlayıb. Məlumata görə, Paşinyan, məsələn, Narek Mkrtçyanın yerinə "Vətəndaş müqaviləsi" fraksiyasının deputatı, maliyyə krediti və büdcə məsələləri daimi komissiyasının sədri Gevorq Papoyanı görür. Onu da qeyd edək ki, bununla bağlı yekun qərar verilməyib, müzakirələr gedir".

İrəvanda Paşinyan iqtidarına etiraz edən insanlar Hayastanda fəaliyyət göstərən diplomatik nümayəndəliklərin qarşısında aksiya keçirməyə başlayıblar. Etirazçılar Almaniya, Fransa və İtaliya səfirliklərinin qarşısına toplaşıblar. Aksiya iştirakçıları bildiriblər ki, əhali artıq Paşinyana və komandasına inanmır, çünki onlar xalqa verdikləri vədə əməl etmədilər. Qeyd edilib ki, Hayastan hazırda ən ağır günlərini yaşayır. Ölkədə məmur özbaşınalığı, rüşvətxorluq və işsizlik tüğyan edir. Orduda komandirlərə qarşı işgəncə halları artıb. Vətəndaşlar məhkəmə sistemindən və polis zorakılığından cana gəliblər. Sakinlər qeyd ediblər ki, qoy Avropa ölkələri Paşinyanın seçiciləri ilə necə davrandığının şahidi olsunlar. Bu səbəblərdən Hayastanda yeni baş nazirə ehtiyac var.

"4rd.am" saytı yazır ki, ölkədə populizm asan bir yol olduğu halda başqa bir yol axtarmağa ehtiyac qalmır: "Xalqı aldatmaq üçün ibtidai mexanizm işləyəndə niyə başqa yollar axtarılmalıdır? Bu cür düşüncə növü Hayastanda son zamanlar üstünlük təşkil etməkdədir". Saytın yazdığına görə, cəmiyyət artıq Paşinyan hökumətinin səriştəsizliyindən, onların parlamentdəki çoxluğundan bezib.

Erməni xalqı hərəkət və hərəkətsizliyi ilə dövlətin təhlükəsizliyini təhdid etdiyini belə, anlamayan Nikolun komandasının təkəbbürlü cəhalətindən cana gəlib: "Bu gün biz Hayastanda bu proseslərin aktiv mərhələsinin şahidi oluruq. Belə görünür ki, artıq Nikolun "küməsi" yatmaqdadır. Bu gün baş nazirin rəhbərlik etdiyi "Vətəndaş müqaviləsi" partiyasına qoşulmaq üçün müraciətlərin sayı kəskin şəkildə azalıb. Nikol Paşinyanın müvəqqəti fiqur olduğunu təkcə yerli ermənilər deyil, həm də Hayastanın hüdudlarından kənarda da insanlar başa düşməyə başlayıblar".

Bu arada yerli sosial araşdırma şirkətləri bildirir ki, Hayastanda hakimiyyət üçün ən böyük problem sosial sahələrdən qaynaqlanır. Bloqçu Manvel Laevonyan Hayastanda vətəndaşların vacib problemlərini araşdırıb. Rəyi soruşulanların 48 faizi işsizliyin Hayastanın başlıca problemi olduğunu söyləyib. Respondentlərin 40,5 faizi ölkədəki iqtisadi vəziyyətin düzəlməsinə üstünlük verib. Rəyi soruşulanların 26,8 faizi isə təqaüd və əməkhaqlarının az olmasından şikayət edib. Respondentlərin 26,1 faizi Qarabağ məsələsini Hayastanın vacib problemi sayır. Sorğuda iştirak edənlər emiqrasiya, korrupsiya və terroru da ölkənin başlıca problemləri sırasında görüblər.

Nəticələrdən aydın olur ki, ermənilər üçün sosial problemlər ön planda gəlir. Bundan istifadə etməyə çalışan keçmiş hərbi xunta təmsilçiləri Paşinyana qarşı fəaliyyətini daha da genişləndirirlər.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# III "Korkut Ata" Türk Dünyası Film Festivalı başa çatıb







Oktyabrın 11-də Heydər Əliyev Mərkəzində "Şuşa - Türk Dünyasının Mədəniyyət Paytaxtı 2023" ili çərçivəsində III "Korkut Ata" Türk Dünyası Film Festivalının bağlanış mərasimi olub.






AZƏRTAC xəbər verir ki, mərasimdə Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, rəsmi şəxslər, türk dünyasının tanınmış sənət adamları və digər qonaqlar iştirak ediblər.

Tədbirdən əvvəl Arzu Əliyeva Mərkəzdə milli geyimlər və Azərbaycanın klassik və müasir filmlərinin posterləri olan sərgi ilə tanış olub.

Sonra mərasimdə dörd gün davam edən festivala həsr olunan videoçarx nümayiş etdirilib.

TÜRKSOY-un baş katibi Sultan Raev çıxış edərək festival barədə təəssüratlarını bölüşüb. O, III "Korkut Ata" Türk Dünyası Film Festivalının türk dünyası filmlərini tanıtmaq üçün böyük bir fürsət olduğunu bildirib: "Bu festivala gələcəkdə də dəstək olmağa davam edəcəyik".

Sultan Raev çıxışının sonunda TÜRKSOY-un xüsusi mükafatını Xalq artisti Fəxrəddin Manafova təqdim edib.

Münsiflər heyətinin sədri, Xalq artisti Vaqif Mustafayev festivalın əhəmiyyətindən bəhs edib.

Daha sonra sənədli və bədii filmlər müsabiqəsi üzrə münsiflər heyəti qonaqlara təqdim olunub.

Türk dünyası kinematoqrafiyasına verdiyi töhfələrə görə Hocaqulu Narlıyev, Mayagözəl Aymedova, Çarlıyar Seyidli (hər üçü Türkmənistan), Serdar Gökhan, Metin Günay (hər ikisi Türkiyə), Həmidə Ömərova, Oqtay Mirqasımov, Orman Əliyev, Ağasi Məmmədli (hamısı Azərbaycan), Firdavs Abduxalikov (Özbəkistan) və Azamat Satıbaldı (Qazaxıstan) fəxri mükafatlarla təltif olunublar.

"Jambıl" filminə görə qazaxıstanlı rejissor Dosjan Janbotaev, "Hep 33 yaşında" filminə görə türkiyəli rejissor Murat Pay jürinin xüsusi mükafatına layiq görülüb.

"Ən yaxşı aktyor" nominasiyası üzrə mükafatı Ahmet Amandurdiyev ("Qızıl alma", Türkmənistan), "Ən yaxşı aktrisa" nominasiyası üzrə mükafatı isə Təhminə Rafaella ("Məryəm", Azərbaycan) qazanıb.

"Ən yaxşı ssenari" mükafatına "Abdulla Oripov" (Özbəkistan) filmi layiq görülüb.

"Ən yaxşı rejissor" nominasiyasında Zhuraeva Asel Talibzhanova ("Tanrıverdi", Qırğızıstan) qalib olub.

"Ən yaxşı sənədli film" nominasiyasında 3-cü mükafat "Mənim dairəm" (Özbəkistan), 2-ci mükafat "Arqau" (Qazaxıstan), 1-ci və əsas mükafata isə "Sonuncu" (Azərbaycan) filmləri layiq görülüb.

"Ən yaxşı bədii film" nominasiyasında "Yıldız tozu" (Türkiyə, rejissor Ahmet Sönmez) filmi qalib olub. Mükafat Bakı Media Mərkəzinin rəhbəri Arzu xanım Əliyeva tərəfindən təqdim edilib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli növbəti "Korkut Ata" festivalının Türkmənistanın Anev şəhərinə ötürülməsini və orada keçiriləcəyini simvolizə edən "Durna quşu" mükafatını Türkmənistanın nümayəndəsinə təqdim edib.

Adil Kərimli çıxışında III "Korkut Ata" Türk Dünyası Film Festivalının əhəmiyyətini yüksək qiymətləndirərək əməyi keçənlərə təşəkkürünü bildirib.

Bədii hissədə "Dədə Qorqud" dastanının motivləri əsasında hazırlanmış ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Qeyd edək ki, festival Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY, Azərbaycan Respublikası Kino Agentliyi və Bakı Media Mərkəzinin təşkilatçılığı ilə oktyabrın 8-dən 11-dək paytaxtımızda keçirilib.

2021-ci ildən təşkil olunan festivalın birincisi Türkiyənin İstanbul şəhərində, ikincisi isə ötən il qardaş ölkənin Bursa şəhərində təşkil edilib.

Artıq üçüncü dəfə təşkil edilən festivala Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistanla yanaşı, Qaqauz Yeri (Moldova), Tatarıstan, Saxa-Yakutiya, Dağıstan (Noqay), Kabardin-Balkar, Çuvaşıstan, Qaraçay-Çərkəz, Tuva və Başqırdıstandan (Rusiya Federasiyası) 32 bədii, sənədli və animasiya filmi təqdim olunub.

Filmlər Nizami Kino Mərkəzində nümayiş etdirilib.

# Yurdu yaşadan cəngavərlər

**44** günlük Vətən müharibəsindən əvvəl savaş istəmirdim. Döyüşün qan qoxusunu oğullarımıza yaxın buraxmamaq hissindən yaxa qurtara bilmirdim. Anayam, axı! Analar müharibə istəmirlər. Analar övlad itkisinə dözə bilmirlər. Oğul yolu gözləməkdən bağrı çatlayan, ürəyi dayanan analar olub. Oğlu II Dünya müharibəsindən dönməyən 90-100 yaşlı ana var ki, hələ də qulağı səsdə, gözü yoldadır.



Müharibə istəməməyimin ikinci bir səbəbi də var idi. Bəzən söz düşəndə, yaxud müharibə haqqında soruşanda bir şübhəmi ortaya qoyurdum. Deyirdim ki, müharibə başlasa, döyüşə kasıb balaları gedəcək, varlı-imkanlı ailələrin övladları kənarda qalacaq, öz keflərində olacaqlar. Ölkədə çox adam belə düşünürdü. (Varlı-kasıb balaları arasında seçim aparanlara indi də ara-sıra rast gəlmək olur). Amma indi bunun səhv olduğunu etiraf edirəm. 44 günün savaşı göstərdi ki, Vətən həm də imkanlı ailələrdə böyüyən övladlar üçün əziz, doğma imiş. Savaş günlərində bunu sübut edən xeyli fakt sadalaya bilərəm.

Vətən millətin doğulduğu, doyduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik. Evini qorumayandan, ailəsinə biganə qalandan nə ölkə vətəndaşı, nə də "vətən daşı" olar. Vətən müharibəsi sübut etdi ki, böyük-kiçikliyindən, qadın-kişiliyindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı bu torpaq uğrunda can verməyə qadirdir və bunu özünə şərəf sayır.

Vasif və Rasif Alıyev qardaşları Vətən sevgisindən yoğrulan, Azərbaycan adını, torpaq andını uca tutan qardaşlardır. Torpağı Vətən edən bir millətin cəsur oğullarıdır. Vasif və Rasif qardaşları bu millətin demək olar ki, "şah damarı" hesab edilən işğal altındakı Qarabağ torpaqlarının azadlığı uğrunda 44 gün döyüşüblər. Düşmən Qarabağı işğal edəndə onlar körpə idilər. Hələ bu dünyada Qarabağ adında bir Vətən torpağının mövcudluğundan xəbərləri yox idi. Amma qanla keçən, ana südü ilə içilən Vətən sevgisi, torpaq eşqi onları şərəfli, məğrur, dönməz və cəsur etdi.

Gün gəldi ki, həmin şərəfin işığında əllərində silah düşmənə qarşı döyüşdülər, müharibənin ən qaynar nöqtələrində Vətəni qorudular. Analarının göz bəbəyi, atalarının ləyaqət ölçüsü olan bu Vətən oğullarının böyük ürəkləri, möhkəm, əyilməz biləkləri var. Mübarizlik ruhu 44 gündə döyüşdən-döyüşə atılan bu oğulların dəyanətinə, cəsarətinə yol açdı. Həmin günlərdə döyüş yolunun başlanğıcındakı ilk addımı böyük qardaş atdı - Azərbaycan Ordusunun hərbçisi, "N" saylı hərbi hissənin giziri Vasif Alıyev.

Müharibənin birinci günündən döyüşə Füzulidən başlayan Vasifin kiçik qardaşı Rasif dözmədi. Tovuz rayon hərbi komissarlığına onu döyüşə göndərmələri üçün müraciət etdi. "Hələ sənə ehtiyac yoxdur, lazım olarsa çağırarıq" deyən komissarlıq nümayəndəsinə verdiyi "qardaşım ordadı, mən də istəyirəm döyüşüm, onun yanında vuruşum" cavabını verib durdu. Günlərlə komissarlığın binasından aralanmadı, necə deyərlər, əməkdaşları sözün yaxşı mənasında "bezdirdi". Məqsədinə çatmaq üçün evlərinə də getmədi, komissarlığın həyətində səhərləri dirigözlü açdı ki, qardaşını tək qoymasın. Nəhayət, beş gündən sonra Rasiflə birlikdə bir qrup könüllü gənc müharibəyə yollandı. Qardaşlar yan-yana, çiyin-çiyinə döyüşməsələr də, bir-birinə yaxın olan məsafələrdən erməniyə qan uddurdular.

Heç kim ailəsini seçmir. Hərə bir ailədə dünyaya göz açır və onun sonrakı taleyi aldığı tərbiyəyə, təhsilə, ətrafına bağlıdır. Vasif-Rasif qardaşlarının ailəsi bu Vətənin, bu torpağın hər qarışını sevən, canını, qanını Vətənə qurban verməyə hazır olan övladlar tərbiyə edib. Həmin günlərdə bütövlükdə azərbaycanlı gənclər müharibəyə getmək üçün "yarışa" durmuşdular. Hərbi komissarlıqların qarşısında Rasif kimi gecələyən oğlanlar çox idi. Hər kəs düşməni diz çökdürməyin həzzini yaşamaq istəyirdi.

Rasif hələ Tovuz döyüşləri zamanı çox həyəcanlı, evə-eşiyə sığmayan düşüncələrlə gününü başa vururdu, döyüşə can atırdı. Məhz o günlərdə ürəyi ilə gözünün arasındakı məsafədə yuva quran Vətən sevgisi daha da böyüdü. Düşmənə nifrət hissi alovlandı. Vasifin də xidmət etdiyi hərbi hissədə ürəyi Tovuzda oldu, 4 gün davam edən döyüşün həyəcanını uzaqdan-uzağa damarları ilə axan qanında, canında hiss etdi. General Polad Həşimovun şəhid olmasından sonra hər iki qardaş möhkəm-möhkəm Vətən sevgisinə bürünüb qisas gününü gözləməyə başladılar.

Rasiflə Vasifin valideynləri bilirdilər ki, bir gün müharibə başlayacaq, bu xalq ayağa qalxıb torpaqlarını geri alacaq, qoyub gəldiyi yuvalarına dönəcək. Bilirdilər ki, savaş başlayan kimi oğlanları durmayacaq, birbaşa döyüşə yollanıb Qarabağ torpağını düşməndən təmizləyəcəklər. Doğulduqları kənd Qarabağdan yüzlərlə kilometr aralıda olsa da, ürəklərində Qarabağ sevdası gəzdirən qardaşlar həyatın ən ağır sınağı olan Vətən müharibəsindən alnıaçıq, başıdik çıxdılar. Vasif motoatıcı diviziyanın tərkibində döyüşürdü, Rasif isə tankçı kimi düşməni diz çökdürürdü.

Qardaşlar Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd, Şuşa rayonlarının düşməndən azad olunmasında şücaət göstəriblər. Qarabağdakı döyüş ab-havasını birlikdə udub, birlikdə nəfəs alan bu igid qardaşlar aldıqları orden-medeallarla fəxr edir, qürur duyurlar. Baxmayaraq ki, hər ikisinin evi, ailəsi ayrı-ayrı yerlərdədi, amma "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı" medeallarını bir yerdə eyni qutuda saxlayırlar. Sanki demək istəyirlər ki, yenə də birlikdə vətən keşiyində dayanıblar.

Müharibə imkanlı, imkansız tanımır. Avtomat gülləsi, top mərmisi, əl bombası, ən müasir silahlar prokuror oğlunu, ya da fəhlə, əkinçi oğlunu seçmir. Savaşdan sağ çıxmaq Allahın lütfüdü. Şəhid, ya da qazi olmaq isə bir başqa duyğudu. Çox şükür ki, Alıyev qardaşları savaşda ağır yaralanmadılar, od püskürən texnika, ən müasir silah onlardan yan keçdi. Yüngül yara ilə "kifayətlənən" Rasif xəsarət aldı. Qürur hissi, fəxr duyğusu ilə "yüklənərək" qalib ordunun qalib əsgəri kimi evə döndü, yolunu gözləyən ailəsinin həsrətinə son qoydu.

Zəfərdən sonra Vasif xidmət etdiyi hərbi hissəyə dönmədi, "N" saylı hərbi hissəsinin tərkibində 7 ay Qarabağ torpaqlarında xidmət etdi. Hazırda 22 ildi xidmət etdiyi hərbi hissədə vətənə qulluğunu davam etdirir. Rasif isə hələ də "döyüşür". Qarabağ və Şərqi Zəngəzurun bərpa-quruculuq işlərində əmək sərf edir, özü də sevə-sevə çalışır. 44 günlük savaşın qəhrəmanı indi də bərpa-quruculuq "müharibəsində" qəhrəmanlıq göstərir...

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# 12 oktyabr — ZƏFƏR gündəliyi — 2020-ci il

**Oktyabrın 11-dən 12-nə** keçən gecə bütün cəbhəboyu vəziyyət gərgin olub.

Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində bir neçə dəfə kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstəriblər.

Həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb. Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 9-cu alayının artilleriya rəisi tabeliyində olan bölmə ilə Hadrut yaşayış məntəqəsi istiqamətindən geri çəkilib, alayın 5-ci taborunun şəxsi heyəti isə təhkim olunmuş texnikanı döyüş mövqelərində qoyub qaçıb. Bundan əlavə, 5-ci və 522-ci alayın şəxsi heyəti avtomobil və zirehli texnikalarını ataraq mövqelərindən geri çəkilib.

Qırmızı Bazar məntəqəsi istiqamətinə endirilən artilleriya zərbəsi nəticəsində 1-ci alayın daimi dislokasiya məntəqəsində yeraltı sığınacaq və düşmənin geri çəkilən bölməsinin 2 texnikası məhv edilib.

Məlumata əsasən, canlı qüvvə sarıdan xeyli itki verən düşmən ordusunda ölənlər arasında 246-cı alayın tabor komandiri polkovnik-leytenant Artur Qriqoryan da var.

Ermənistan silahlı qüvvələrinin 1-ci alayının müdafiə sahəsində geri çəkilən bölmələr arasında rabitə və qarşılıqlı əlaqənin pozulması səbəbindən özləri bir-birlərinə atəş açıblar. Tank əleyhinə və digər bölmənin şəxsi heyətləri də döyüş mövqelərini tərk ediblər. Qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünə malikdirlər.

❖❖❖

Goranboy, Tərtər və Ağdam rayonlarının ərazisi humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulublar.

❖❖❖



Prezident İlham Əliyev Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə verərək qeyd edib ki, Ermənistan atəşkəs rejimi tətbiq olunandan sonra da öz çirkin əməllərini davam etdirib. Azərbaycan hər zaman olduğu kimi, sözünə sadiq qalıb:

“Bir halda ki, bu atəşkəs haqqında açıqlama verilmişdir, biz ümid edirdik ki, bundan sonra Dağlıq Qarabağ məsələsi siyasi yollarla həll ediləcək. Çünki hesab edirdik ki, hərbi mərhələ artıq başa çatıb, təcavüzkar döyüş meydanında dərsini alıb və bundan sonra reallıqlarla hesablaşıb, diplomatik müstəvidə müsbət yanaşma göstərəcək. Ancaq təəssüf ki, biz bunu görmədik və saat 12-dən qüvvəyə minməli olan atəşkəs Ermənistan tərəfindən pozulmuşdur”.

İlham Əliyev deyib ki, gecə saatlarında mülki şəxslərə qarşı dəhşətli cinayət törədilib. Gəncə şəhəri bombardman edilib. Şəhər “Toçka-U” raketləri ilə atəşə məruz qalıb və bunun nəticəsində mülki vətəndaşlar həlak olub və yaralanıblar. Bunu erməni faşizminin eybəcər sifətinin növbəti təzahürü adlandıran Azərbaycan Prezidenti artıq dünya erməniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələrin bu cinayəti gizlədə bilməyəcəklərini vurğulayıb: “Çünki artıq hər şey göz qabağındadır. Dünən o hadisə yerində təşkil olunan mətbuat açıqlamaları və bu gün oraya gedən xarici səfirliklərin nümayəndələri öz gözləri ilə hər şeyi görürlər. Bir daha görürlər ki, bu münaqişənin səbəbkarı kimdir. Kim təcavüzkar siyasət aparır, kim mülki əhaliyə qarşı cinayət törədir. Ermənistan dövləti terror dövlətidir, faşist dövlətidir və insanlığa qarşı törədilmiş bu cinayət bunu bir daha göstərdi”.

Ali Baş Komandan bir daha qeyd edib ki, artıq təmas xətti yoxdur və Azərbaycan Ordusunun xilaskarlıq missiyası davam edir.

❖❖❖



Müdafiə Nazirliyi məlumat yayaraq bildirir ki, Ermənistan tərəfinin guya Azərbaycan Ordusunun Hadruta daxil olmaq məqsədilə bu istiqamətdə xeyli sayda qüvvə cəmləşdirməsi və gərgin döyüşlərin getməsi barədə yaydığı məlumat açıq-aydın dezinformasiyadır.

Xatırladırıq ki, Hadrut artıq bir neçə gün bundan əvvəl Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunub.

Azərbaycan Ordusu humanitar atəşkəs rejiminə ciddi riayət edir və heç bir aktiv döyüş fəaliyyəti həyata keçirmir.

❖❖❖

Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində düşmənin 2 PUA-sı, Ağdam rayonu istiqamətində isə 1 PUA-sı hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

❖❖❖

Döyüş əməliyyatlarında iştirak edən şəxsi heyətin təminat və təchizat məsələləri diqqət mərkəzində saxlanılır və dərhal həll olunması ilə bağlı tədbirlər görülür. Qoşunların hərbi texnika, silah-sursat, yanacaq-sürtkü materialları, ərzaq və əmlakla təmin edilməsi müvafiq idarə və xidmətlər tərəfindən sutka ərzində fasiləsiz həyata keçirilir. Bu məqsədlə döyüşlər gedən ərazilərə yaxın yerlərdə səyyar təminat və məişət xidməti məntəqələri yaradılıb.

*Rəşad BAXŞƏLİYEV,*
*“Azərbaycan”*

# Vətən müharibəsi şəhidi Məhəmmədəli Məhəmmədəlizadənin xatirəsi anılıb





Ağdam rayonu Güllücə kənd sakini Məhəmmədəli Məhəmmədəlizadənin Vətən müharibəsində şəhadətə yüksəlməsindən üç il keçir. Bu münasibətlə Quzanlı qəsəbəsində yerləşən Şəhidlər xiyabanında anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, Qarabağ müharibəsi veteranları, məktəblilər şəhidlərin məzarları önünə qərənfillər düzərək onların əziz xatirəsinə ehtiramlarını bildiriblər. Canlarını Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə dualar oxunub, xatirələri birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edənlər Vətən müharibəsində qazanılan zəfərdən danışıb, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda gedən 44 günlük mübarizədə xalqımızın bir yumruq kimi həmrəylik, əzm və iradə nümayiş etdirdiyini, əsgər və zabitlərimizin qəhrəmanlıq salnaməsi yazaraq düşmən üzərində parlaq qələbə qazandığını bildiriblər.

Qeyd edək ki, şəhid çavuş Məhəmmədəlizadə Məhəmmədəli Asif oğlu 1992-ci il aprelin 28-də Ağdamın Güllücə kəndində anadan olub. O, 2020-ci il oktyabrın 8-də Ağdam rayonunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib, oktyabrın 11-də Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunub. Ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilib.

# Meksika mətbuatı Makronun uğursuzluqları və beynəlxalq arenada Fransa siyasətinin tənəzzülü barədə yazır

Meksikanın tanınmış "Milenio" qəzetində "Makronun uğursuzluq aludəsi: beynəlxalq arenada Fransa siyasətinin tənəzzülü" sərlövhəli məqalə dərc olunub.

Azərbaycanın Meksikadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, bu ölkənin ən nüfuzlu ali təhsil ocaqlarından biri olan Meksika Milli Muxtar Universitetinin professoru, siyasi şərhçi Talya İşcanın müəllifi olduğu məqalədə Fransa Prezidenti Emmanuel Makronun hakimiyyətə gəldikdən sonra aldığı uğursuz qərarlar və atdığı yanlış addımlar nəticəsində Fransanın beynəlxalq arenadakı nüfuzunun və rolunun sarsılması, bunun bariz nümunəsi kimi belə uğursuz qərarlar nəticəsində ölkəmizə qarşı qərəzli münasibətilə Ermənistanla Azərbaycan arasındakı münasibətlərin normallaşması prosesində maneə törətməsindən bəhs olunur.

Məqalədə Avropanın enerji təhlükəsizliyi üçün strateji əhəmiyyət kəsb edən Qafqazda sabitliyin bərqərar olması üçün Ermənistanla Azərbaycan arasındakı münasibətlərin normallaşmasının vacibliyi vurğulanır, lakin Makron administrasiyasının bu prosesi dəstəkləmək əvəzinə, hər vəchlə bu prosesə təxribat xarakterli qərarları ilə maneə törətdiyi qeyd olunur.

Həmçinin bildirilib ki, Qranada görüşündən əvvəl Makronun xarici işlər nazirini Ermənistana göndərməsi, onun orada Azərbaycan və Türkiyə əleyhinə qərəzli fikirlərlə çıxış etməsi, fransız lobbisinin təsiri ilə Avropa Parlamentində normallaşma prosesini çətinləşdirən Azərbaycan və Türkiyəyə qarşı qərəzli və əsassız daha bir qətnamənin qəbulu Fransanın regionda sülhün bərqərar edilməsində maraqlı olmadığının göstəricisidir.

Məqalədə separatçı rejimin ləğvi ilə regionumuzda sülh prosesinin qarşısında duran son maneənin aradan qaldırıldığı, habelə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının bəyanatları ilə bölgədə heç bir "etnik təmizləmə"nin olmadığının açıq şəkildə göstərildiyi və bununla da Fransanın əsassız iddialarının yalnız dezinformasiya yaratdığı vurğulanır.

Müəllif Fransanın Azərbaycanla bağlı qərəzli mövqeyi nəticəsində Avropa Parlamentinin ölkəmizə qarşı sanksiyalar tətbiq etmək və Avropanın bəzi siyasətçilərinin hətta Azərbaycan qazının alınmasını dayandırmaq təkliflərini xatırladaraq, Makronun belə uğursuz qərarlarının digər Avropa ölkələrinin enerji təchizatını təhlükə altında qoyduğuna diqqət çəkib.

# Qripəbənzər kəskin virus infeksiyası yayılır



Dünyada 6 milyondan çox insanın ölümünə səbəb olan COVID-19 virusu mutasiyaya uğramağa və yayılmağa davam edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, koronavirusun yeni subvariantları olan Eris ("EG.5") və Pirolanın ("BA.2.86") artıq 58 ölkədə təsdiqlənib.

Cənubi Koreya, Rusiya, ABŞ, Avstraliya, Sinqapur və Avropanın bir sıra ölkələrində COVID-19-a yoluxma hallarında kəskin artım müşahidə olunur. Bu isə subvariantların qeydə alındığı ölkələrdə müvafiq mübarizə tədbirlərinin başlanmasına rəvac verib.

COVID-19-un digər ölkələrdə yayılma ehtimalı da olduqca yüksəkdir. Azərbaycanın hələ ki bu siyahıda olmaması sevindirici haldır. Lakin son zamanlar qripəbənzər kəskin respirator virus infeksiyasının yayılması bu ehtimalı və əhali arasında narahatlığı artırır.

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, payız və qış aylarında havaların soyuması zamanı kəskin respirator virus infeksiyaları daha çox yayılır: "İstər böyüklər, istərsə də uşaqlar arasında çoxsaylı xəstələnmə halları baş verir. Bu viruslar müxtəlifdir və hər mövsümdə yenilənirlər. Onların törətdikləri xəstəliklərin əlamətləri isə oxşar olur. Bu, koronavirusun klinik çalarları ilə eynidir".

T.Eyvazov qeyd edir ki, COVID-19 virusunun əlamətlərini özündə hiss edən hər bir şəxs mütəxəssisə müraciət edərək məhz koronavirus infeksiyasının olub-olmamasını müəyyən edə, laborator üsullarla bu suala cavab ala bilər: "Onu da qeyd edək ki, qrip və koronavirusdan savayı, adıçəkilən respirator viruslar yüngül keçir, çox az hallarda, əsasən risk qruplarına daxil olan insanlarda müəyyən fəsadlar verə bilir. Ona görə də bu cür mövsümi virus infeksiyaları xüsusi hallar olmadıqda heç bir ölkədə rutin identifikasiya olunmur. Risk qruplarına daxil olan insanların isə qrip və koronavirusdan peyvənd vasitəsilə qorunmaları tövsiyə olunur".

İnfeksionist deyir ki, ümumilikdə ölkədə epidemioloji durum stabil olaraq qalır: "Ötən il olduğu kimi, bu il də fon səviyyəni aşmır. Statistik göstəricilər onu deməyə əsas verir ki, ölkədə koronavirusun yayılması kiçik həddədir, son vaxtlar yoluxma sayında artımlar olsa da, bu kütləvi deyil. İstər koronavirusdan, istərsə də bütün respirator viruslardan qorunma yolları eynidir. Yəni pandemiya dövründə öyrəndiyimiz qızıl qaydalar bizləri bu xəstəliklərdən qoruya bilər".

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankına məxsus Bakı şəhəri, M.Seyidov küçəsi, 20A ünvanında yerləşən inzibati bina üçün mühafizə xidmətinin satınalınma prosedurları çərçivəsində keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 20 sentyabr 2023-cü il tarixli qərarına əsasən "İNAM ÖZƏL MÜHAFİZƏ ŞİRKƏTİ" MMC qalib elan edilmişdir. Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Satınalmalar komissiyası*

*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## *açıq tender elan edir*

**Şabran rayonu E.Mütəllimov adına Ağalıq kənd 624 şagird yerlik tam orta məktəbin tikintisi işlərinin satın alınması.**

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 2000,00 (iki min) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (25.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (25.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış) (25.09.2023-cü il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 25.09.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə "Tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 2 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının maddi-texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **2 noyabr 2023-cü il saat 12:00-dək**, tender təklifi və tender təklifinin bank təminatını **14 noyabr 2023-cü il saat 12:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **15 noyabr 2023-cü il saat 12:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Rəşad Cəfərliyə atası

**İSLAM CƏFƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in İcraiyyə Komitəsi Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçilərinin HİRK-in sədri Mirkazım Abasova əzizi

**NƏCİBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi

**NATİQ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi

**NATİQ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi nazir müavini Mehman Baxışova həyat yoldaşı

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin Genetika kafedrasının müdiri Kamilə Əliyeva və əməkdaşları kafedranın professoru

**RAUF ƏLƏKBƏR OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi müdafiə sənayesi nazirinin müavini Mehman Baxışova həyat yoldaşı

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi

**NATİQ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfliyə əzizi

**NATİQ ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Maşınqayırma Zavodunun kollektivi müdafiə sənayesi nazirinin müavini Mehman Baxışova həyat yoldaşı

**MEHRİBAN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5346
Sifariş 2617

Qiyməti 40 qəpik